MÜNDƏRİCAT

Modul 1: Elektrik/elektronika əsaslı təcrübə 3
1. Rezistorların dəyərinin yoxlanılması 4
2. Gərginlik və cərəyanın ölçülməsi 10
3. Ulduz - Üçbucaq dövrəsinin ölçülməsi 20
4. RLC dəyərinin hesablanması 27
5. Elektrik qanunları ilə idarə olunan sxemlərin ölçülməsi 44
6. Elektrik gücünün ölçülməsi 51
7. Tranzistor sxemlərinin yoxlanılması 60
8. Yarımkeçirici cihazların birləşdirilməsi 66
9. Düzləndirici sxemin qurulması 71
10. Mühərrikin iş (fırlanma) dövrəsinin yığılması 78

Modul 2: Elektrotexnika avadanlığı təcrübəsi 1, 2 84
1. SC şunt mühərriki təcrübəsi 85
2. Ardıcıl SC mühərriki təcrübəsi 97
3. Transformator təcrübəsi 104
4. SC Qarışıq (kampaund) generator sınağı 113
5. İnduksiya mühərrikinin dönmə anının ölçülməsi 121
6. Y- D Birləşməsinin qurulması 126
7. DC Gərginliyin/Cərəyanın ölçülməsi 133
8. Tək fazalı induksiya (asinxron elektrik) mühərrikini yığmaq 139
9. Üç fazalı induksiya mühərrikini yığmaq 147
10 HMI cihazların şəklini çəkmək 165

Modul 3: Məntiqi idarəetmə proqramının tətbiqi 1, 2 173
1. MİP proqramını və quruluşunu qurmaq 174
2. Proqramın təməl dili 185
3. Proqram/əlaqə, lampaları idarəetmə sxemi 197
4. Proqram/əlaqə, mühərriki idarəetmə sxemi 206
5. Əlaqə, F/R və Y-D sxemi 211
6. Dizayn/proqram, avtomatik qapı sxemi 219
7. Proqram/əlaqə, taymer sxemi 226
8. Proqram/əlaqə, sayğac sxemi 234
9. Əlaqə, konveyer sxemi 241

10. Proqram/əlaqə, elevator sxemi 247
11. Dizayn/proqram, yanğın detektoru sxemi 258
12. Dizayn/proqram, səviyyəni nizamlama sxemi 265
13. Dizayn/proqram, istilik sistemi 272
14. Sintez sistemi yaratmaq (dizayn sxemi) 278

Modul 4: Ardıcıl nəzarət təcrübəsi 1, 2 286
1. Sadə elektrik cihazların simvollarının yoxlanması 287
2. Elektrik cihazların pin nömrəsinin yoxlanması 304
3. Motorun nəzarət dövrəsinin qoşulması 313
4. Düz istiqamətli/Əks istiqamətli dövrədə hərəkət 322
5. Lift nəzarət sisteminin qurulması 327
6 . Lövhə dəzgah sisteminin qurulması 337
7. Avtomobilin Y-D işə salma sisteminin qurulması 343
8. Su səviyyəsinə nəzarət sisteminin qurulması 349
9. Avtomatik qapı sisteminin qurulması 355
10. Ümumi nəzarət sisteminin qurulması (1) 361
11. Ümumi nəzarət sisteminin qurulması (2) 386

Modul 5: Elektrik işi üzrə təcrübə 1, 2 375
1. Elektrik naqilinin birləşdirilməsi (1) 376
2 . Elektrik naqilinin birləşdirilməsi (2) 382
3. Açar dövrəsinin qoşulması 397
4 . 2 keçidli dövrənin qoşulması 403
5. Lampa dövrəsinin qoşulması 407
6. Avtomatlaşdırma dövrəsinin hazırlanması 413
7. Avtomatik proses idarəetmə sisteminin hazırlanması 418
8. Yanğından mühafizə sisteminin təşkili 425
9. Lampa idarəetmə sisteminin təşkili 433
10. İzafi yüklü siqnalizasiya sisteminin təşkili 442
11. Mühərrikin ardıcıl idarəetmə sisteminin təşkili 451
12. Sintez idarəetmə sisteminin təşkili (1) 463
13. Sintez idarəetmə sisteminin təşkili (2) 473

Sərişdə əsaslı modul

ELEKTROTEXNİKA

Elektrik/elektronika əsaslı təcrübə



Sənaye və İnnovasiyalar üzrə
Bakı Dövlət Peşə Təhsil Mərkəzi

1. Müvəqqəti çərçivələrin qurulması

İİşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Rezistorların dəyərinin yoxlanılması
2. Rezistorun dəyərələrini dəqiq yoxlamağı bacaracaq.

Təcrübə materialları:
1. Müxtəlif növ rezistorlar;
2. Kabel;
3. Ağ qələvili maddə və ya əhəng;
4. Su;
5. Maska.

Avadanlıqlar və alətlər:
1. Analoq sınaq qurğusu/rəqəmsal sınaq qurğusu;
2. İti ağız kəlbətin;
3. Uzun burun kəlbətin;
4. Kəlbətin.

Mövzu ilə əlaqəli biliklər

1. Rezistorun rəngini necə oxumalı?

(1) Müqavimət cihazdan keçən elektrik cərəyanını cihaz və ya material necə azaltdığını ölçən elektrik miqdarıdır. Müqavimət om (Ω) vahidləri ilə ölçülür. Müqavimətin hesablanması, keçiricinin müqaviməti naqilin materialının xüsusi müqavimətinin naqilin uzunluğuna vurularaq naqilin en kəsik sahəsinə bölünməsi nəticəsidir.

$$R=\rho\times\frac{l}{A}\text{----------(1)}$$

R-müqavimət, om (Ω), ρ -xüsusi müqavimət, om-metr (Ω×m), l- nəqilin uzunluğu, metr (m), A-nəqilin en kəsik sahəsi, kv. metr (m^2)

(2) Rezistor elektrik cərəyanını azaldan elektrik komponentidir. Rezistorun cərayanı azaltmaq qabiliyyəti müqavimət adlanır və om vahidləri ilə ölçülür (işarəsi: Ω). Sabit rezistor işarəsi (ANSI standard)

Şəkil 1: Rezistorun simvolu

2. Müvafiq cihazları necə istifadə etməli?

(1) Aşağıdakı bölmələrdə müxtəlif zolaqlar üçün nümunələr verilmişdir, lakin ilk növbədə rəng

kodunu oxumaq üçün bir sıra məsləhətlər qeyd edilmişdir: Oxun istiqaməti həmişə aydın olmaya bilər. Bəzən 3 və 4-cü zolaqlar arasında artan boşluq oxun istiqamətini verir. Bundan əlavə, ilk zolaq adətən başlanğıca ən yaxındır. Qızıl və ya gümüş zolaq (tolerans) həmişə son zolaqdır.

(2) İstifadə olunan kodlaşdırma sisteminə əmin olmaq üçün istehsalçının sənədlərini yoxlamaq yaxşı bir təcrübədir. Müqaviməti ommetr ilə ölçmək daha yaxşıdır. Bəzi hallarda bu, müqaviməti müəyyən etmək üçün yeganə yol ola bilər; məsələn, rəng zolaqları yandığı zaman.

(3) Dörd zolaq rəng kodu ən çox yayılan dəyişiklikdir. Bu rezistorların müqavimət dəyəri üçün biri çoxaldıcı və digəri tolerans olan iki zolağı var. Nümunədə soldakı zolaqlar yaşıl, mavi, qırmızı və qızılıdır. Bu rəng kodu sxemini istifadə edərək, yaşıl 5 və mavi 6-cı zolağı ifadə etdiyi müəyyən edilə bilər. Bu dəyər 56 • 100 = 5600 Ω təşkil edir. Qızılı rəngli zolaq rezistorun 5% toleransa malik olduğunu bildirir. Buna görə müqavimət dəyəri 5320 ilə 5880 Ω arasındadır.

Tolerans zolağı boş qaldıqda, nəticə 3 zolaqlı bir rezistordur. Bu müqavimət dəyərinin eyni qalması deməkdir, lakin tolerans 20% -dir.

3. Rezistorun rəng kodu



COLOR	1ST BAND	2ND BAND	3TH BAND	MULTIPLIER	TOLERANCE	
BLACK	0	0	0	1		
BROWN	1	1	1	10	± 1%	F
RED	2	2	2	100	± 2%	G
ORANGE	3	3	3	1K		
YELLOW	4	4	4	10K		
GREEN	5	5	5	100K	± 0.5%	D
BLUE	6	6	6	1M	± 0.25%	C
VIOLET	7	7	7	10M	± 0.10%	B
GREY	8	8	8		± 0.05%	A
WHITE	9	9	9			
GOLD				0.1	± 5%	J
SILVER				0.01	± 10%	K
PLAIN					± 20%	M

Şəkil 2: Rezistor rənginin oxunması

4. Əlaqədar cihazların istifadə edilməsi

(1) Aşağıdakı bölmələrdə müxtəlif zolaq diapazonları üçün nümunələr təqdim olunur, lakin ilk növbədə rəng kodunu oxumaq üçün bir neçə məsləhətlər verilir.

(2) Oxun istiqamətinin aydın təyin olunması hər vaxt mümkün olmur. Bəzən 3 və 4-cü diapazonlar arasında artan məsafə oxun istiqamətini bildirir. Bundan əlavə, ilk zolaq adətən birinciliyə ən yaxındır. Gümüş və ya qızıl zolaq (yol verilə bilən fərq) həmişə sonuncu zolaq olur.

(3) İstifadə olunan kodlaşdırma sistemi ilə tanış olmaq üçün istehsalçının sənədlərini yoxlamaq tövsiyə edilir. Multimetr ilə müqaviməti ölçmək daha yaxşıdır. Bəzi hallarda; məsələn, rəng zolaqları yandığı zaman, bu hətta müqavimətin təyin edilməsi üçün yeganə yoldur.

(4) Dörd zolaqlı rəng kodu ən geniş istifadə olunan variantdır. Belə rezistorların müqavimət dəyəri üçün iki zolaq, bir multimetr və bir yol verilə bilən fərq diapazonu olur. Nümunədə sol tərəfdə bu rezistor zolaqları yaşıl, mavi və qızıl rəngindədir. Rəng kodu sxemində yaşıl rəng 5, mavi isə 6 üçündür. Beləliklə dəyər 56•100 =5600 Om-dur. Qızıl zolaq rezistorun yol verilə bilən fərqinin 5% olmasını bildirir. Müqavimət dəyərləri 5320 və 5880 Ω arasındadır.

Yol verilə bilən fərq zolağı boş qaldıqda rezistor 3 zolaqlı rezistordur. Bu, müqavimət dəyərinin eyni qalması, lakin yol verilə bilən fərqin 20% olması deməkdir.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. Rezistorla ölçmə

(1) Rezistorun sınağı üçün iki cihaz istifadə edilir: analoq və ya rəqəmsal multimetrlər. Adətən, rezistor işləməyəndə ya onun qiyməti artır, ya da tamamilə açılır (açıq dövrə). Analoq və ya rəqəmsal multimetrdə ommetrin diapazonunu seçərək rezistoru yoxlaya bilərsiniz. Rezistor dövrədə olarsa, siz, bir qayda olaraq, rezistoru çıxarmalısınız ki, dövrənin digər komponentlərini deyil, yalnız rezistorun qiymətini sınaqdan keçirəsiniz. Dövrədə müqavimət ölçmələrini yoxlayanda hər zaman mümkün geri (paralel dövrə) dövrələri barədə xəbərdar olun.



(2) Rezitorun sınağı üçün analoq metrin istifadə olunması

1. Əvvəlcə hər hansı bir ölçü aparmadan əvvəl rezistorun qiymətini bilməlisiniz. Əvvəlki bölmədə tanış olduğunuz rezistorun rəng zolağının hesablanması ilə, rəng zolaqlarına baxaraq rezistor qiymətinin müəyyən edilməsində probleminiz olmadığına əmin olun. Fərz etsək ki, siz rezistoru sarı, bənövşəyi, qara və qızıl rənglərlə ölçmüsünüz, hesablamada onun 47 Om, yol verilə bilən fərqi 5% olması məlum olur.



2. Analoq ölçü cihazınızı X1 Ohm vəziyyətinə qoyun, ölçü sensorunu qısaldın və əqrəbi tənzimləyib sıfır Om səviyyəsində saxlayın. Şəkildə göstərildiyi kimi, ölçü sensorlarını rezistorun iki nöqtəsində yerləşdirin. Sensorların bu iki nöqtənin hansına birləşdirilməsinin fərqi yoxdur, çünki batareyadan fərqli olaraq rezistorun qütbləri (mənfi və müsbət) yoxdur. Əqrəbi müşahidə edərək 47 Om-a yaxın vəziyyətə çatdırmalısınız.

3. Əgər 47 Om-dan artıq, deyək 150 Om əldə etsəniz, bu o deməkdir ki, rezistor müqaviməti yüksəlib və dəyişdirilməlidir. Əgər sensorlar iki nöqtələrdə yerləşdirildirkdən sonra o reaksiya göstərməsə, biz elə nəticəyə gələ bilərik ki, rezistorun dövrəsi açıqdır (nasazdır). Ölçü zamanı rezistorun çıxışlarına bir qədər bərk basmağı unutmayın, əks halda siz dəqiq göstərici əldə edə bilməyəcəksiniz və ya göstəricinin oxunmasında fasilələr ola bilər.



4. Eyni şəkildə 15 Om rezistoru yoxlamaq istəyirsinizsə, iki zondu bir-birinə birləşdirin və tənzimləyicini (düyməni) tənzimləyərək kalibrləyin. Siz ölçü cihazının X1 K Om l K diapazonunda yerləşdirin ki, ölçü diapazon daxilində olsun. 15 K Om rezistorun sınağı üçün X1 Om diapazonu istifadə edildikdə əqrəb heç bir hərəkət etmir. Hətta əqrəb hərəkət edə bilsə belə, o yalnız bir qədər yüksək istiqamətə hərəkət edə bilər.

5. Əqrəbin dəqiq 15 K Om vəziyyətində və ya ona yaxın olub-olmamasını görmək üçün nəticəni yoxlayın. Rezistorun yol verilən fərqi 5 % olduqda, əqrəb 14.25K -15.75 K Om qiymətləri arasında yerləşməlidir. Hər hansı bir dəyər yol verilən fərq arasında olmadıqda, rezistoru dəyişdirməlisiniz.

6. 100 K Om rezistoru yoxlamaq üçün X 10 K Om diapazonunu seçməlisiniz. Yuxarıdakı qayda ilə hərəkət edərək ölçüləri əldə edə biləcəksiniz.

(3) Rəqəmsal ölçü cihazı ilə rezistorun sınağı

1. Şəxsən mən rezistorun sınağı üçün rəqəmsal ölçü cihazını istifadə etmirəm, çünki ölçü cihazının panelində göstərilən nəticə əsasında siz rezistor dəyərini təxmini təyin etməlisiniz. Özünüzə sual verə biləsiniz ki, bu 47 Om və ya ;7.5 Om və hətta 47.7 Om-dur? Rəqəmsal ölçü cihazın istifadə edildikdə, ölçü cihazınızınız LCD displeyi sınaqdan keçən müqavimətin dəqiq dəyərini göstərəcək. Bu, analoq ölçü cihazından daha dəqiqdir.



2. Əvvəlcə Om diapazonunu seçin və şəkildə göstərildiyi kimi ölçü sensorunu iki nöqtələrdə yerləşdirin. Analoq ölçü cihazında ölçüdən əvvəl tənzimləyici sıfır Om səviyyəsində yerləşdirilməlidir, rəqəmsal ölçü cihazı isə heç bir kalibrləmə tələb etmir. Rəqəmsal ölçü cihazının LCD displeyində göstərilən nəticə rezistorun dəqiq müqavimət dəyəridir.

3. Rəqəmsal ölçü cihazı həqiqətən bütün təxmini müəyyənləşdirməni aradan qaldırdı. Bununla yanaşı, bir çox rəqəmsal ölçü cihazları avtomatik diapazonludur, bu dəməkdir ki, rezistorun hər hansı bir dəyərini yoxlamaq istəsəniz, rezistoru sınamaq üçün müvafiq diapazona uyğun tənzimləmə tələb olunmur və cihaz avtomatik olaraq sizə nəticə verəcək. Bu vaxta qənaət edir və eyni zamanda dəqiqdir.

4. Əgər sizin təcrübəniz yoxdursa, israrla tövsiyə edirəm ki, bütün rezistorların ayağını (yalnız bir ayağı nəzərdə tuturam) ayırıb, onu rəqəmsal ölçü cihazınız ilə sınayasınız.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Cihazın göstəricilərinin necə oxunmasını izah etdi? 2. Rezistor göstəricilərini oxudu? 3. Rezistoru rənglər üzrə təsnif etdi? 4. Elektrik dövrəni tərtib etdi? 5. Rezistorun dəyərini ölçdü? 6. Elektrik rezistorunun işarəsini təyin etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

2. Gərginlik və cərəyanın ölçülməsi

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Gərginlik/cərəyan anlayışını izah edə biləcək;
2. Dövrədə gərginlik/cərəyan dəyərini düzgün ölçə biləcək.

Təcrübə materialları:
1. Müəyyən yük;
2. Müxtəlif rezistorlar.

Avadanlıqlar və alətlər:
1. Analoq və rəqəmsal sınaq qurğusu;
2. Elektrik təchizatı;
3. Lövhə altlığı;
4. Lövhə (Voltmetr);
5. SC elektrik təchizatı O -50V İA;
6. Rəqəmsal multimetr;
7. Birləşdirici naqil.

Mövzu ilə əlaqəli biliklər

1. Gərginlik/cərəyan anlayışı

(1) Voltmetrlər və gərginliyin ölçülməsi. Analoq voltmetr ölçü cihazı və ardıcıl şəkildə ölçü cihazı ilə birləşdirilən əlavə rezistorlardan ibarətdir. SC voltmetrləri üçün ölçü cihazının tam həssaslığı (FS) özü 50 uA - 1 mA, daxili müqavimət 500~1000 Om arasındadır. Buna görə 100 uA və 1000 Om ölçü cihazı üçün tam giriş gərginliyi 100 uA x 1000 Q = 0.1 V təşkil edir. Əlavə rezistorların məqsədi, giriş göstəricisi minus tam həssaslıq ölçü cihazı gərginliyinə bərabər olan gərginliyi azaltmaqdır. Məsələn, Sxemdə göstərilən 10V giriş göstəricisini ölçəndə əmələ gələ bilən maksimal gərginlik.

Voltmetrin daxili strukturu:



1 R1 = Əlavə rezistor;
2 R2 = Ölçü cihazının daxili müqaviməti;
3 Va = Ölçülən gərginlik.

Ölçü cihazı həssaslığı FS 1 mA və ölçü cihazı müqaviməti 1000 Om olsa ölçü cihazı üzrə 1V olur. Buna görə qalan 9V-i əlavə rezistor sərf edir. Sxemdə R1 qiyməti aşağıdakı addımlarla müəyyən edilir.

V2 = I x R2 = lmA x 1000 Ω = 1 V (ölçü cihazının FS),V1 = Ve - V2 = 10 - 1 = 9V

$$\text{Therefore, } R_1 = \frac{V_1}{I} = \frac{9V}{1mA} = 9000\ \Omega$$

Beləliklə, R1 =V1/I = 9V/1mA =9000 Om

Yuxarıda göstərilən üsulun alternativi, giriş gərginliyinin ölçü cihazı, FS diapazonuna bölünməsi nəticəsi olan N göstəricisini tapmaqdır.

$$N = \frac{V_a}{V_2} = \frac{V_1 + V_2}{V_2}$$

Burada Ve = V1 + V2. V1 = İR1, V2. = İR2.

$$\text{Therefore, } N = \frac{IR_1 + IR_2}{IR_2} = \frac{R_1 + R_2}{R_2}$$

Beləliklə,

və R1 = (N-1) R2 = (10-1) X 1000 = 9000Ω

Qeydlər: Kommersiya voltmetrləri ölçü cihazını kalibrləmək üçün ölçü cihazı ilə ardıcıl birləşdirilən bir neçə yüz Om potensiometrdən ibarətdir.

2. Ampermetr və cərayanın ölçülməsi

(1) Ampermetr ölçü cihazı və ona qoşulan şunt rezistorundan ibarətdir. Ölçmə cihazının adi həssaslığı 50 mikroamperdən (uA) 1 milliamper tam həssaslıq (FS) diapazonundadır. Ölçü cihazının daxili müqaviməti 500Ω~l000Ω təşkil edir. 10A-dan artıq şunt müqaviməti olan rezistorlar üçün şuntun FS gərginliyi də müəyyən edilir. Məsələn, 10A və 50 mA üçün təyin edilmiş şunt ölçü cihazının FS giriş gərginliyi 50 mV olanda, bu 10A-ya bərabərdir. başqa sözlə, ölçü cihazının həssaslığı 10 uA və daxili müqavimət 5000 olduğu halda, ölçü cihazının FS giriş gərginliyi 10uA x 500 500Ω=50mV olar.

Ampermetrin quruluşu:



1 Rt = ölçü cihazının daxili müqaviməti;
2 R2 = şunt rezistoru;
3 Em = ölçü cihazının FS giriş gərginliyi;
4 It = RL müqavimət yükündən keçən cərəyan (ölçülən cərayan) (ölçülməlidir).

Daha ətraflı təhlil Şəkildə göstərilir. Burada ölçü cihazının həssaslığı 1mA, daxili müqavimət 1000 om təşkil edir. Ümumi cərəyan It İt-yə h-a bölünür. İki paralel rezistorlar R1 və R2 üzrə gərginlik Em eyni olmalıdır. Buna görə R1 Xİ1 =R2X12.

$$R_2 = \frac{R_1 \times I_1}{I_2} = \frac{R_1 \times I_1}{I_T - I_1}$$

Şəkil 3-də dövrədə R2:

$$R_2 = \frac{R_1 \times I_1}{I_T - I_1} = \frac{1k\Omega \times 1mA}{1A - 1mA} = \frac{1V}{0.999A} = 1.001\Omega$$

R2 qiymətini tapmaq üçün digər bir yol - ölçülən cərəyanın ölçü cihazının FS cari dəyərinə N nisbətidir.

$$N = \frac{I_T}{I_1} = \frac{I_1 + I_2}{I_1} \quad \text{Also,} \quad I_1 = \frac{Em}{R_1}, \; I_2 = \frac{Em}{R_2}$$

və Em = FS ölçü cihazının FS giriş gərginliyi

$$\text{Therefore, } N = \frac{\frac{Em}{R_1} + \frac{Em}{R_2}}{\frac{Em}{R_1}} = R_1\left(\frac{1}{R_1} + \frac{1}{R_2}\right) = 1 + \frac{R_1}{R_2}$$

$$\text{Therefore, } R_2 = \frac{R_1}{(N - 1)}$$

R 2 tapmaq üçün yuxarıdakı nisbətləri tətbiq edin. 1 mA ampermetr 1 A cərayanın ölçülməsi üçün istifadə olunur, buna görə\.N= 1A/1mA = 1000.

$$R_2 = \frac{R_1}{(N - 1)} = \frac{1k\Omega}{(1000 - 1)} = 1.001\Omega.$$

Qeydlər: Multimetrlərin əksəriyyətində kalibrləmə imkanlarını təmin etmək üçün, dəyəri bir neçə yüz Om olan ölçü cihazı ilə ardıcıl birləşdirilmiş potensiometr quraşdırılır.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. Sınaq 1 : Voltmetrlər və gərginliyin ölçülməsi

(1) Tələb olunan avadanlıq



(2) Prosedur

• Daxili müqavimət və multiplikator:

1. "VOLTMETER (N0-02)" panelini rəfə quraşdırın.

2. OC təchizatı çıxışını 5V vəziyyətinə uyğunlaşdırın və çıxışı panelin + və - sıxaclarına birləşdirin.

3. Şəkil 3-2 -də punktir xətlə göstərildiyi kimi, ölçü cihazlarını panelə birləşdirin. Ölçü cihazının tam şkalasının 1mA göstərdiyinə əmin olun.

4. Rəqəmsal multimetri istifadə edərək ölçü cihazında (E1) gərginliyi ölçün. Ölçü cihazının daxili müqavimətinin (Rm) 1 K Om olduğunu qəbul edin. Ei istifadə edərək ölçü cihazının həssaslığını hesablayın.

5. Rəqəmsal multimetrdən istifadə edərək əlavə rezistorda (Rm) müqaviməti (E2) ölçün. İki gərginliyi, E1 və E2, cəmləşdirin. Məbləğ 5 V olmalıdır.

Qeyd: Ölçü cihazının, multi-testerin və rezistorların ümumi səhvləri + -3%-dir.

6. Giriş gərginliyi 3V olduğu halda, cərəyan (I) neçə mA olar? Nəticəni ölçü cihazının faktiki göstəriciləri ilə müqayisə edin.

Qeydlər: Ümumi yük müqaviməti (RM+Rm) dəyişməz qalsa ölçü cihazı cərəyanı mənbə gərginliyinə mütənasibdir. Buna görə, FS ölçü cihazı göstəricisi 1mA, mənbə gərginliyi 5V olduqda FS göstəricisinin yarısı (0.5 mA) üçün tələb olunan mənbə gərginliyi 2.5 V olar.

• Multimetrin iş prinsipi

1. SC mənbəyini 50V vəziyyətinə qoyun və çıxışı panelin + və COM sıxaclarına birləşdirin.

2. Birləşdirici naqili COM və 50V sıxacları arasında yerləşdirin. Ölçü cihazının göstəricilərini yoxlayın (FS ölçü cihazının həssaslığı 1 mA-dır). Belə vəziyyətdə əlavə müqavimət nə qədərdir? Ölçü cihazı cərəyanını hesablayın və cərəyanın həqiqətən 1 mA olmasını yoxlayın.

3. 10 V ölçmək üçün COM hansı vəziyyətdə olmalıdır? Ölçü cihazı cərəyanını mA-da hesablayın və voltmetrin nə üçün 10 V göstərəcəyini izah edin.

4. 5 V SC panelə birləşdirin və COM -u 5V diapazonuna yerləşdirin. Giriş sıxaclarını Şəkildə punktir xətlərlə göstərildiyi kimi birləşdirin. Ölçü cihazında gərginliyi ölçün.



Ölçülən gərginlik 5-ci addımda ölçülən göstəricidən aşağı ola bilər. Addım 5- də, E2 4v idi. Bunun səbəbini izah edin.

Qeydlər: Rəqəmsal cihazların əksəriyyətində ölçü müqaviməti kifayət qədər böyükdür və hər hansı bir mültimetrlərdə yükə təsir edən 10 MQ yaratmır. Lakin bu sınaqda istifadə olunan ölçü cihazının daxili müqaviməti 1000 Q/V təşkil edir. Buna görə, Şəkildə göstərildiyi kimi 4k Om əlavə rezistor ilə paralel yerləşdiriləndə 5V diapazonunda 51& ölçü müqaviməti az miqdarda yükləmə təsirinə malikdir.

$$R_T = \frac{R_M \times R_D}{R_M + R_D} + R_m \quad \therefore \quad \frac{4k\Omega \times 10M\Omega}{4k\Omega + 10M\Omega} + 1k\Omega \fallingdotseq 5k\Omega$$



Dövrə (a) üçün, ümumi müqavimət Rr;
Dövr (b) üçün isə, ümumi müqavimət Rr:

$$R_T = \frac{R_M \times R_A}{R_M + R_A} + R_m \quad \therefore \quad \frac{4k\Omega \times 5k\Omega}{4k\Omega + 5k\Omega} + 1k\Omega = 3.22k\Omega$$

Sxem (a)-da əlavə müqavimətə təsir yoxdur, lakin (b) sxemində ölçü cihazı müqavimətinin olması effektiv əlavə müqavimətin 2.22 COM olmasına gətirib çıxarır.

5. 1V-i dəqiq + -ə və COM sıxaclarına qoşun və COM-u 1.5V diapazonunda yerləşdirin. Əmin olun ki, hesablayıcının göstəricisi 1V olsun. Aşağı şkala istifadə olunmalıdır. RC potensiometri nizamlayın və nəticəni yoxlayın. Qeydlər: Potensiometrin məqsədi hesablayıcı müqavimətini kalibrləməkdir. Hesablayıcını kalibrləyərkən, daha yaxşı dəqiqlik üçün aşağı diapazonu istifadə etməyə üstünlük verilir.

(3) Xülasə

1. SC voltmetri SC ampermetrindən və əlavə rezistorlardan ibarətdir. Əlavə müqavimətin qiyməti artırma əmsalı N məlum olduqdan sonra FS hesablayıcı həssaslığı və hesablayıcı müqavimət əsasında müəyyən edilə bilər.

Misal: l00uA, 1 KΩ DC ampermetri istifadə edərək FS 100V voltmetri tərtib edin.

- FS giriş gərginliyi100 uA x 1 KΩ = 0..lV hesablayıcıya
- Artırma əmsalı N

$$N = \frac{100V}{0.1V} = 1000$$

- Artırma HM = (N-1) x Rm ::: (1000-1) x 1 kΩ = 999 kΩ
- Giriş gərginliyi həssaslığı, Om/Volt, aşağıdakı metoddan alınır.

100V diapazonunda giriş müqaviməti : RM + Rm :: 999 KΩQ + 1 kΩ = 1 MΩ.

$$Therefore, \frac{ohms}{volt} = \frac{1M\Omega}{100V} = \frac{10K\Omega}{V}$$

Ölçü səhvi Om/Volt rəqəmindən asılıdır. Daha yüksək Om/Volt ölçü səhvini azaltmaq üçün daha üstündür.

3. FS ampermetrin həssaslığı nə qədər yüksək olsa (bu halda FS cərəyanı daha azdır), voltmetrin giriş müqaviməti o qədər yüksəkdir. Nümunələr yuxarıda göstərilir. Sınaqlarda hesablayıcının giriş müqaviməti 1mA FS hesablayıcı üçün 1000 om İV idi. Lakin 100uA FS hesablayıcı üçün giriş müqaviməti 10,000Om/V qədər artmışdır. DC voltmetrləri bir qədər fərqli işləyir. İki növ DC voltmetri müəyyən edilir. Birinci tip əvvəlcə DC gərginliyini SC-yə düzləndirir, sonra isə gərginliyi ölçmək üçün SC voltmetr prinsiplərini istifadə edir. İkinci tip elektromaqnit mexanizmdən istifadə edir.

2. Sınaq 2: Ampermetr və cərəyanın ölçülməsi

(1) Tələb olunan avadanlıq

1. Lövhə altlığı

(2) Prosedur

• Daxili sayğac müqaviməti və şunt:

1. AMPERMETR panelini panel platasına yerləşdirin.

2. SC sabit cərəyan mənbəyinin çıxışını 10mA -ə tənzimləyin və cərəyan mənbəyini solda + və - sıxaclarına birləşdirin.

3. Rəqəmsal multitesterin cərəyan diapazonunu 20mA SC-də yerləşdirin və Şəkilin solunda A hərfi ilə işarələnmiş sıxaclara birləşdirin. Cərəyanı mA ilə ölçün.

4. Sayğacı Şəkil 4-2-də punktir xətlərlə göstərilən qaydada qoşun və FS sayğac göstəricisinin lmA olmasını yoxlayın. Şunt Rs ilə l2 cərəyanını yoxlayın. Cərəyan mənbəyi sabit cərəyan olduğuna görə, Rs-dən keçən cərəyan sayğacda sərf olunan cərəyan nəticəsində azalmalıdır. Sayğac FS qiymətini göstərdiyi halda, cəmi lr cərəyan miqdarı nə qədər olmalıdır? Ölçünün məqsədi nədir?

Qeydlər. Cərəyan mənbəyi sabit cərəyan olduğu üçün dövrədəki cəmi cərəyan yük müqavimətindən (sayğac müqaviməti və Rs) asılı olmayaraq, l0mA olmalıdır. Belə halda güman etmək olar ki, yük elədir ki, artıq müəyyən edilmiş sabit cərəyan əməliyyatına mane olmur. Əks halda SC mənbəyi sabit gərginlik rejiminə keçirilə bilər, bununla da yuxarıdakı müzakirə öz mənasını itirər.

5. Şəkildə punktir xətlərlə göstərildiyi kimi dövrəni birləşdirin. SC çıxışını 5V vəziyyətində yerləşdirin, çıxışı dövrənin + tərəfinə və yük rezistorunun – sıxacına birləşdirin. SC mənbəyini dəqiq tənzimləyib sayğacın düz lmA FS vəziyyətini təmin edin.



6. Rəqəmsal multimetrin gərginlik diapazonunu 20V təyin edin və yük rezistoru sıxaclarına birləşdirin. Gərginlik göstəricilərini yoxlayın. Təchizat gərginliyi Ee, yük boyu gərginlik Fa-dırsa, sayğac Em-də gərginlik nə qədər olmalıdır. Em mahiyyəti nədədir?



Ampermetr multimetrdə

7. Şəkildə göstərildiyi kimi, SC sıxacını l0mA sıxacına birləşdirin. + girişini və COM sıxaclarını punktir xətlərlə göstərildiyi kimi, Rs ilə ardıcıl birləşdirin.



8. Şəkildə göstərildiyi kimi birləşdirilən 500 Om yük ilə 5-ci addımda olduğu kimi SC təchizatını dəqiq tənzimləyin. Multimetrin gərginlik diapazonunu DC 20V vəziyyətinə qoyun və sayğacı yük rezistoru ilə birləşdirin. Cərəyan göstəricisini oxuyun və RL üzrə gərginliyi ölçün. RL üzrə ölçülən gərginlikdən ümumi İT cərəyanı hesablayın və İ1 və İ2 cəm rəqəmləri ilə müqayisə edin.

9. Şəkildə göstərildiyi kimi Rs Şunt rezistoru daxil edin. SC mənbəyini dəqiq tənzimləyib FS sayğac göstəricisini l mA vəziyyətə qoyun. RL üzrə gərginlikdən H hesablayın. Bu dəfə H 8-ci addımdakından niyə fərqli olmasını izah edin.

Ampermetr Rs ilə ardıcıl olduğu halda sayğacın müqaviməti Şuntun ümumi effektiv qiymətinə təsir göstərir.

Qeydlər. FS diapazonundan N dəfə artıq olan cərəyanı ölçmək üçün Şuntun qiyməti l/(N-1) əmsalı ilə Rm sayğacının daxili müqavimətindən az olmalıdır.

10. 500 Om yük rezistorunun + sıxacı ilə ardıcıl birləşdirin. SC sıxacını 100mA diapazonunda yerləşdirin. SC təchizatı çıxışını 50V qiymətinə tənzimləyin və SC çıxışını 500 OM və COM sıxacının bir tərəfinə birləşdirin.

11. 100 mA diapazonunda şuntun qiyməti 10.1 Om-dur. Sayğacın həssaslığı və sayğacın müqaviməti, müvafiq olaraq, 1 mA FS və 1 k Om olduğunu bilərək, Şuntun 12 cərəyanın hesablayın. SC və 100 mA sıxaclar arasındakı birləşməni çıxarıb rəqəmsal multimetrlə əvəz edin. Multimetri 200 mA vəziyyətinə qoyun və 12 cərəyanın hesablanmış dəyərlə eyni olub-olmamasını yoxlayın.

(3) Xülasə

1. Yüksək həssaslı sayğac və şuntlar SC ampermetrin əsas elementləridir. Sayğacın FS həssaslığı və daxili müqaviməti məlum olduqda, istənilən N əmsalı üçün Şunt dəyərləri təyin oluna bilər, burada N- ölçüləcək cərəyanın sayğacın FS həssaslığına olan nisbətidir.

Misal:1 mA və 1KQ sayğacla İA tam şkalasını ölçmək:

- şunt əmsalı N = IA / l mA = 1000.
- şunt R = Rm / (N-1) = 1000 I (1000 -1) = 1. 001 Ω.
- sayğacın giriş müqaviməti= R1 = (1 kΩ x I Ω) / (1 kΩ + 1 Ω) = 1000 / 1001 = 1 Ω.

N əmsalı artdıqca, R1 şuntun dəyərinə yaxınlaşır. Müəyyən N üçün daha yüksək həssaslıq və daha

aşağı daxili sayğac müqaviməti daha az Şunt dəyərləri verir.

2. Ölçmə səhvini minimuma endirmək üçün sayğacın bütün giriş müqaviməti minimuma endirilməlidir. Bu, aşağıdakı şəkildə izah olunur:



R1 = dövrə müqaviməti;

R2 = ampermetrin tam müqaviməti;

Şəkildən göründüyü kimi, ampermetrin daxil edilməsi dövrənin bütün müqavimətini artırır, ilkin dövrədə cərəyan miqdarını isə azaldır.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Cərəyanı izah etdi? 2 2. Cərəyan vahidi göstəricisini oxudu? 3. Cərəyanın necə ölçülməsini izah etdi? 4. Gərginliyi izah etdi? 5. Gərginlik vahidi göstəricisini oxudu? 6. Dövrə prinsipini izah etdi? 7. Hər cihazın dəyərini seçdi? 8. Düzgün dövrəni birləşdirdi? 9. Gərginliyi/cərəyanı ölçdü?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

3. Ulduz - Üçbucaq dövrəsinin ölçülməsi

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Çevirmə sxemində rezistor dəyərinin necə hesablanmasını izah edə biləcək;
2. Ulduz-üçbucaq dövrəsini düzgün ölçə biləcək.

Təcrübə materialları:
1. Lampa;
2. Kabel;
3. Yük;
4. Rozetka (elektrik mənbəyi);
5. Dəyişən rezistor.

Avadanlıqlar və alətlər:
1. Sınaq qurğusu;
2. Multitester;
3. Kəlbətin;
4. Alət qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Üçbucaq - Ulduz (Delta - Star) birləşmə anlayışı

(1) Ulduz birləşmə. Bütün üç fazadan bərabər cərəyan keçəndə bu, balanslaşdırılmış cərəyan adlanır. Hər hansı bir fazada cərəyan bərabər olmayanda, bu balanslaşdırılmamış cərəyan adlanır. Bu halda balanslaşdırılmış vəziyyətdə neytral xətdə cərəyan axını olmayacaq və buna görə neytral sıxac istifadə olunmur. Lakin üç faza dövrəsində balanslaşdırılmamış cərəyan axını olanda neytral xəttin rolu ən vacibdir. O balanslaşdırılmamış cərəyanı qəbul edib torpaqlayır və transformatoru qoruyur. Balanslaşdırılmamış cərəyan transformatora təsir göstərir və buna görə ulduz birləşməsi uzun məsafəyə ötürülmə üçün daha üstündür. Ulduz birləşmə aşağıda göstərilir - Ulduz birləşməsində xətt gərginliyi √3 dəfə faza gərginliyindən artıqdır. Xətt gərginliyi üç fazalı dövrədə iki faza arasında olan gərginlikdir, faza gərginliyi isə bir faza və neytral xətt arasında gərginlikdir. Cərəyan isə xətdə və fazada eynidir. Bu aşağıda göstərilib.

$$E_{Line} = \sqrt{3}E_{phase} \wedge I_{Line} = I_{phase} - - - - - - (1)$$

(2) Üçbucaq birləşmə. Üçbucaq birləşmədə yalnız üç tel var və neytral sıxac olmur. Adətən, dövrədə balanslaşdırılmamış cərəyan probleminə görə üçbucaq birləşmə qısa məsafə üçün daha əlverişlidir. Aşağıdakı sxemdə üçbucaq birləşmə göstərilir. Yük stansiyasında lazım olanda torpaq neytral xətt kimi istifadə oluna bilər. Üçbucaq birləşmədə xətt gərginliyi faza gərginliyi ilə eynidir. Xətt cərəyanı isə faza cərəyanından √3 daha artıqdır. Bu aşağıda ifadə olunur.

$$E_{Line} = E_{phase} \wedge I_{Line} = \sqrt{3} I_{phase} - - - - - - - - - - (2)$$

(3) Üç fazalı transformatorun birincidə üç dolağı və ikincidə üç dolağı var. Üç dolaq, şəkildə göstərildiyi kimi, üç fazalı mənbə gərginliyinə və ya üç fazalı yüklərə iki yolla qoşula bilər. Üçbucaq və ya Y-birləşmə birinci və ya ikinci gərginliyə tətbiq oluna bilər və nəticədə dörd kombinasiya ola bilər. Birinci və ikinci gərginlik əlaqələri hər kombinasiya üçün aşağıda yekunlaşdırılır.



Şəkil 1: Delta / Y əlaqə dövrəsi

Cədvəl 1: D / Y dövrə izahatı

Birinci	İkinci	İkinci gərginlik [Vs] with Ns / Np = 1
Üçbucaq	Üçbucaq	Vs = Vp
Üçbucaq	Ulduz	Vs = 1.732Vp
Ulduz	Ulduz	Vs = Vp
Ulduz	Üçbucaq	Vs = Vp / 1.732

(4) Üç faza populyar enerji istehsalı və dəyişən cərəyandır, çünki eyni yüklü bir-fazalı sistemin daha az çəkisi tələb olunur. Eyni zamanda, üç faza avadanlığı bir fazalı maşınlardan daha səmərəli və qənaətlidir. Bunu Şəkildə aydın görmək olar. Eyni enerjini bir-fazalı sistemdən keçirmək üçün altı dolaq tələb oluna bilər, üç-fazalı sistemdə isə üç dolaq kifayətdir. Şəkildə hər faza arasında faza əlaqələri göstərilir. Nəzərə alın ki, pik gərginliyi hər 120 dərəcədə, bir-fazalı sistemdə isə 360 dərəcədə yaranır. Həmçinin nəzərə alın ki, bir fazanın ani qiyməti eyni nöqtədə başqa iki fazaların cəmi mütləq qiymətinə bərabərdir.



Şəkil 2: Hər bir mərhələ arası faza əlaqəsi göstərilir



Şəkil 2: Hər bir mərhələ arası faza əlaqəsi göstərilir



Şəkil 3: Üç mərhələli əlaqə

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. "Ulduz" və "Üçbucaq" üç-faza konfiqurasiyalarında aşağıdakı elektrik miqdarlarından tapıla bilənləri işarələyin: Faza gərginliyi, Xətt gərginliyi, Faza cərəyanı, Xətt cərəyanı

1. Hansı dövrədə (ulduz və ya üçbucaq) faza və xətt cərəyanları bərabərdir? Hansı dövrədə (ulduz və ya üçbucaq) faza və xətt gərginlikləri bərabərdir? Hər iki cavabı elə terminlərlə izah edin ki, elektrotexnikada əsas bilikləri olan hər kəs başa düşə bilsin.

• Ulduz konfiqurasiyası: $I_{phase} = I_{line}$, $V_{phase} < V_{line}$,

• Üçbucaq konfiqurasiyası: $V_{phase} = Vline$, $I_{phase} < I_{line}$

2. Faza və xətt miqdarları qeyri-bərabər olduqda, daha böyük olanı hansıdır? Sonrakı sual: Kirxhof gərginlik və cərəyan qanunları "ulduz" və "üçbucaq" konfiqurasiyalarında qeyri-bərabər miqdarlar arasında əlaqələri necə izah edir?

• Qeydlər. Tələbələriniz çoxfazalı konfiqurasiyaların hər iki növündə "faza" və "xətt" nəyi ifadə etdiyini bilməlidirlər, xüsusən bu işarələrlə miqdarları ifadə edən düsturlar istifadə olunanda.

2. Balanslaşdırılmış çoxfazalı sistem və balanslaşdırılmamış çoxfazalı sistem arasında fərqi izah edin. Hansı şərtlər adətən çoxfazalı sistemin balanslaşdırılmamış olmasına səbəb olur?

1. "Balanslaşdırılmış" çoxfazalı sistem bütün xətt gərginlikləri bir-birinə bərabər və bütün xətt cərəyanları da bir-birinə bərabər olan sistemdir. "Balanslaşdırılmamış" vəziyyətlər adətən qeyri-simmetrik yüklərdən irəli gəlir, lakin ciddi balanssızlığın səbəbi sistemin nasazlığı olur.

• Qeydlər. Tələbələrinizdən üç fazalı sistemlərdən (balanslaşdırılmış və balanslaşdırılmamış) hansı təhlil üçün daha asan olduğunu və bunun nəyə görə belə olmasını soruşun.

3. Balanslaşdırılmış ulduz birləşmə sistemində xətt gərginliyi (Eline) 480 volt olduqda faza gərginliyini (Ephase) hesablayın Ephase = 277 V.

• Qeydlər. Tələbələrin düzgün cavab vermək üçün nə etdiklərini izah etməsi düzgün cavab almaqdan daha vacibdir. Balanslaşdırılmış ulduz birləşmə sistemlərinin əlaqəli faza və xətt gərginliklərinə hansı ümumi hesablama tətbiq edilə bilər?

4. Bu balanslaşdırılmış Üçbucaq -Üçbucaq sistemində bütün gərginlikləri, cərəyanları və ümumi gücü hesablayın:



• $E_{line} = 230$ V ,$I_{line} = 7.967$ A, $E_{phase(source)} = 230$ V, $I_{phase(source)} = 4.6$ A

• $E_{phase(load)} = 230$ V, $I_{phase(load)} = 4.6$ A ,$P_v = 3.174$ kW

• Qeydlər. Tələbələrizdən bu sualın cavablarına necə gəldiklərini mütləq soruşun. Burada həllin müəyyən edilməsinə başlamaq üçün birdən çox yer və rəqəmlərdən bəzilərini hesablamaq üçün birdən çox üsul var. Tələbələrinizin bu suala necə yanaşdıqları vacib deyil, lakin onların hamısı eyni cavablar əldə etməlidirlər.

5. Bu balanslaşdırılmış Ulduz-Ulduz sistemində bütün gərginlikləri, cərəyanları və ümumi gücü hesablayın:



• E, xətt = 13.8 kV , I, xətt = 5.312 A , E, faza (mənbə) = 7.967 kV , I, faza (mənbə) = 5.312 A ,
• E, faza (yük) = 7.967 kV , I, faza (yük) = 5.312 A , P, cəni = 126.96 kW
• Qeydlər. Tələbələrinizdən bu sualın cavablarına necə gəldiklərini mütləq soruşun. Burada həllin müəyyən edilməsinə başlamaq üçün birdən çox yer və rəqəmlərdən bəzilərini hesablamaq üçün birdən çox üsul var. Tələbələrinizin bu suala necə yanaşdıqları vacib deyil, lakin onların hamısı eyni cavablar əldə etməlidirlər.

6. Bu balanslaşdırılmış Üçbucaq-Ulduz sistemində bütün gərginlikləri, cərəyanları və ümumi gücü hesablayın:



•E, xətt = 2400 V, I, xətt = 4.619 A , E, faza (mənbə) = 2400 V , I, faza (mənbə) = 2.667 A
•E, faza (yük) = 1385.6 V , I, faza (yük) = 4.619 A , P, cəmi = 19.2 kW
• Qeydlər. Tələbələrinizdən bu sualın cavablarına necə gəldiklərini mütləq soruşun. Burada həllin müəyyən edilməsinə başlamaq üçün birdən çox yer və rəqəmlərdən bəzilərini hesablamaq üçün birdən çox üsul var. Tələbələrinizin bu suala necə yanaşdıqları vacib deyil, lakin onların hamısı eyni cavablar əldə etməlidirlər.

7. Bu balanslaşdırılmış ulduz-üçbucaq sistemində bütün gərginlikləri, cərəyanları və ümumi gücü hesablayın:



•E, xətt= 207.8 V , I, xətt = 0.621 A, E, faza (mənbə) = 120 V , I, faza (mənbə) = 0.621 A
•E, faza (yük) = 207.8 V , I, faza (yük) = 0.358 A , P, cəmi = 223.4 W
• Qeydlər. Tələbələrinizdən bu sualın cavablarına necə gəldiklərini mütləq soruşun. Burada həllin müəyyən edilməsinə başlamaq üçün birdən çox yer və rəqəmlərdən bəzilərini hesablamaq üçün birdən çox üsul var. Tələbələrinizin bu suala necə yanaşdıqları vacib deyil, lakin onların hamısı

eyni cavablar əldə etməlidirlər.

8. Mənbə fazaların biri açılmasa, bu sistemlərin hər birində, faza gərginliklərdə nə baş verəcək?



1. Ulduz-ulduz sistemində neytral tel olmadıqda yük fazalarından biri gücünü tamamilə itirəcək, digər iki yük fazalarında gərginliklər isə normal dəyərinin 86.7%-dək azalacaqdır. Üçbucaq-ulduz sistemində faza gərginliklərindən heç biri mənbə fazası dolaqlarının işləməməsindən asılı olmayacaqdır.

• Qeydlər. Tələbələrinizdən bu nəticələrin ulduz konfiqurasiyasının üçbucağa nisbətən etibarlılığı barədə nəyi göstərdiyini soruşun. Həmçinin, nasazlıq nəticəsində üçbucaq-ulduz sistemində baş verən dəyişiklik barədə soruşmağı unutmayın. Şübhəsiz ki, bir dolaq tamamilə açılmayanda əvvəlki vəziyyətlə bir fərq olmalıdır!

9. Üç fazalı mənbə üçün ümumi birləşmə sxemi hər faza dolağının çıxışı 240 Volt olan *Delta high-leg və ya dörd telli üçbucaqdır:*



•V_{AB} = 240 volts V_{BC} = 240 volts V_{AC} = 240 volts
•V_{AN} = 120 volts V_{BN} = 208 volts V_{CN} = 120 volts

• Qeydlər. Bu birləşmə sxeminin faydalılığı aydın görünməlidir: üç müxtəlif gərginlik səviyyəsi güc dövrələrində istifadə üçün qiymətləndirilə bilər. Adətən, göstərilən sarğılar üç müxtəlif transformatorların ikinci dolaqları, üç fazalı yüksək gərginlikli elektrik xəttinə qoşulan birinci dolaqlardır. Çox hallarda 120 volt yüklərin sayına görə AC sarğacı üçün AB və ya BC sarğaclarından daha ağır rejimli transformator istifadə olunur.

10. Üç güc transformatorlarının birinci-ikinci konfiqurasiyasını (ulduz-ulduz, ulduz-üçbucaq, üçbucaq-ulduz və s.) müəyyən edin.



• Qeydlər. Üç fazalı güc transformatorları bir neçə bir fazalı transformatorların birləşməsinə nisbətən az istifadə olunur. Bu kimi suallar əslində nümunə tanıma çalışmasından başqa bir şey deyil, lakin bütün bacarıqlar kimi, bu bacarıq da bütün insanlara təbii olaraq verilmir və təcrübə bunu təkmilləşdirir.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Rezistorun gərginliyinin necə hesablanmasını izah etdi? 2. Ulduz-üçbucaq dövrəsini yığdı? 3. V/A ölçdü?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

4. RLC dəyərinin hesablanması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Elektrik dövrə Avadanlığının necə idarə edilməsini izah edə biləcək;
2. RLC dəyərini düzgün ölçə biləcək.

Təcrübə materialları:
1. İnduksiya;
2. Tutum.

Avadanlıqlar və alətlər:
1. Eksperimental ölçmə bloku;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Elektrik cərəyanı ilə necə işləmək lazımdır?

(1) Giriş. İnduksiya, cərəyan vaxt funksiyası kimi dəyişiləndə, naqilin özündə gərginlik induksiya etmək qabiliyyətidir. L hərfi induksiyanın rəmzi kimi istifadə olunur. İnduksiya vahidi "Henri"-dir (H). Bir H induksiya cərəyan saniyədə bir amper sürətlə dəyişərkən bir volt elektrik cərəyanı yaradır. Transformator birdən çox induktorların bir-biri ilə qarşılıqlı birləşməsi hesab oluna bilər. Transformatorda bütün ikincilər (ikinci gərginliklər) çıxarıldıqda birincilər məhz induktora çevrilir. İnduktiv müqavimət XL - induktorun yalnız DC siqnalları üçün rezistor kimi işləmək xüsusiyyətidir. XL aşağıdakı düsturla əldə edilir.

XL = w L = 2 πfL burada f = tezlik, hertz, L = induksiya, H

İnduktorlar tətbiq nöqteyi-nəzərindən iki müxtəlif növdə təsnif edilə bilər.

RF sarğac (RF drossel) : onlarla KHz bir neçə yüz MHz-ə

LF sarğac (LF drosssel) : onlarla KHz bir neçə yüz MHz-ə

LF sarğacda L aşağıdakı düsturla tapıla bilər:

$$L = \frac{0.4\pi N^2 AC \times 10^{-8}}{Ig} Henry ----------(1)$$

(2) Sarğac enerjini öz maqnetik sahəsində saxlaya bilər. Lakin eyni zamanda sarğac özü, əsasən IX, sarğacın R müqavimətinə görə enerjini yayır. Saxlanılan və yayılan enerjinin arasında nisbət Q keyfiyyət əmsalı kimi müəyyən olunur.

Sarğacınn Q = saxlanılan enerji/yayılan enerji

$$Q = \frac{2\pi fL}{R} = \frac{X_L}{R} ----------(2)$$

İnduktorda gərginlik və cərəyan arasında 90 dərəcə faza sürüşməsi var. Gərginlik cərəyanı qabaqlayır. Lakin aşağıda göstərildiyi kimi, SC müqaviməti nəzərə alındıqda, DC siqnalına ümumi müqavimət tam müqavimət Z (impedans) adlanır.

$$Z^2 = R^2 + X_L{}^2 Z = \sqrt{R^2 + X_L{}^2} - - - - - - (3)$$

(3) Z, XL və R arasında faza əlaqəsi Şəkildə göstərilir.



Şəkil 1: RL dövrəsi

(4) R və XL paralel olduqda, tam müqavimət və faza əlaqəsi aşağıdakı kimi müəyyən edilir.



Şəkil 2: RL paralel dövrə

(5) R-XL paralel sxemdə faza əlaqələri aşağıdakı şəkildə göstərilir.



Şəkil 3: R-XL paralel dövrə

2. Tutum və RC dövrələri

(1) Giriş. Kondensatorun əsas məqsədi elektrik dövrəsinə tutum daxil etməkdir. Kondensator induktor etdiyi kimi eyni bir xüsusiyyəti əks etdirir: O, DC siqnallarına reaksiya verir, lakin induktora nisbətən əks yolla. Kondensatorun reaktiv müqaviməti tutum reaktiv müqaviməti Xc adlanır və aşağıdakı kimi təyin olunur:

$$Xc = \frac{1}{2\pi f C} = \frac{1}{\omega C} - - - - - - - - - - - - - - (4)$$

burada C = tutum, Farada f = tezlik, Hz

(2) Kondensatorda cərəyan gərginliyi 90 dərəcə qabaqlayır. Kondensator doldurularkən kondensatordakı gərginlik və yüklənən cərəyan arasında əlaqə (a) Şəkildəki əyri ilə əks olunur. İnduktor üçün eyni əlaqə Şəkildə (b) göstərilir.



Şəkil 4: Kondansatör dövrəsi

Qeyd etmək maraqlıdır ki, Şəkil 10 -1-də gərginlik və cərəyan əlaqələri, C və L, bir-birinə əksdir. Bu, C və L üçün əhəmiyyətli xüsusiyyətdir. R-C ardıcıl dövrədə R, Xc və taç müqavimət Z arasında əlaqə şəkildə göstərildiyi kimidir.



Şəkil 5: Kondansatörün əhəmiyyətli xüsusiyyətləri dövrə

Şəkildə, $Z = \sqrt{R^2 + {X_c}^2}$ v $Z = \frac{E}{I}, \emptyset = tan^{-1}\left(\frac{Xc}{R}\right)$

Mənbə gərginliyi E Ec və ER-in vektor cəm məbləğidir.

$$E^2 = {E_R}^2 + Ec^2 Therefore, E = \sqrt{{E_R}^2 + Ec^2} - - - - - (5)$$

Daxili boşalma və ya itki müqaviməti X_c- paraleldir və iki cərəyan arasında nisbət, H və L_e, Şəkildə təsvir edilir. R ümumiyyətlə çox yüksək dəyərdir.



Şəkil 6: Xd-e parallel elaqe

İki cərəyan komponentləri arasında aşağıdakı nisbətə diqqət yetirin.

$$I^2 = {I_R}^2 + Ic^2 Therefore, I = \sqrt{{I_R}^2 + Ic^2} - - - - - - - - (6)$$

Paralel tam müqavimət Z aşağıdakı kimi əks olunur:

$$\frac{1}{Z^2} = \frac{1}{R^2} = \frac{1}{Xc^2} Therefore, Z = \frac{R \times Xc}{\sqrt{R^2 + Xc^2}} - - - - - - - - (7)$$

R_e və R_t dövrəsində diqqətə layiq daha bir parametr güc əmsalıdır, hansı ki həqiqi güc (rezistiv) və ya xəyali güc (VA) arasında nisbət kimi müəyyən edilir. R və Z baxımından bu R və Z arasında nisbətə bərabərdir.

Güc əmsalı = Cos ø = R/Z= Həqiqi güc/Xəyali güc

Güc əmsalı 1-dən az olduqda, xəyali güc həqiqi gücdən artıqdır. Yalnız həqiqi güc istilik kimi yayılır, qalan (reaktiv) güc isə mənbəyə qayıdır.

Kondensatorun konstruksiyası tutumun hesablanması üçün formula ilə şəkildə göstərilir. İki üzüzə lövhələr elektrodlardır. İki elektrod arasında tutum iki lövhə arasında havanın dielektrik materialla əvəz edilməsi ilə artırılır. Dielektrik material tutumu artırdığına görə, bu həmçinin siqnalın tezliyindən və gərginliyindən asılı olan itkilərin miqdarının azalmasına gətirir. İtki aşağıdakı kimi təyin olunan Yayılma (Dissipasiya) əmsalı kimi müəyyən edilir:

$$D = \frac{R}{X_C} - - - - - - - - - - - - (8)$$

C-də "D" L-də "Q"-yə bərabərdir.



Şəkil 7: Xd-e parallel elaqe

Bəzi materialların dielektrik sabitləri aşağıdakı cədvəldə göstərilir.

Cədvəl: Materialların dielektrik sabitləri

Material	Dielektrik sabitlər (K)
Hava	1
Kağız	3.5
Mika	6
Şüşə	6 ~ 10

3. LC dövrələri və rezonans

(1) Giriş. Kondensatorun və induktor xüsusiyyətləri bundan əvvəlki eksperimentlərdə müzakirə edilib. İnduktor və kondensator R ilə birlikdə Şəkil (a)-da göstərildiyi kimi RLC dövrəsini yaratdıqda, X_L və X_c arasında faza nisbəti Şəkil (b)-da göstərilir



Şəkil 8: RLC ardıcıl dövrə

Yuxarıdakı dövrənin tam müqaviməti Z-dir.

$$Z^2 = R^2 + (X_L - X_C)^2 \quad \text{Therefore, } Z = \sqrt{R^2+(X_L - X_C)^2}$$

Yuxarıdakı ifadədə ehtimal edilir ki, X_L X_c-dən artıqdır. Əks halda, o, X_c -X_L ola bilər. L_C dövrələrində L və ya C minus işarəsi ilə olmalıdır. Minus işərəsinin səbəbi L və C arasında 180 dərəcə faza fərqidir.

(2) Misal: Şəkildə R= 30 Om, XL = 100 Om və Xc = 90 Om.

$$Z = \sqrt{30^2+(100-90)^2} = 31.62 \text{ ohms}$$

X_L=X_c halda, Z=30 Om-dur, bu da R ilə eynidir, XL və Xc isə bir-birini ləğv edir. R, L və C paralel birləşəndə, dövrənin xarakteristikaları Şəkildə göstərilir.



Şəkil 9: RLC paralel dövrə

Dövrənin tam müqaviməti

$$Z = E / I_T \quad \text{where } I_T = \sqrt{(I_R)^2+(I_L-I_C)^2}$$

$İ_L = L_C$ olduqda, cərəyanlar bir-birini tamamilə ləğv edir və $İ_T = İ_R$

• Qeydlər: Rezistor R dövrədə xarici rezistor və ya L və C üçün itki komponentləri ola bilər. R rezistoru L və C üçün itki komponentləri olduqda, maqnituda R çox yüksəkdir. Bu deməkdir ki, $İ_L = İ_C$ (X_L:X_C) olduqda, mənbədən verilən cərəyan çox azdır. Belə vəziyyət L_C paralel rezonansı adlandırılır. Tezlik isə rezonans tezliyi adlanır.

Bundan əvvəl təqdim olunanların xülasəsi: X_L =X_C olduqda L_C ardıcıl dövrənin tam müqaviməti minimaldır. X_L=X_C olduqda L_C ardıcıl dövrənin tam müqaviməti maksimaldır. Ardıcıl RLC dövrəsi və onun tezliyi Şəkildə göstərilir.



Şəkil 10: Ardıcıl RLC dövrə və onun tezliyə cavabı

Şəkil (b) -də görünür ki, X_L və X_C bir-birini ləğv etdiyinə görə cərəyanın maqnitudası rezonans tezliyi F_0-nun maksimumundadır. Buna görə, R dövrənin tam müqaviməti olur və $İ_0 = E/Z = E/R$. Tezlik F_0 ətrafında artdıqca və ya azaldıqca dövrənin cərəyanları sürətlə dəyişir. Fo və şəkildə

təsvir edilən tezlik diapazonu arasında nisbət dövrənin Q əmsalı adlanır. Q keyfiyyət göstəricisi dövrənin tezlik selektivliyini təqdim etmək üçün istifadə olunur. Beləliklə:

$Q = F_0 / Bw$ və ya $Q = X_L / R$



Şəkil 11: Paralel RLC dövrə və onun tezliyə cavabı



Şəkil 12: Paralel RLC dövrəsi

Paralel RLC şəkildə təqdim olunur. Nəzərə alın ki, paralel quruluş bizə əks-xüsusiyyət verir. Şəkildə dövrə cərəyanının Fa-da minimuma endirilməsinə diqqət verin. Bu ona görədir ki, bu tezlikdə I_L-L_C =0 və buna görə,

$$I_O = \sqrt{(I|R)^2 +}$$

Paralel RLC dövrənin Q göstəricisi (rezonans dövrəsi) eyni qaydada müəyyən edilir.

$$Q = \frac{F_O}{B_W} \vee Q = \frac{Z_{RLK}}{X_L} - - - - - - - - - - (12)$$

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. Eksperiment 1. İnduksiya və RLC dövrələri

(1) Tələb olunan təcrübə

Müəyyən dövrəyə uyğun olaraq dolağı birləşməyə və yoxlamağa çalışın.

(2) Prosedur

1. Paneli montaj altlığına yerləşdirin.

• İnduktiv reaktiv müqavimət:

2. Fuksional Generatorun (FG) çıxışını sinusoid siqnalına 100 KHz, 20Vp.p yerləşdirin və çıxışı panelin sol tərəfində “F” hərifi ilə göstərilən yerə birləşdirin. Bax Şəkil. Ossiloskopun CH-1 və CH-2 çıxışlarını Şəkildə göstərildiyi kimi birləşdirin.

3. Ekranda 100 KHz siqnalın iki dövrünü əldə etmək üçün ossiloskopun vaxt bazasını tənzimləyin, “a” və “b” nöqtələrindən GND-yə qədər zirvə-zirvə gərginlikləri ölçün.



4. Cərəyana həssas Rd rezistorun qiyməti 10 Om-dur. Rd gərginliyini ölçün və Rd cərəyanını hesablayın.

5. CH-2 -də ölçülən gərginlik və addım 4-də əldə olunan cərəyan əsasında tam müqavimət Z-i hesablayın. Həmçinin XL maqnitudasını da hesablayın.

Qeydlər: Çıxış gərginliyi E və cərəyan İ məlum olduqda, Z tam müqavimət Eİİ kimi hesablana bilər. Z məlum olduqdan sonra XL hesablana bilər:

$$Z = \sqrt{R^2 + {X_L}^2}, X_L = \sqrt{Z^2 - {R_d}^2}$$

XL -in təyin edilməsi üçün başqa yol EL əldə etmək üçün $E^2=E_R{}^2+E_L{}^2$ əlaqəsini istifadə etməkdir. EL məlum olduqdan sonra XL hesablanır: XL = EL / I. Bax: Şəkil





6. $ = tan-1 XL CH-1 və CH-2 pik gərginliklərini eyni məbləğdə tənzimləyin və iki rəqs forması arasında faza fərqini ölçün. Ölçüləri aşağıdakı tənlikdən əldə edilən dəyərlə müqayisə edin:

$$\emptyset = tan^{-1}\frac{X_L}{R}$$

7. Funksional Generatoru çıxarın. LCR ölçmə cihazından istifadə edərək Şəkildəki L1 (a-c), L2 (c-b) və L (a-b) induktivliyi ölçün, L dörd dəfə L1 və ya L2-yə bərabər olmalıdır. Səbəbini izah edin. Girişə baxın. L1 və L2 qarşılıqlı birləşmədikdə, L yalnız iki dəfə olar.

8. Funksional Generatoru dövrəyə qoşun və tezliyi 100 KHz-dən 200 KHz-ə dəyişin. Amplitudanı dəyişməyin. Gərginlik Rd-dən cərəyan İ-yi əldə edin.

9. Tezliyi 200 KHz-yə tənzimləyərək 5-ci addımı təkrar edin. Tezlik iki dəfə artdıqca XL necə dəyişir?

• R-L dövrəsinin təzlik xarakteristikaları:

10. Şəkilə baxın. 10mH -i 1 KΩ-ə ardıcıl qoşun. EL gərginliyi aşağıdakı nümunə tezliklərlə ölçün və Eo-yə nisbətən xarakteristik əyri “F”-i hesablayın

Nümunə tezliklər: 1, 2, 3, 4, 5, 7, 10, 20, 30, 40, 50, 70, l00Khz.



11. 10 mH-i və 1 KΩ-i dövrədən çıxarın. 1 mH və 100 Ω-i punktir xətlərlə göstərildiyi kimi ardıcıl birləşdirin. 10-cu addımı təkrar edin. Nəticələrdə fərq nədir?

Qeydlər. 10mH induktorun XL dəyəri l KHz – l00KHz verilən tezlik diapazonu üçün 1mH induktordan (6.3Ω -630Ω) 10 dəfə yüksəkdir (63Ω-6. 3KΩ). Başqa sözlə 1mH induktorla tam çıxış müqaviməti daha azdır.

12. 10 mH və 1 KΩ ardıcıl dövrə üçün Q = XL / R = 2 πfL / R düsturunu istifadə edərək l KHz, l0KHz və 100 KHz üçün Q dəyərini hesablayın.

Qeydlər: Sarğacın SC tərkibini təqdim etmək üçün bu eksperimentlərdə xarici rezistor istifadə olunur. Adətən, sarğacın özünün daxili SC müqaviməti, sarğacın Q dəyərinin təyin edilməsi üçün istifadə olunur.

(3) Xülasə

1. Sarğacın induktivliyi dövrlərin kvadratına proporsionaldır. Sarğacın Q göstəricisini artırmaq üçün SC müqaviməti minimuma endirilməlidir. Yüksək keçiriciliyə və aşağı ox itkilərinə malik olan yüksək keyfiyyətli material istifadə edildikdə dövrlər induktivliyin eyni miqdarına azaldıla bilər və buna görə də Q yaxşılaşdırıla bilər.

2. Dolaq işləri bitdikdən sonra, dolağı formalaşdırın və əmin olun ki, lövbərin mərkəzindən baxanda, statorun ucu dəmir lövbərin daxili diametrindən kiçik və ya xarici diametrdən böyük deyil.

3. Dolaq çərçivəsinin ölçüsü müəyyən edildikdə, statorun ucunun hündürlüyü 30 mm-dən çox olmamalıdır, çünki statorun ucu uzun olduqda, quraşdırma zamanı kronşteyn ona toxuna bilər.

4. Statoru yuvaya yerləşdirdikdə, statorun istiqamətini dəyişməmək üçün diqqətli olun.

5. Statoru tamamilə və möhkəm yerləşdirin.

6. Statoru yuvalarda yerləşdirdikdə minanın soyulmasına diqqət verin ki, stator statora toxunmasın.



Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Mühərrikin idarə etmə prinsipini izah etdi? 2. Statoru yerləşdirdi? 3. Tək fazalı induksiya mühərriki sxemini izah etdi? 4. Statoru doladı? 5. Tək fazalı induksiya mühərrikinin iş xarakteristikalarını təsvir etdi? 6. Statoru birləşdirdi? 7. Mühərriki yığdı?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

9. Üç fazalı induksiya mühərrikini yığmaq

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Üç fazalı induksiya mühərrikinin strukturunu izah edə biləcək;
2. Üç fazalı induksiya mühərrikini yığa biləcək.

Təcrübə materialları:
1. Stator və s.;
2. Naqillər.

Avadanlıqlar və alətlər:
1. Stator;
2. Tester.

Mövzu ilə əlaqəli biliklər

1. Üç fazalı induksiya mühərrikinin strukturu

(1) Üç fazalı induksiya mühərrikinin iş prinsipi. Elektrik mühərriki, elektrik enerjisini mexanik enerjiyə çevirən elektromexanik cihazdır. Üç fazalı DC rejimi üçün ən çox istifadə edilən mühərrik üç fazalı induksiya mühərrikidir, çünki bu tip motor heç bir işə salma cihazı tələb etmir və ya deyə bilərik ki, bu özü işə salınan induksiya motorlarıdır. Üç fazalı induksiya mühərrikin iş prinsipini daha yaxşı başa düşmək üçün, bu mühərrikin vacib konstruktiv xüsusiyyətləri ilə tanış olmalıyıq. Bu mühərrik iki əsas hissədən ibarətdir: üç fazalı induksiya mühərrikin statoru 3-fazalı dolaq sxemini təşkil edən, bir neçə yuvadan ibarətdir, həmin yuvaları 3-fazalı DC mənbəyi ilə birləşdiririk. Üç-fazalı dolağı yuvalarda elə quraşdırın ki, üç-fazalı SC təchizatı mənbəyinə qoşulduqda, onlar fırlanan maqnit sahəsi yarada bilsin.

Üç fazalı induksiya mühərrikinin rotoru keçiriciləri daşıya bilən, Paralel yuvaları olan, silindrik



Şəkil 1: Üç fazalı induksiya mühərrikinin rotoru

çoxqatlı lövbərdən ibarətdir. Keçiricilər hər yuvada yerləşdirilən, son halqalarla qısa qapanan, ağır mis və ya alüminium şinlərdir. Yuvalar milin oxuna tam Paralel hazırlanmır, lakin yuvaya yerləşdirilir və bir qədər əyilir, çünki belə sxem, maqnit səs-küyünü azaldır və mühərrikin quraşdırılmasını asanlaşdırır.

(2) Üç fazalı mühərrikin konstruksiyası. Üç fazalı induksiya mühərriki ən geniş istifadə olunan mühərrikdir. Onun sadə və möhkəm konstruksiyasına, aşağı qiymətinə, yaxşı istismar xarakteristikalarına, kommutatorun olmamasına, yaxşı sürət tənzimlənməsinə görə, sənayedə istifadə olunan mexaniki gücün demək olar ki 80%-nə üç fazalı induksiya mühərriki ilə təmin edilir. Üç fazalı induksiya mühərrikində güc statordan rotor dolağına induksiya vasitəsilə ötürülür. İnduksiya mühərriki həmçinin asinxron mühərriki adlandırılır, çünki mühərrik sinxron sürətdən fərqli sürətlə işləyir. Hər hansı digər elektrik mühərriki kimi induksiya mühərriki də, iki əsas hissədən, rotor və statordan ibarətdir.

1. Stator: Adından göründüyü kimi stator induksiya mühərrikinin stasionar hissəsidir. Statorun dolağı induksiya mühərrikinin statorunda yerləşdirilir və ona üç fazalı qidalanma verilir.

2. Rotor: Rotor induksiya mühərrikinin fırlanan hissəsidir. Rotor mexaniki yüklə mil vasitəsilə birləşdirilir.

3. Üç fazalı induksiya mühərrikinin rotoru aşağıdakı kimi də təsnif edilir: Qısa qapanmış rotor, Sürüşən halqalı rotor və ya fazalı, ya da dolaqlı rotor. İstifadə edilən rotor konstruksiyasının növündən asılı olaraq üç fazalı induksiya mühərriki aşağıdakı kimi təsniflənir: Qısa qapanmış induksiya mühərriki, Sürüşən halqalı induksiya mühərriki və ya fazalı ya da dolaqlı induksiya mühərriki.

4. İnduksiya mühərrikinin digər tərkib hissələri: Dönmə anının yükə ötürülməsi üçün mil. Bu mil poladdan hazırlanır. Fırlanan mili dəstəkləyən podşipniklərdir. Elektrik mühərriki ilə bağlı problemlərdən biri fırlanma zamanı istiliyin əmələ gəlməsidir. Bu problemi aradan qaldırmaq üçün soyuducu ventilyator lazımdır. Xarici elektrik birləşməsini qəbul etmək üçün Klemma qutusu tələb olunur. Rotor və stator arasındakı məsafə qısadır və adətən 0.4mm -4mm arasında olur. Belə məsafəyə hava boşluğu deyilir.

5. Üç fazalı induksiya mühərrikinin statoru. Üç fazalı induksiya mühərrikinin statoru üç əsas hissədən: Stator çərçivəsi, Stator dolağı, Stator lövbəri və ya təsirlənmə dolağından ibarətdir

6. Stator çərçivəsi. Bu üç fazalı induksiya mühərrikinin xarici hissəsidir. Onun əsas funksiyası stator lövbərini və təsirlənmə dolağını dəstəkləməkdir. O, örtük funksiyasını daşıyır və induksiya mühərrikin bütün daxili hissələrinin qorunmasını və mexaniki möhkəmliyini təmin edir. Çərçivə tökmə və ya qaynaq olunmuş poladdan hazırlanır. Üç fazalı induksiya mühərrikinin çərçivəsi möhkəm və sərt olmalıdır, çünki üç fazalı induksiya mühərrikinin hava boşluğunun uzunluğu çox azdır. Əks halda, rotor statora nisbətən konsentrik qala bilməz və beləliklə balanslaşmamış (müvazinətləşməmiş) maqnit cazibəsi yarana bilər.



Şəkil 2: Stator Çərçivəsi

Statorun lövbəri. Stator lövbərinin əsas funksiyası dəyişən seli daşımaqdır. Burulğan cərəyan itkilərini azaltmaq üçün, stator lövbəri təbəqəlidir. Belə təbəqəli konstruksiyalar 0.4 - 0.5 mm qalınlığında ştamplamadan hazırlanır. Bütün ştamplamalar stator lövbərinin formalaşması üçün birlikdə ştamplanır, sonra stator çərçivəsində yerləşdirilir. Ştamplama silisiumlu poladdan hazırlanır və beləliklə mühərrikdə yaranan histerezis itkiləri azaldırılır.

8. Stator dolağı və ya təsirlənmə dolağı. Üç fazalı induksiya mühərrikinin stator lövbərinin periferiyasındakı kəsiklərin üç fazalı dolaqları var. Bu üç fazalı dolağa üç fazalı DC tətbiq edəcəyik. istifadə edilən işə salma metodundan asılı olaraq, dolağın üç fazası ulduz və ya üçbucaq şəkilində birləşdirilir. Biz qısa qapanma mühərrikini əsasən ulduz-üçbucaq statoru ilə işə salırıq və buna görə qısa qapanma mühərrikinin statoru üçbucaqla birləşdirilir. Biz sürüşən halqalı üç fazalı induksiya mühərrikini müqaviməti daxil edərək işə salırıq və beləliklə, sürüşən halqalı induksiya mühərrikinin stator dolağı ulduz və ya üçbucaqla birləşdirilə bilər. Üç fazalı induksiya mühərrikinin dolağının sarğısı təsirlənmə dolağı adlandırılır və bu dolaq üç fazalı DC təchizatı ilə təsirləndikdə fırlanan maqnit sahəsini yaradır.



Şəkil 3: Stator dolağı

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. İstifadə olunacaq kəsiklərin nömrələrini yoxlayın.

Dolağın daxil edildiyi yerdə kəsiklərin sayını görə bilərsiniz. İki tip dolaq olur - biri böyük, biri kiçik, hər birinin də altı dolağı var. Böyük dolaq 1-ci və 8-ci kəsiyə, kiçik dolaq 2-ci və 7-ci kəsiyə daxil edilir. Böyük və kiçik dolaqlar da ardıcıl birləşdirilir.



2. Kəsiklərin yerləşməsinə baxın və şəkildəki istifadə olunan kəsiklərin nömrələrini yoxlayın.





3. Bir dolağın ölçüsünün müəyyən edilməsi

(1) İnduksiya dəmir lövbərindən istifadə edərək, yuxarıdakı şəkildə göstərildiyi kimi, bir dolaq üçün tələb olunan mis məftilin uzunluğunu ölçün.



(2) Siz mis məftili istifadə edə bilərsiniz, lakin asanlıqla formalaşan özü tuşlanan ip (izolyasiya ip) ilə işləmək asandır.

(3) İstifadə ediləcək kəsiklərdə (# 1 and # 8) bir böyük dolaq üçün tələb olunan uzunluğu ölçün.

(4) 2 və 7-də olduğu kimi kiçik dolağın uzunluğunu ölçün.

1. İzolyasiya kipləşdiricisini V formasını yaratmaq üçün istifadə olunacaq iki kəsikdə yerləşdirin.
2. Dəmir lövbərin iki tərəfini V formasında saxlayın və ölçünü təyin edin.
3. V formasında özü tuşlanan ipi boşaldaraq uzunluğu ölçün.
4. Dolağın uzunluğunu N ölçülməsi.



4. Mis məftilin tələblərinin hesablanması

Mis məftilin uzunluğu [m]. Dolağın 1 burumu (böyük dolaq) x, burumların sayı (205 burum), x dolaqların sayı cp (6). Dolağın uzunluğu (kiçik dolaq) x, burumların sayı (205) x burumların sayı (6).

(1) Mis məftilin uzunluğu × π × radius 2 × mis məftilin sıxlığı(8.96 × 106 [g • m -3]) (adətən 140 [m] 100 g-a).

5. Hər dolağın diametri üçün icazə verilən cərəyanın hesablanması.

(1). Məftilin diametrini ölçmək üçün ştanqen pərgardan istifadə edin. İş spesifikasiyasında göstərilən dəyərlə tutuşdurun.

6. İzolyasiya kağızının növlərinin və tələblərinin müəyyən edilməsi

(1) İzolyasiya elektrik cərəyanının izolyasiya materialından keçməsinin qarşısını alan qeyri-keçiricidir.

(2) Belə xarakteristikalara malik olan və hətta daha yüksək temperaturlarda belə izolyasiyanı saxlamaq üçün xüsusi hazırlanan kağız izolyasiya kağızı adlandırılır. Kəsiyin izolyasiya kağızı

(daxil edilib).

(3) İzolyasiya dərəcəsi induksiya maşınının istiliyə davamlıq xarakteristikalarına uyğun olaraq, təsnif edilir və maksimum istifadə temperaturu onun əsasında müəyyən edilir.

(4) Bu məşqdə izolyasiya kağızı misin (mis lövbərin), mis məftilin dolandığı kəsiyə toxunmasının qarşısını almaq üçün izolyasiya kağızı kimi istifadə olunur.

(5) Həmçinin, stator kəsiyə dolandıqda stator kənara çıxır.

(6) Eyni zamanda, pazın qarşısını almaq üçün paz izolyasiya kağızı istifadə olunur. Paz izolyasiyası (daxil etmədən əvvəl).



7. Kəsiyin izolyasiya kağızı modelinin hazırlanması

(1) Dəmin lövbərin qalınlığını ölçün.

(2) İzolyasiya kağızını kəsin və bükün.



(3) İzolyasiya kağızını kəsiyə daxil edin.
(4) İzolyasiya kağızını dəmir lövbərə sıx yatırın.





(5) İzolyasiya kağızını daxil etdikdən sonra üstünü qatlayın.
(6) Qatlanmış hissənin rənglənməsi.

(7) İzolyasiya kağızının qatlarının kəsilməsi.
(8) Kəsiyin izolyasiya kağızını tamamladıqdan sonra ölçün.



8. Dolaqların statorunu yerləşdirin.
(1) Şəkildə, böyük qırmızı dolaq 1-ci və 8-ci kəsiyə daxil edilib.
(2) Kiçik mavi dolağın 2-ci və 7-ci kəsiklərə daxil edildiyini görə bilərsiniz.



(3) Beləliklə, müvafiq olaraq, 1, 8, 2 və 7-ci kəsiklərə daxil ediləcək dolaqların ölçüsünü hesablayın və dolağı dolayın. Stator dolaqlarının statorunun sxemi:



(4) Stator dolağının statorunun yerləşdirilməsinə baxıb statoru elə sarğılaya bilərsiniz ki, böyük stator və kiçik stator birləşsin.

(5) Dolaq iki kəsikdən istifadə edilərək sarğılandığı üçün görmək olar ki, konsentrik dolama metodu istifadə olunur.

(6) Bu konsepsiya kəsiklərin doldurulmasının konseptual sxemi ilə asanlıqla təsdiq edilə bilər. Kəsiklərin yerləşdirmə konsepsiyası:



(7) Bütün statorun yerləşdirilməsi və birləşdirilməsi şəkil A1-də göstərilir. Dolaq gövdəsi böyük və kiçik dolaqlardan ibarətdir.



(8) A2 Bu gövdə ilə birləşdirilməlidir.

(9) Bu zaman altı böyük dolaq və altı kiçik dolaq tələb olunur.

9. Babinin ölçüsünün təyin edilməsi

(1) Dəmir lövbəri sürtmək.

(2) Sürtülmüş kəsiyin ortasında, Şəkildə göstərildiyi kimi, qırmızı rəngli böyük bir dairə çəkin. Kiçik dairəciklə nöqtəni nişanlayın.



(3) Qırmızı və kiçik dairənin altında şaquli istinad xətlərini □, □, □, □, □, □ çəkin.
(4) Şaquli mərkəzi xətti çəkin.
(5) Şaquli mərkəzi xəttin müvafiq yerində üfüqi mərkəz xəttini çəkin.
(6) xəttini və üfüqi mərkəzi xəttə nisbətən dəmir lövbərin uzunluğu kimi uzunluğu çəkin.
(7) 1-də kompasdan istifadə edərək R1 radiuslu qırmızı yarım dairəni çəkin.
(8) Qırmızı bobinanın modelini tamamlayın.
(9) (b) və (a) xətlərini çəkin.
(10) 2-də kompasdan istifadə edərək R2 radiuslu yaşıl kvadrant çəkin.
(11) Yaşıl bobinanın modelini tamamlayın.
(12) (a) tərəfə xətt çəkin.
(13) 3-dən istifadə edərək, R3 radiuslu bənövşəyi kvadrant çəkin.
(14) Bənövşəyi bobinanın modelini tamamlayın.
(15) Hər babin modelinin uzunluğunu ölçün.

10. Dolama alətinin ölçüsünün təyin edilməsi.

(1) İzolyasiya kamerasını (özünü tuşlayan ipi) kəsib, yaşıl babinin çevrə uzunluğunda ilmə bağlayın.

(2) Qaldırıcı ipi dolama alətinə yerləşdirin və dartılmış vəziyyətədək ölçüsünü tənzimləyin.

(3) Bənövşəyi bobinanın xətt ölçüsünün dolama aləti ilə tənzimlənməsi eyni qaydada həyata keçirilir.



(4) Əvvəlcə böyük dolaq alətində sarıqları bağlayın və statoru qırmadan, kiçik dolaq aləti ilə dolaqları dolayın.

(5) Dolaq alətindən istifadə edərək dolağın dolanmasını təmin etmək üçün aşağıdakı şəkildən istifadə edin.

(6) Böyük dolağı dolayın. Dolaqları pozmamaq üçün pinsetləri taxın.

(7) Böyük dolağın və kiçik dolağın statoru zədələnmir. Hər şeyi bağlayın. Dolaq alətindən (sıxıcı alətdən) məftilin gövdəsini çıxarın.

11. Dolaqların nömrələnməsi

(1) Aşağıda A1 sxemində 8 və 1 N-li kəsiklərdir. Kiçik dolaq 7 və 2 nömrəli kəsiyə daxil edilir. 8-ci yuvadan çıxan aparıcı naqil A1+, 2-ci kəsikdən çıxan aparıcı naqil A1- adlandırılır. Qalan dolaqların və aparıcı naqillərin nömrələri aşağıdakı şəkildə göstərilir. Tək dolağın burumu saat əqrəbi istiqamətində eynidir. Dolaqlarda istifadə olunan kəsik nömrəsi:



(2) Aşağıdakı şəkildə kəsiyin nömrəsi A1 dolağına verilir, aparıcı nömrə isə aparıcı naqilə bərkidilir. Beləliklə, biz ümumilikdə 6 dolaq üzərində işləyirik.



(3) Kəsik nömrəsini və xətt nömrəsini A1 gövdəsinə bərkidin.
(4) Altı dolaq forması.

12. Dolağı daxil edin

(1) A1 faza dolağının yerləşdirilməsi

(2) Əvvəlcə, dolaq gövdəsinin hansı kəsiyə hansı istiqamətdə yerləşdirilməsinin müəyyən edilməsi vacibdir. Rəqəmləri düzgün yoxladıqdan sonra, naqili aşağıdakı qaydada daxil edin. Naqili yerləşdirdikdə, naqili əyərək kəsiyə daxil edin. Sonuncu addımda, kəsikdə boşluğu aradan qaldırmaq üçün pazı daxil edin ki, dolaq silkələnməsin. Bu, həmçinin dolağın çıxmasının qarşısını alır.

(3) Böyük A1 gövdəsini 1-ci kəsiyə salın.

(4) Paz izolyasiya kağızını 1-ci kəsiyə salın.

(5) Böyük A1 gövdəsini 8-ci kəsiyə salın.
(6) Kiçik A1 gövdəsini 7-ci kəsiyə salın.
(7) Kiçik A1 gövdəsini 2-ci kəsiyə salın.
(8) Pazı kəsiyə daxil edin və kəsiyin ölçüsünə uyğun olaraq nişanlayın.

(9) Pazı kəsiyin ölçüsünə görə kəsin.

(10) Yivli taxtadan istifadə edin.

13. B1 dolaq gövdəsinin daxil edilməsi

(1) B1 dolaq pazı kəsiyinə daxil edin.



(2) B1 dolaq gövdəsini daxil etmək üçün kəsiyin nömrəsini yoxlayın.
(3) Böyük B1 dolaq gövdəsini 17-ci kəsiyə salın.
(4) Böyük B1 dolaq gövdəsini 24-cü kəsiyə salın.

(5) Kiçik B1 dolağını 18-ci və 23-cü kəsiklərə salın.

14. Qalan dolaq gövdəsini daxil edin.

(1) Aşağıdakı şəklə baxıb, qalan dolaq gövdəsini yuxarıda təsvir olunan qaydada daxil edin.

(2) Dolaq üçün istifadə olunan kəsik nömrəsi.



15. Dolaqları dəmir lövbərin üstündə və altında izolyasiya işi üçün yerləşdirin.

(1) Sonuncu burumu çıxarın.

16. Elektrik naqilləri bir yerə yığın.

(1) Şəkildə göstərildiyi kimi, hər bir elektrik naqili bir yerdə yığılmalıdır.



17. Statoru qoşun.

(1) Stator arasında iş.

(2) Stator məftilinin özü çox nazik olduğundan, hətta iki teli bir-birinə bağlandıqda belə lehimləmə asan deyil. Buna görə, aşağıdakı şəkildə 2 kimi, qalın xətti əlavə edərək nazik burulmuş naqili qalın naqil ilə lehimləyin. Lehimlədikdən sonra sıxılma borusunu yerləşdirib izolyasiyaya qədər qızdırın.



(3) Statorun örtüyünü alışqanla qızdırın.

(4) Yanmış hissəni bıçağın ucu ilə kəsin.

(5) Örtüklü hissənin əl ilə burun.



(6) Burmanı tamamlayın.

(7) Qalın məftilə lehimləyin.

(8) Lehimləmədən sonra boruları sıxın.

18. R, S və T girişlərinin A, B və C üzərinə lehimləmə.

(1) Giriş xəttini qoşun.

(2) Lehimləmə alətinin və lehimin hazırlanması.

(3) R, S və T girişlərinin A, B və C üzərinə lehimləmə.

(4) Sıxılma borusunu lehimləmə sahəsinə daxil edin.
(5) Sıxılma borusu qızdırıldıqdan əvvəlki vəziyyət.

(6) Sıxılma borusu qızdırıldıqdan sonrakı vəziyyət.
(7) Stator telindən istifadə edərək izolyasiyanın ön hissəsini iynə kimi nazikləşdirin.

(8) İzolyasiya kamerasını hazırlayın.
(9) Statoru və izolyasiya kamerasını birləşdirin.
(10) Statoru döndərin və burun.
(11) İzolyasiya kamerası bərkiyənə qədər burun.
(12) İnduksiya maşının üstü və altı.



(13) Aşağıdakı şəkildə hər xəttin yuxarı hissəsini izolyasiyasını birləşdirin.

19. Alt izolyasiya ilə dolaq gövdəsinin bağlanması.

(1) Yuxarıda göstərildiyi kimi hərəkət edərək bütöv izolyasiya xətlərlə alt hissənin dolaqlarını bağlayın.



(2) Əvvəlcə izolyasiya sıxlaşdırıcısını dolaqların birinə bərkidin.
(3) İzolyasiya sıxlaşdırıcısının kəsiklərin arasına salın.
(4) İzolyasiya sıxlaşdırıcısını kəsiklərin arasına keçirin.



(5) İynəni dartılmış izolyasiya kameraları arasından çəkin.
(6) İzolyasiya sıxlaşdırıcısını dartın.

(7) İzolyasiya sıxlaşdırıcısını yan tərəfə çəkin.
(8) İzolyasiya sıxlaşdırıcısı ilmə yaratmaq üçün kəsiklərdən keçir.



(9) İzolyasiya sıxlaşdırıcısı halqalardan keçirilir.
(10) İzolyasiya işi tamamlanır.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Üç fazalı induksiya mühərrikinin strukturunu izah etdi? 2. Üç fazalı induksiya mühərrikinin prinsipini izah etdi? 3. Üç fazalı induksiya mühərrikini sxemini seçdi? 4. Statoru doladı? 5. Statoru daxil etdi? 6. Statoru qoşdu 7. Mühərriki yığdı?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

10. HMİ cihazların şəklini çəkmək

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Müxtəlif sənaye sahələrində HMİ sisteminin necə tətbiq olunmasını izah edə biləcək;
2. HMİ cihazlarını çəkə biləcək.

Təcrübə materialları:
1. Texniki kitablar təqdim edilib;
2. Kord naqilləri.

Avadanlıqlar və alətlər:
1. HMI dəsti;
2. Avadanlıq təlimatları

Mövzu ilə əlaqəli biliklər

1. HMİ-nin əsas prinsipi

(1) HMİ cihazları konsepsiyaları. HMİ Human Machine Interface (İnsan-Maşın İnterfeysi) akronimidir və məhz belə də layihələndirilə bilər; istifadəçi və maşın arasında əlaqə bloku. HMİ interfeys hesab edilir; MP2 pleyerləri, sənaye kompüterləri, məişət texnikası və ofis avadanlıqlarını daxil edə bilən çox geniş termindir. Lakin HMİ daha çox istehsal və prosesə nəzarət sistemlərinə aiddir. HMİ nəzarət sistemlərinin əyani təqdimatını təmin edir və real vaxtda məlumatların əldə edilməsini təmin edir. HMİ istifadəçi üçün çox rahat olan mərkəzləşdirilmiş idarəetmə sistemini təmin etməklə, məhsuldarlığı artıra bilər. İnsan-maşın interfeysi (HMİ) insan-maşın qarşılıqlı əlaqələrini idarə edə bilən müəyyən cihazların komponentidir.

Şəkil 1: Human-machine interface (HMİ) İnsan-maşın interfeysi

İnterfeys, tələb olunan nəticələri istifadəçiyə təqdim edən maşınlar üçün istifadəçinin məlumatlarını siqnallara çevirilməsini təmin edən avadanlıq və proqramdan ibarətdir. İnsan-maşın interfeysi texnologiyası elektronika, əyləncə, hərbi, tibbi kimi müxtəlif sahələrdə istifadə edilir. İnsan-maşın interfeysləri insanların mürəkkəb texnoloji sistemlərə inteqrasiyasına kömək edir.

İnsan-maşın interfeysinə həmçinin adam-maşın interfeysi (MMİ) və ya insan-kompüter interfeysi deyilir. HMİ -də qarşılıqlı əlaqə, adətən iki növ, yəni insandan maşına və maşından insanadır. HMİ

texnologiyası geniş yayıldığına görə, əlaqəli interfeyslər hərəkət sensorları, klaviaturaları, oxşar perifiriya cihazlarını, söz tanıma interfeyslərini, informasiyanın görmə, səs, istilik, HMİ-nin hissəsi hesab edilən digər koqnitiv və fiziki rejimləri daxil edə bilər. HMİ texnologiyası müstəqil bir texnoloji sahə sayılsa da, başqa texnologiyalar üçün adapter kimi istifadə oluna bilər. HMİ-lərin qurulamsının əsası insanın fiziki, davranış və zehni qabiliyyətlərinin başa düşülməsindən artıq dərəcədə asılıdır. Başqa sözlə HMİ-lərini əsasında olan prinsipləri erqonomika təşkil edir. İstifadəçinin təcrübəsini və səmərəliliyini artırmaqdan başqa, HMİ-lər müxtəlif proqramlar, öyrənmə və istirahət üçün xüsusi imkanlar təmin edə bilər. Əslində, HMİ istifadəçilərə bacarıqların daha tez əldə edilməsində kömək edir. Yaxşı HMİ xarici qurğularla realistik və təbii qarşılıqlı əlaqələri təmin edə bilir. HMİ-lərin daxil edilməsinin üstünlükləri arasında səhvlərin azalması, sistem və istifadəçinin səmərəliliyinin artması, etibarlığın, xidmətin rahatlılığın artması, istifadəçi üçün daha əlverişli, daha rahat olması, təlim, bacarıq tələblərinin azalması, fiziki, əqli gərginliyin azalması, tapşırıqların azalması, istehsal və məhsuldarlıqda qənaətin artması qeyd oluna bilər. Sensor ekranlar və membran açarları HMİ-lərin nümunələri sayıla bilər. HMİ texnologiyası həmçinin virtual və düz ekranlarda, təsvirlərin tanınmasında, internet, fərdi kompüter çıxışında, elektron qurğular üçün məlumatların daxil edilməsində, informasiyanın birləşdirilməsində geniş istifadə edilir. GEİA, İSO kimi peşəkar təşkilatlar insan-maşın texnologiyası üçün tətbiq edilən standartlar və qaydaları təqdim edir.

(2) HMİ blok-sxemi. İnsan-Maşın İnterfeysi (Human Machine Interface (HM) adında onun mənası əks olunur: insanlara və maşınlara qarşılıqlı əlaqə yaratmaq imkanı verən grafik interfeys. İnsan maşın interfeysləri müxtəlifdir və atom elektrik stansiyalarının idarəetmə panellərindən tutmuş, İphone ekranına qədər diapazonu əhatə edir. Lakin bu müzakirə üçün biz istehsal tipli proseslər üçün HMİ idarəetmə panelini nəzərdə tuturuq. HMİ hər kəsin istənilən anda, istənilən məqsədlə sistemə daxil olması üçün məlumatların reseptləri, hadisələrin qeydiyyatı, videoların verilməsi və hadisələrin başlanması ilə təchiz edilmiş istehsal xətlərinin mərkəzləşdirilmiş idarəetmə blokudur. HMİ ilə birləşdirilmiş istehsal xətti üçün, o əvvəlcə Proqramlaşdırılan Məntiqi İdarəetmə (Programmable Logic Controller (PLC) ilə işləməlidir. Məhz PLC məlumatı sensorlardan alıb Bul cəbrinə çevririr ki, HMİ onu oxuya və qərar qəbul edə bilsin.



Şəkil 2: HMİ blok-sxemi

(3) HMİ-lərin əsas növləri. HMİ-lərin üç əsas növü var: düymələri əvəz edən, məlumatları emal edən və müşahidə edən. HMİ yarandıqdan əvvəl idarəetmə müxtəlif əməliyyatları yerinə yetirən yüzlərlə düymədən və LED-lərdən ibarət ola bilərdi. Düymələri əvəz edən HMİ hər düymənin funksiyalarını bir yerdə mərkəzləşdirərək istehsal prosesini optimallaşdırıb. Məlumatları emal edən sistemdən daim əks əlaqə tələb edən proqramlar və istehsalat hesabatlarının çap edilməsi üçün idealdır. Məlumatları emal edənlə siz HMİ ekranının qrafiklər, vizual təqdimat və istehsal xülasələri kimi

materiallar üçün kifayət qədər böyük olmasını təmin etməlisiniz. Məlumatları emal edən reseptlər, məlumatların izlənməsi, məlumatların qeydiyyatı və xəbərdarlıq siqnallarının emalı/qeydiyyatı kimi funksiyaları daxil edir. Nəhayət, hər vaxt proqrama SCADA və ya MES daxil etdikdə, nəzarət edən HMİ çox faydalıdır. Nəzarət edən HMI üçün, ehtimal ki, Windows -u işə salınmalı və bir neçə Ethernet portu olmalıdır.

Şəkil 3: HMİ-lərin əsas növləri

(4) HMİ necə seçmək. HMİ çox funksiyalıdır, buna görə də, dəqiq bilmək lazımdır ki, ondan nə tələb olunur. HMİ üç əsas funksiyası üçün istifadə edilir: düymələri əvəz etmə, məlumatları emal etmə və müşahidə etmə. Düymə əvəzedicisi, LED-ləri, On/ Off düymələri, keçiriciləri və ya idarəetmə funksiyasını yerinə yetirən hər hansı bir mexaniki qurğunu əvəz edir. Bu mexaniki qurğuların çıxarılması ona görə mümkündür ki, HMİ bütün eyni funksiyaları yerinə yetirərək, öz LCD ekranında bütün bu vizual təqdim olunmasını təmin edə bilir. Məlumat emalçısı daim əks əlaqə və monitorinq tələb edən proqramlarda istifadə edilir. Çox vaxt məlumat emalçıları böyük həcmli yaddaşlarla təmin edilir. Üç HMİ növlərindən sonuncusu, SCADA və MES ilə işlədiyinə görə, nəzarətçi adlandırılır. Bunlar böyük ərazilərdə yayılan bütün sahələri, böyük sistemlər komplekslərini yoxlayan və idarə edən mərkəzləşdirilmiş sistemlərdir. HMİ, adətən, trend, diaqnostik məlumatlar, idarəetmə məlumatını təmin etmək üçün SCADA sisteminin məlumat bazalarına və proqram təminatı ilə əlaqələndirilir.

(5) HMİ -nin fiziki xüsusiyyətləri. HMİ-nin faktiki fiziki xüsusiyyətləri modeldən, model və istehsalçılar arasında dəyişir. Düzgün seçim etmək vacibdir. Su qurğusunda yerləşən HMİ, əczaçılıq anbarında yerləşən HMİ-dən fərqli olaraq, perimetri ətrafında hidroizolyasiya ola bilər. HMİ-nin faktiki ölçüsü də fərqli ola bilər. HMİ-nin əsas fiziki xüsusiyyətdir, çünki heç də bütün proqramlar üçün böyük, yüksək icazəli monitor tələb olunur. Bəzi proqramlar üçün yalnız kiçik, qara və ağ sensor monitoru tələb olunur. HMİ seçdikdə fiziki xüsusiyyətlər çox vacibdir, çünki iş mühiti və HMİ-nin özünü qoruması üçün tələb olunan təhlükəsizlik tədbirləri nəzərə alınmaslıdır. Həmçinin, yer məhdudiyyətlərinə görə, xüsusi ölçü tələb oluna bilər. Nəhayət, fiziki xüsusiyyətlər HMİ prosessorunu və yaddaşını ehtiva edir. Prosessorun və yaddaşın imkanlarının sistemin idarə edilməsi üçün, kifayət etməsindən əmin olmaq vacibdir.

(6) HMİ necə işləyir? Əvvəlcə istehsalatı idarəetmə sisteminin işi üçün tələb olunan digər komponentləri nəzərdən keçirin. İstehsal xətti məhsulun istehsalı üçün tələb olunan işi yerinə yetirən bütün avadanlıqlardan ibarətdir. Sonra istilik, sürət, təzyiq, çəki və qidalama sürətinə nəzarət edən müxtəlif giriş/çıxış sensorlarını nəzərdən keçirin. Üçüncüsü, giriş/çıxış sensorlarından məlumatları qəbul edən və məlumatları məntiqi birləşmələrə çevirən proqramlaşdıran məntiqi kontrolleri (programmable logic controller (PLC) seçin.

(7) Hansı proqram təminatını seçmək? Hansı proqram təminatının istifadə ediləcəyini müəyyən etmək üçün üç əsas seçim kateqoriyası mövcuddur: proprietar (patentli), avadanlıqdan müstəqil və açıq proqram təminatı. Proprietar proqram təminatı istehsalçının təmin etdiyi proqramdır, bir qayda olaraq, onun istifadə edilməsi asandır və tez tərtib edilə bilər. Onun çatışmazlığı odur ki, proprietar proqram təminatı yalnız xüsusi avadanlıq platformasında işləyə bilər. Avadan-

lıqdan müstəqil (asılı olmayan) proqram təminatı bir neçə müxtəlif növ HMİ-də proqramlaşdırma üçün üçüncü tərəfin tərtib etdiyi proqram təminatıdır. Bu növ proqram təminatı HMİ seçimində tərtibatçıya daha çox azadlıq verir. Avadanlıqdan müstəqil proqram təminatının çatışmazlığı, onun proprietar proqram kimi istifadə üçün rahat olmamasıdır. Açıq proqram təminatı yalnız daha təcrübəli proqram tərtibatçısı tərəfindən seçilməlidir. Bu, tərtibat prosesində, tərtibatçıya tam açıq olmaq imkanı verir.

(8) HMİ tətbiqi proqramları. HMİ müxtəlif sahələrdə istifadə olunur: istehsal qurğuları, ticarət avtomatları, qida, işki, əczaçılıq preparatları və kommunal xidmətlər. Bunların yalnız bir neçə nümunələridir. HMİ-lər və PLC-lər bir qayda olaraq bu sahələr istehsal xəttinin əsasını təşkil edir. HMİ-nin istehsala inteqrasiyası əməliyyatları olduqca yaxşılaşdırıb. HMİ bütün sistemə dispetçer idarəetməsi və məlumatların əldə edilməsinə imkan verir. Belə ki, parametrlər operatorun seçiminə görə dəyişilə bilər. Məsələn, metal istehsalında, HMİ metalın necə kəsildiyi, qatlanmasına və bunu necə tez ediləcəyinə nəzarət edə bilər. HMİ ehtiyatların nəzarəti və yenidən doldurulmasını yaxşılaşdırmaq imkanı verir. Beləliklə satıcılar üçün daha az səfərlər tələb olunur. HMİ-lər tökmə prosesində, sürət, səmərəlilik, səhvlərin aşkar edilməsi və səhvlərin düzəldirilməsi daxil olmaqla, istehsal xəttinin bütün aspektlərinə nəzarət etmək üçün istifadə olunur. Kommunal şirkətlər suyun paylanması və çirkab suların təmizlənməsinə nəzarət üçün HMİ-lərdən istifadə edə bilər.

(9) HMİ-nin üstünlükləri. HMİ-nin ən böyük üstünlüyü qrafik interfeysin istifadəçi üçün rahatlığıdır. Qrafik interfeys tez identifikasiya etməyə imkan verən rəng (məsələn, problem üçün qırmızı) kodlaşmasını təmin edir. Şəkillər və təsvirlər tez tanınma imkanı verərək savadsızlıq problemlərini asanlaşdırır. HMİ məhsul istehsalının dəyərini azalda, potensial olaraq mənfəətliyini artıra və istehsal xərclərini azalda bilər. HMİ qurğuları artıq çox innovativdir. Əvvəlkindən daha yüksək həcmli və interaktiv, daha dəqiq işlənmiş funksiyalara malikdirlər. HMİ-nin təklif etdikləri bəzi üstünlükləri aşağıdakılardır: avadanlıq təminatının proqram təminatına çevrilməsi, siçan, klaviatura ehtiyacının aradan qaldırılması və kinestetik kompüter/insan qarşılıqlı əlaqələrinin təmin edilməsidir.

(10) HMİ-nin PLC-ə nisbətən üstünlüyü. Yalnız PLC-dən istifadəyə nisbətən HMİ-nin üstünlüyü odur ki, onun heç bir çatışmazlığı yoxudur! Yalnız PLC-in istifadəsi heç bir real vaxt əks əlaqəni təmin etmir, siqnalizasiyanı söndürə və ya PLC-i yenidən proqramlaşdırmadan sistemi dəyişə bilmir. HMİ-nin əsas üstünlüyü onun funksionallığıdır; HMİ qəhvə hazırlanması kontrolleri kimi sadə vəzifələr və ya nüvə qurğusunun mürəkkəb idarəetmə bloku üçün istifadə edilə bilər. Hər gün ortaya çıxan yeni HMİ layihələri ilə biz artıq uzaqdan çıxış imkanı verən HMİ-ləri görürük və beləliklə terminala uzaqdan çıxış imkanı təmin edilir. HMİ-nin digər üstünlüyü ondan ibarətdir ki, istifadəçi interfeysini istifadəçi şəxsən tərtib edə bilər.

(11) Rahatlıq. HMİ ilə gələn rahatlıq son dərəcə qiymətlidir; HMİ ilə sistemin rəqəmləşdirilməsi nəticəsində əldə edilən funksionallıq misilsizdir. HMİ avtomatlaşdırma xəttində adətən tapılan bütün idarəetmə xüsusiyyətlərini özündə birləşdirib bir mərkəzləşidirilmiş yerdə yerləşdirir. Beləliklə də, fövqəladə vəsiyyətdə xəttinizi dayandıran qırmızı düyməni basmaq ehtiyacını aradan qaldırır. Uzaqdan çıxışla, istehsala başlamaq/dayandırmaq və ya nəzarət etmək üçün operatorun avtomatlaşma xətti yaxınlığında olmasında ehtiyac yoxdur. Uzaqdan çıxışla operator bütün eyni xüsusiyyətlərlə mərkəzləşdirilmiş blokunuzda, daha kiçik kompakt formada təmin oluna bilər. Sadəlikdə də HMİ-nin rahatlığında böyük bir amildir. Ekranlar və funksiyalar avtomatlaşdırma xəttinə nəzarət etmək üçün asan təmin edir.

(12) İnterfeysin çevikliyi. HMİ-nin ən rahat funksiyalarından biri interfeysin fərdiləşdirilməsi imkanıdır. HMİ çox ekranlı və bir neçə altproqramla işləyən ən mürəkkəb proqramları tam dəstəkləyə bilər. Əgər istifadəçi HMİ-ni daha sadə bir şeylə proqram tərtib etmək istəsə, ona HMİ-də bilavasitə yazılmış kontroller üçün təlimatlar verilə bilər. Hər bir HMİ-nin müxtəlif xüsusiyyətləri var; bəziləri səs, video əks etdirə bilər və ya hətta çıxışın məsafəli idarə edilməsini təmin edə bilər. Faktiki interfeysin dizaynı, tipik istifadəçinin bütün imkanlarını, habelə səs-küy,

işıqlandırma, toz, görüntü və texnoloji əyrilər kimi ətraf mühit aspektləri nəzərə alaraq, xüsusi proqramlar üçün optimallaşdırılmalıdır. HMİ/PLC birləşməsi. PLC çoxpilləli (rele) məntiqsiz necə idarə edilə bilər? PLC-in standart proqram təminatını HMİ necə əvəz edir? Çoxpilləli məntiq sadəcə olaraq şərti proqramlaşdırmadır. Məsələn, 1-ci girişə enerji qoşulduqda, 1-ci stator enerji verilir. İstənilən nəticə əldə etmək üçün tapşırıq düzgün ifadə olunmalıdır. Eyni nəticə C proqramlaşdırılması ilə əldə oluna bilər. Lakin PLC-in düzgün işləməsi üçün HMİ-nin proqramlaşdırılması üçün PLC-in bütün registrləri məlum olmalıdır. HMİ vasitəsi ilə PLC-i necə proqramlaşdırmağı öyrənmək üçün ən yaxşı yol əvvəlcə PLC və onun proqram təminatı ilə işə başlamaqdır. Bu, PLC-in HMİ-siz necə işləməsini başa düşməyə kömək edir. Bu biliklər istifadəçi iki blokları birləşdirməyə hazır olduqda asanlıqla tətbiq olunur. Qoşulma, PLC artıq istifadə olunduqda, HMİ-nin sistemə qoşulması asan bir tapşırıq ola bilər. Bu birləşmə, HMİ və PLC arasında USB, RS-232, RS-485 birləşmələri kimi asandır. Bəzi hallarda hər iki blok simsiz funksiyalarla təchiz edilir, bu isə birləşməni daha da asanlaşdırır. PLC və HMİ-nin qoşulması asan bir tapşırıq olsa da, PLC və faktiki avtomatlaşdırma xətti arasında qoşulma xaotik ola bilər. Proqramın ölçüsü və mürəkkəbliyindən asılı olaraq, PLC üçün Profibus sistemləri tələb oluna bilər. Profibus sistemi PLC-in genişlənmə portuna birləşdirərək bir giriş/çıxışı, birdən çox giriş/çıxışlara genişləndirən uzadıcıya bənzəyir. İstehsal xəttindən PLC-ə qoşulma sxemi tövsiyə olunur ki, HMİ proqramlaşdırılması böyük dərəcədə sürətlənsin.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Sement və əhəngə toxunmamaq üçün əlcək geyinin.
2. Sement və əhəngi daxilə udmamaq üçün maska geyinin.
3. Gələcəkdə istifadə üçün avadanlıq və alətləri yuyun.

Təcrübə mərhələləri

1. SCADA Part Editor

(1) Bu funksiya obyekt yaratmaq və kitabxanada saxlamaq və ya Keçirici/Lampa (Switch/Lamp) funksiyası kimi istifadə etmək üçün istifadə olunur.



(2) Alətlər (Tools) düyməsini basın və Part Editor -u seçin.

(3) Yeni detal obyektini yaratmaq üçün Yeni detal [New Part] düyməsini basın.

(4) Nömrəni seçin və detalın adını yazın .

(5) Test bölməsini seçin və [OK] düyməsini basdıqda, siz aşağıdakı [Part Editor1: Test] səhifəsini görə bilərsiniz.

(6) Siz bu səhifədə, aşağıdakı şəkildəki kimi, istədiyiniz obyekti yarada bilərsiniz.

(7) Lakin Trend, Alarm və Chart kimi obyektlər Detal (Part) obyekti kimi mövcud deyil .

(8) Obyekti yaratdıqdan sonra, obyekti klikləyin və aşağıda göstərildiyi kimi Detal Redaktoruna [Part Editor] çəkin.

(9) Edit Part: Seçilmiş detal obyektini redaktə edirn.

(10) Remove Part: Seçilmiş detal obyektini silin.

(11) Change No.(Name): Seçilmiş detalın xarakteristikalarını redaktə edin.

(12) Find: Detal obyektini ad və ya nömrə əsasında tapın.

(13) İmport Part: Başqa layihədə hazırlanan obyekt detalını daxil edin.

(14) Obyekt detalını seçdikdən sonra [Import] düyməsini basın .

(15) Sonra siz aşağıdakı [Import Option] pəncərələrini görüb bir variant seçə bilərsiniz.

(16) Change No. (Add parts to the end of Data) Məlumatların sonuna detalları əlavə edin.











(17) Bunu seçsəniz, mövcud detal obyektləri nömrəsindən seçilmiş, Detal obyektlərini əlavə edə bilərsiniz.

(18) İdxal olunan detal obyektlərinin nömrəsi 2-dən başlayır.

(19) Aşağıdakı şəklə baxın.

(20) Maintain No. (Eyni Detal nömrəsini əvəz edin)

(21) Bunu seçsəniz, mövcud Detal obyekti silinəcək və idxal olunan Detal obyekti saxlanılacaqdır.

(22) İdxal olunan detal obyektlərinin nömrəsi 1-dən başlayır.

(23) Maintain No. (Eyni Detal nömrəsi Məlumatların sonuna əlavə ediləcək)

(24) Bunu seçsəniz, seçilmiş detal obyektləri mövcud detal obyektinin nömrəsindən sonra yaddaşda saxlanılacaq.

(25) Məsələn, artıq 1 və 3 nömrəli detal obyektləri mövcuddur və siz, aşağıdakı şəkildəki kimi, 4 müxtəlif detal obyektlərini idxal edəcəksiniz.

(26) Nəticə aşağıdakı şəkil olacaqdır.









Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. HMİ sistemini istehsal sahəsində necə tətbiq etməyi izah etdi? 2. Proqramı idarə etdi? 3. HMİ cihazlarının sxemini izah etdi? 4. İnterfeysləri qoşdu? 5. HMİ cihazlarının texnologiyalarını izah etdi? 6. Cihazların şəklini çəkdi? 7. Mühərriki idarə etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

Sərişdə əsaslı modul

ELEKTROTEXNİKA

Məntiqi idarəetmə proqramının tətbiqi 1, 2



Sənaye və İnnovasiyalar üzrə
Bakı Dövlət Peşə Təhsil Mərkəzi

1. MİP Proqramını və quruluşunu qurmaq

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. MİP Proqramını qurmaq qaydasını izah etməyi biləcək;
2. MİP Proqramını qurmağı bacaracaq.

Təcrübə materialları:
1. Quraşdırma kitabçası;
2. Texniki Kitablar.

Avadanlıqlar və alətlər:
1. MİP üzrə avadanlıq;
2. Avadanlıq təlimatı.

Mövzu ilə əlaqəli biliklər

1. MİP Proqramını və quruluşunu qurmaq.

(1) MİP bir çox giriş və çıxış tənzimləmələri, geniş temperatur intervalları, elektrik səsinə qarşı təsirlənmə, eləcə də titrəmə və zərbələrə qarşı müqavimət üzrə dizayn edilmiş rəqəmsal kompüter xarakteri daşıyır. MİP, real vaxt sisteminin nümunəsidir.

(2) MİP ilə bağlı tarixi məlumat. MİP 1960-cı illərin sonunda təqdim olunub. İlk kommersiya və müvəffəqiyyətli Proqramlaşdırılmış Məntiqi İdarəetmə Cihazı, Ümumi Mühərriklər üçün rele tipli əvəzləyici alət olaraq Modikon tərəfindən hazırlanıb və tətbiq edilib. Daha əvvəl, bu, minlərlə elektron hissələrdən ibarət mexanizm idi. Sonra, 1970-ci illərin sonunda isə mikroprosessor reallığa çevrildi və bu gün olduğu kimi, mürəkkəb sistemə sadəcə keçid formasını inkişaf etdirməyə imkan verən MİP rolunu böyük ölçüdə artırdı.

(3) Ümumi MİP Prosessorun 5 Əsas Komponenti.



Şəkil 1: MİP Prosessoru

1. **Enerji Təchizatı.** Əsas MİP komponentlərini idarə etmək üçün lazım olan gərginliyi təmin edir.
2. **Prosessor.** Bütün MİP sistemlərinin fəaliyyətini idarə etmək və nizamlamaq üçün lazımi məlumatları təmin edir.
3. **Proqramlaşdırma Cihazı.** Proses avadanlıqları və ya hərəkətə gətirən maşının əməliyyat və idarəetmə ardıcıllığını müəyyən edən, istənilən proqrama daxil olmaq üçün istifadə olunur.
4. **Giriş Modulu.** (Sensor Düymələri, kontaktlar, həddi ayırıcılar, və s.) - MİP daxilindəki daxili məntiq səviyyəsinin siqnalları, sahənin yüksək səviyyəli siqnalları arasında siqnal konversiyası və izolyasiyasını təmin edir.
5. **Çıxış Modulu.** (Solenoidlər, kontaktorlar, həyəcan siqnalları və s.) - MİP daxilindəki daxili məntiq səviyyəsinin siqnalları, sahənin yüksək səviyyəli siqnalları arasında siqnal konversiyası və izolyasiyasını təmin edir.

(4) MİP üzrə LS Sənaye Sistemləri/ MİP üzrə tam məhsul kateqoriyası



Şəkil 2: MİP üzrə məhsul kateqoriyası

(5) Əsas model struktur detalları. XGT qrupu. XGİ növü.



Şəkil 3: MİP üzrə model quruluşu

1. Enerji, İ/O birləşdirici.
2. Yükləmə Portu (Mini USB) Rejimi üzrə LED göstərici (İşəsalma, Dayandırma).
3. İ/O üzrə LED göstərici.
4. MİP Batareya.
5. XGT qrupu. XGİ növü.



Şəkil 3: XGİ növü

(1) Enerji modulu.
(2) CPU modulu.
(3) Ethernet konnektoru.
(4) Əlavə modul üçün quraşdırma (İ/O modulu, Analoq İ/O modulu, vəziyyətə nəzarət modulu və s.).

(6) XGİ Qrupu üzrə Sistemi Konfiqurasiyası

USB kabel seçilməsi ilə bağlı tövsiyələr (XG5000 ilə əlaqənin kəsilməsinin qarşısını almaq üçün), şirkətin qorunmalı və 3 m-dən daha qısa olan USB kabeli (USB-301A) tövsiyə edilir. Səs həddi zəif olan PC-yə qoşularkən USB Topundan istifadə etmək tövsiyə olunur.



Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. Proqramın qurulması
(Proqram təminatı layihəsi (XG5000).
(1) LS Sənaye Sistemlərinin veb səhifəsinə giriş.

1. Proqramın qurulması
(1) LS Sənaye Sistemlərinin veb səhifəsinə giriş. (www.LSIS.com)



(2) Dəstək və xidmətlər - > Yükləmə mərkəzi - > "XG5000" axtarış

(2) Dəstək və Xidmətlər -> Yükləmə mərkəzi -> "XG5000" Axtarış



(3) XG5000-in ən son versiyasını yükləmək.

(3) XG5000-in ən son versiyasını yükləmək.



(4) Yüklənilən proqramı işə salmaq.

(4) Yüklənilən proqramı işə salmaq.



(5) Proqramı işə salmaq üçün işarənin üzərinə iki dəfə vurun.

(5) Proqramı işə salmaq üçün işarənin üzərinə iki dəfə vurun.



2. Layihə yaratmaq.

(1) Layihəni seçmək - > Yeni layihə. Yeni layihə pəncərəsində istifadə olunan CPU sırasını və növünü seçmək.

2. Layihə Yaratmaq.

(1) Layihəni Seçmək -> Yeni Layihə. Yeni Layihə pəncərəsində istifadə olunan CPU sırasını və növünü seçmək.



(2) İ/O konfiqurasiya etmək üçün İ/O parametri üzərində iki dəfə vurmaq.

(2) İ/O konfiqurasiya etmək üçün İ/O parametri üzərində iki dəfə vurmaq.



3. Layihə Görünüşü

• **Layihə ağacı:** Layihə ağacı, bütün komponentləri və avtomatlaşdırma vasitələri ilə bağlı layihə məlumatlarını ehtiva edir. Bir layihədə mövcud olan bütün komponentlər və bütün editorlar ağacın quruluşu kimi görünür və ordan da açıla bilər.

• **İşçi sahəsi:** Düzəliş üçün açılmış obyektlər işçi sahəsində göstərilir.

Funksiya/FB: Son zamanlarda istifadə edilən FB-ləri yoxlaya bilərsiniz.

• **Monitor:** Seçilən obyekt və ya yerinə yetirilən hərəkətlərə dair əlavə məlumat müşahidəçi pəncərəsində göstərilir.

• **Nəzarət proqramı:** Proqramdakı səhvləri yoxlayın.

3. Layihə görünüşü



4. Menyu sırası

4. Menyu sırası



5. Dizayn sırası

5. Dizayn sırası



6. Çoxpilləli sxem hazırlamaq.

(1) İstiqamət parametri.

• Giriş : %İX0.0.0

- İ: Giriş
- X: Bit (B: Bayt , W: Söz)
- 0: MİP № (İlk MİP)
- 0: Sıra № (İlk Sıra)
- 0: İstiqamət № (İlk İstiqamət)

• Çıxış : %QX0.1.0

- Q: Çıxış
- X: Bit (B: Bayt, W: Söz)
- 0: MİP № (İlk MİP)
- 1: Sıra № (İkinci Sıra)
- 0: İstiqamət № (İlk İstiqamət)

6. Çoxpilləli sxem hazırlamaq



7. Proqramı yükləmək qaydası.

(1) USB və ya Ethernet kabel vasitəsilə MİP və ŞK (Şəxsi Kompüter)-i birləşdirin.

7. Proqramı yükləmək qaydası.

(1) USB və ya TCP/İ



(2) Onlayn düyməsinə basın > Bağlantı parametrləri və əlaqə növünü seçin.

(2) Onlayn düyməsinə basın -> Bağlantı parametrləri və əlaqə növünü seçin.



(3) Onlayn düyməsinə basın - > Yükləmək üçün yazmaq.

(3) Onlayn düyməsinə basın - > Yükləmək üçün yazmaq.



Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. MİP Proqramını qurmaq qaydasını izah edə bildi? 2. MİP Proqramını düzgün şəkildə qura bildi? 3. MİP Proqramını yoxlaya bildi? 4. MİP Proqramını və quruluşunu izah edə bildi? 5. MİP Proqramını və strukturunun qurulmasını izah edə bildi? 6. MİP Proqramını və strukturunu birləşdirmə qaydasını izah edə bildi? 7.MİP Proqramını və strukturunu sınaqdan keçirmək qaydasını izah edə bildi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

2. Proqramın təməl dili

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Əsas MİP dilini izah etməyi biləcək;
2. Proqramın Təməl Dilinin xüsusiyyətlərini və fəaliyyətini izah edəcək.

Təcrübə materialları:
1. Dərslik;
2. Texniki Kitablar.

Avadanlıqlar və alətlər:
1. MİP avadanlıq komplekti;
2. Avadanlıq təlimatı.

Mövzu ilə əlaqəli biliklər

1. Əsas MİP dili

(1) MİP üzrə proqramlaşdırma dilləri. MİP proqramlaşmasında ən çox rast gəlinən dillər bunlardır:

1. Çoxpilləli məntiq: Çoxpilləli məntiq, MİP üzrə ən qədim proqramlaşdırma dilidir. Kombinasiya məntiqini ifadə etmək üçün, bu daha uyğundur. Çoxpilləli əsas məntiq simvollarının təsvir etdiyi elementlər bunlardır: bağlantı qurmaq, fasilə kontaktı, rele sarğısı və s.
2. Funksional blok diaqramı.
3. Ardıcıl funksiya qrafiki.

(2) MİP üstünlükləri: Etibarlılıq; Proqramlaşdırma və yenidən proqramlaşdırmaya əsaslanan uyğunlaşma; Kompleks sistemlərin idarə olunması üçün effektiv dəyər; Kiçik fiziki ölçü, daha az layihə müddəti; Əməliyyatın yüksək sürəti; Müəssisədə kompüter sistemləri ilə əlaqə qurmaq bacarığı; Texniki təmir rahatlığı/nasazlığın axtarılması; Azaldılmış yer; Enerjiyə qənaət;

(3) Proqram tətbiqləri: Avtomatlaşdırmanın istənildiyi yerdə MİP, tapşırığı yerinə yetirmək üçün ən uyğun olanlardır.

1. MİP-in istifadə olunduğu sənayelərə dair bir neçə nümunə: Robotların istehsalı və nəzarəti, Avtopark nəzarəti, Qatar nəzarət stansiyası sistemi, Qida emalı, Materialların işlənməsi, Maşın alətləri, Elektrik işləri, Konveyer sistemi və s.
2. Proqramlaşdırılan Məntiqi İdarəetmə (MİP): MİP tətbiqləri tipik olaraq yüksək səviyyəyə malik xüsusi sistemlərdir. MİP, xüsusi qurulmuş nəzarətçi dizaynının dəyərinə nisbətən aşağı hədlidir. Ümumiyyətlə, MİP-lər daha güclüdür və onlar üçün daha az texniki təmir tələb olunur, beləliklə də, nəzarət etdikləri qurğuları ətraf mühitə rəğmən daha işlək hala çevirirlər. Ümumilikdə, MİP-lər bir çox müxtəlif problemlər üçün mükəmməl bir həll kimi görünür.

(4) AFQ (Ardıcıl Funksiya Qrafiki). AFQ, MİP dilindən istifadə edərək, emal sırasına uyğun olaraq, funksional sxem formasında tətbiq proqramını genişləndirən strukturlaşdırılmış bir dildir.

AFQ, tətbiq proqramını mərhələ və keçidlərə ayırır, eləcə də onları bir-birinə birləşdirmə qaydasını təmin edir. Hər bir mərhələ hərəkətlə bağlıdır və hər bir keçid, keçid vəziyyəti ilə əlaqəlidir. AFQ vəziyyətlə bağlı məlumatları əhatə etməli olduğu kimi, AFQ-ni tətbiq etmək üçün proqram növləri arasında sadəcə proqram və funksiya bloku mövcuddur.



(5) AFQ strukturu

1. Mərhələ: Mərhələ, hərəkətlə birləşərək ardıcıl nəzarət blokunu göstərir. Həmin mərhələ aktiv vəziyyətdə olduqda, əlavə olunan fəaliyyət sıxlığı həyata keçirilir. Əvvəlcə ilk mərhələni aktivləşdirməlisiniz. Aktivləşdirilmiş ilkin mərhələnin (S1) növbəti keçid vəziyyəti qurulduqda, hazırda aktivləşdirilmiş mərhələ 1 (S1) qeyri-aktivləşdirilmiş hala çevrilir və S1-ə qoşulan Mərhələ 1 (S1) aktivləşdirilmiş hala çevrilir.



Şəkil 2: AFQ Strukturu

2. Keçid. Keçid, mərhələlər arasındakı icra vəziyyətini göstərir. Keçid vəziyyəti, ST (Strukturlaşdırılmış mətn) və ya LD kimi MİP dili olaraq da təsvir edilməlidir. Keçid vəziyyətinin nəticəsi həmişə BOOL növü olmalıdır və dəyişkən ad isə istənilən keçid üzrə Trans olmalıdır. Keçid vəziyyətinin nəticəsi 1 olduğu halda, cari mərhələ qeyri-aktivləşdirilmiş halda və növbəti mərhələ isə aktivləşdirilmiş halda olur. Belə ki, mərhələlər arasında keçid olmalıdır. Tran000s açıq olduqda,

S1 qeyri-aktivləşdirilmiş halda və S2 isə aktivləşdirilmiş halda olur. Trans, daxili olaraq bildirilən dəyişkən xarakteri daşıyır. Bütün ötürmələrin keçid vəziyyəti Trans dəyişkənində çıxışa malik olmalıdır.



Şəkil 3: Trans

3. Hərəkət. Hər bir mərhələ iki hərəkəti bir-birinə birləşdirə bilər. Hərəkətsiz mərhələ, gözləmə hərəkəti olaraq qəbul edilir və növbəti keçid vəziyyəti, 1 olana qədər gözləməyi tələb olunur. Hərəkət, LD/AFQ/SM kimi MİP dilindən ibarətdir və mərhələ aktivləşdirildiyi zaman hərəkət icra olunur. Fəaliyyət göstəricisi, hərəkətə nəzarət etmək üçün istifadə olunur. Hərəkət qeyri-aktivləşdirilmiş halda olduqda, kontakt çıxışını hərəkətə uyğun aktivləşdirdikdən sonrakı vəziyyəti 0 olur. Bununla belə, S, R, funksiya və funksiya bloku çıxışı qeyri-aktivləşdirmədən əvvəlki vəziyyətlərini saxlayır. Hərəkət 1, hərəkət 2 məzmunu. Sadəcə S1 aktiv olduğu zaman Hərəkət 1 tətbiq edir. Aktivləşdirilmiş S1, R spesifikatorunu aktivləşdirənə qədər Hərəkət 2 tətbiq edir. Hətta S1, qeyri-aktivləşdirmə halında olsa belə, tətbiq prosesi davam edir. Hərəkət ləğv edildikdə, bu hərəkət üzrə post skan prosesi həyata keçirilir və daha sonra isə növbəti mərhələyə keçilir.



Şəkil 4: Hərəkət

(6) AFQ (Ardıcıl funksiya qrafiki)

1. Post skan. Hərəkət ləğv edildikdə, bu hərəkət yenidən skan edilir. Skan edildiyi kimi, əgər hərəkət proqramının başlanğıc hissəsində kontakt (0 dəyəri ilə əlaqə) varsa, kontaktlardan ibarət olan proqramın çıxışı 0 nisbətində ola bilər. Funksiya, funksiya bloku, S, R çıxışı və s. bura daxil edilmir. Bu şəkildə, post skan kontaktı 0 nisbətində olduğu kimi, C və %Q0.0.0 də 0 ola bilər.



Şəkil 5: Post skan

2. Hərəkət spesifikatoru. Hərəkət tətbiq olunduğu zaman, hərəkət spesifikatoru izlənilir. Mərhələ fəaliyyəti, təyin edilən spesifikatora uyğun olaraq tətbiq nöqtəsini və vaxtını müəyyən edir. Hərəkət spesifikatorunun növləri aşağıdakılardır.

• N (Qeyri-saxlanılan). Sadəcə mərhələ aktivləşdirildiyi zaman hərəkət icra edilir.



Şəkil 6: Hərəkət spesifikatoru

• (Set). Mərhələ aktivləşdirildikdən sonra da hərəkət davam edir (hərəkət, R spesifikatoru vasitəsilə sıfırlanana qədər).



Şəkil 7: SET

• R (Yenidən Sıfırlama). S, SD, SL və ya DS spesifikatoru ilə işə başlamazdan daha əvvəl hərəkətin icrasını ləğv edir.

• L (Zaman Məhdudlu). Mərhələ aktiv hala çevrilənə qədər hərəkətə başlanılır və həmin mərhələ qeyri-aktiv olana və ya müəyyən müddət keçənə qədər davam edir.



Şəkil 8: Mərhələ

• D (Müvəqqəti Ləngimə). Mərhələ aktiv hala çevrilənə qədər ləngimə taymeri başladılır – müvəqqəti ləngimədən sonra hərəkətə başlanılır (əgər mərhələ hələ də aktiv haldadırsa) və qeyri-aktivləşmə halına qədər davam edir.



Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Ardıcıl dövrədə simvollardan necə istifadə etməli olduğunu izah etdi? 2. Simvolları dəyişən elektrik dövrələrinə tətbiq etdi? 3. Sadə elektrik cihazlarının simvollarını öyrəndi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

2. Elektrik cihazların pin nömrəsinin yoxlanması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Müxtəlif cihazlardan necə istifadə etməyi izah edə biləcək;
2. Elektrik cihazların pin nömrəsini yoxlaya biləcək.

Təcrübə materialları:
1. Cihazların bazası;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. Multitester
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Obyekt və pin nömrəsi

(1) Rele yuvası

RELE YUVASI	KONTAKT NÖQTƏSİ	ARALIQ DÖVRƏ



Elektrik	COM	a	b
2	1	3	4
7	8	6	5



Şəkil 1: Rele yuvası

(2) Taymer:

ARALIQ DÖVRƏ	KONTAKT NÖQTƏSİ



elektrik	a	C	a	b
2	1	8	6	5
7	3			

Şəkil 2: Taymer

(3) Tempera tura nəzarət:

ARALIQ DÖVRƏ	KONTAKT NÖQTƏSİ



Elektrik	COM	a	b
7	4	5	6
8			
SEN-SOR	1-2		

Şəkil 3: Temperatura nəzarət

(4) QAS

DAXİLİ DÖVRƏ	KONTAKT NÖQTƏSİ



Elektrik	COM	Su çıxışı	Su təchizatı
5	4	3	2
6			
F1	7		
F2	8		
F3	1		

Şəkil 4: FLS

(5) Fliker:

DAXİLİ DÖVRƏ	KONTAKT NÖQTƏSİ



elektrik	COM	a	b
2	8	6	5
7			

Şəkil 5: Fliker

(6) Sayğac:



Şəkil 6: Sayğac

(7) 11 PİN (11PİN Relesi):

11 (11 PİN RELESİ)	KONTAKT NÖQTƏSİ	DAXİLİ DÖVRƏ



elektr-ik	COM	a	b
2	1	4	5
10	3	6	7
	11	9	8



Şəkil 7:11 Pin relesi

(8) 14 PIN (14 PİN Relesi):

DAXİLİ DÖVRƏ	KONTAKT NÖQTƏSİ



ELEKTR-İK	COM	a	b
13	9	5	1
14	10	6	2
	11	7	3
	12	8	4

Şəkil 8:14 Pin relesi

(9) Maqnit kontaktı/güc relesi(PR, MC) 20 PİN:

DAXİLİ DÖVRƏ	KONTAKT NÖQTƏSİ
 **POWER – ELEKTRİK**	

ƏSAS KONTAKT	
R S T	1 3 5
U V W	20 19 17
KÖMƏKÇİ KONTAKT NÖQTƏSİ	
ELEKTRİK	10-11
a	7,15 / 8,12
b	4,16 / 9,13

Şəkil 9: Maqnit kontaktı/Güc relesi

(10) PR, MC maqnit kontaktı, 12 PİN:

DAXİLİ DÖVRƏ	KONTAKT NÖQTƏSİ
	

Şəkil 10: PR Maqnit kontaktı

(11) EOCR 12 PIN İntensiv Cərəyan Relesi

DAXİLİ DÖVRƏ	KONTAKT NÖQTƏSİ
	

Şəkil 11: İntensiv Cərəyan Relesi

(12) 14 PIN İntensiv Cərəyan Relesi (İCR)

DAXİLİ DÖVRƏ	KONTAKT NÖQTƏSİ
	

Şəkil 12: İntensiv Cərəyan Relesi

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. 'a' kontakt dövrəsi:

(1) Relenin 'a' kontakt dövrəsi təcrübəsi üçün 'Şəkildə' olduğu kimi xətləri birləşdirin.



(a) Ardıcıl dövrə (b) vaxt

(2) Düyməli ayırıcıya basaraq, 'Şəkildəki' Pb1 çeviricisini yandırın, vaxt göstərici lampalarınının hər birinin vəziyyətini yoxlayın və 'Cədvəldə' qeyd edin.

Pb vəziyyəti	L1	L2	L3	L4
YANILI				
SÖNÜLÜ				

2. 'b' kontakt dövrəsi:

(1) Relenin 'b' kontakt dövrəsi təcrübəsi üçün 'Şəkildə' olduğu kimi xətləri birləşdirin.



(a) Ardıcıl dövrə

(b) vaxt

(2) Düyməli ayırıcıya basaraq, 'Şəkildəki' Pb1 çeviricisini yandırın, vaxt göstərici lampalarının hər birinin vəziyyətini yoxlayın və 'Cədvəldə' qeyd edin. 3. 'c' kontakt dövrəsi:

Pb vəziyyəti	L1	L2	L3	L4
YANILI				
SÖNÜLÜ				

(1) Relenin 'c' kontakt dövrəsi təcrübəsi üçün 'Şəkildə' olduğu kimi xətləri birləşdirin.



(a) Ardıcıl dövrə



(b) vaxt

(2) Düyməli ayırıcıya basaraq, 'Şəkildəki' Pb1 çeviricisini yandırın, vaxt göstərici lampalarının hər birinin vəziyyətini yoxlayın və 'Cədvəldə' qeyd edin.

Pb vəziyyəti	L1	L2	L3	L4
YANILI				
SÖNÜLÜ				

4. Çoxsaylı kontakt dövrəsi:

(1) Relenin çoxsaylı kontakt dövrəsi təcrübəsi üçün 'Şəkildə' olduğu kimi xətləri birləşdirin.



(2) Düyməli ayırıcıya basaraq, 'Şəkildəki' Pb1 çeviricisini yandırın, vaxt göstərici lampalarınının hər birinin vəziyyətini yoxlayın və 'Cədvəldə' qeyd edin.

Pb vəziyyəti	L1	L2	L3	L4
YANILI				
SÖNÜLÜ				

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Müxtəlif cihazlardan necə istifadə etməyi izah etdi? 2. Elektrik cihazların pin nömrəsini yoxladı?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

3. Motorun nəzarət dövrəsinin birləşdirilməsi

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Sənaye sahəsində motorun nəzarət dövrəsini necə tətbiq etməyi izah edə biləcək;
2. Motorun nəzarət dövrəsini birləşdirə biləcək.

Təcrübə materialları:
1. Ardıcıl birləşmə treyneri;
2. Naqil.

Avadanlıqlar və alətlər:
1. Cihazlar;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Motorun nəzarət dövrəsi

(1) İnduksiyalı motorun təkan dövrəsi

1, Bu dövrə təkan və ya yavaş hərəkət dövrəsi adlanır və işə salma düyməsi ilə deyil, ayrıca basılan düymə ilə işləyir. Bu o deməkdir ki, düymə basılı olduqda motor işləyir. Əməliyyat ötürmə əməliyyatı adlanır.

2, Şəkildə basılan düymədəki "b" kontaktı öz-özünü bloklamanı işə salmaq üçün hazırlanıb və "b" kontaktı öz-özünü bloklama dövrəsindən müstəqil şəkildə MC dövrəsinin cərəyan yolunu açır. Əgər "b" kontaktı istifadə olunmasa, təkan dövrəsi motor işə salınmış vəziyyətkən ikən işləməyəcək. Həmçinin motorun işinə fasilə verilibsə, təkan kontaktı basıldıqda, kontakt öz-özünü bloklayır və təkan işə düşmür. Bu işə salma yığılmış qurğunun vəziyyətlərinin: məsələn, təkanın işə salınması cədvəlindəki rəfin və ya bir hissəsinin hərəkətini ətraflı şəkildə nizamlamaq üçün uyğundur.



Şəkil 1: Təkan və ya yavaş hərəkət dövrəsi

2. Xətt üzrə işə salma dövrəsinin konfiqurasiyası

(1) Motorlar: Motor elektrik enerjisini mexaniki enerjiyə çevirərək, fırlanma gücünü əldə edən mexanizmdir. Motoru işə salmaq və idarə etmək, yükə uyğun modeli seçmək asandır, daha az səs və titrəmə, ixrac qazları meydana gətirir. O kiçik və az çəkilidir. Hazırda enerji mənbəyi kimi istifadə olunan motorların 90%-dən çoxu 3-fazalı induksiyalı motorlardır.

(2) SC motorlar: SC motor belə bir prinsipdən istifadə edir ki, əgər cərəyan maqnit sahəsinə

yerləşdirilmiş konduktora axırsa, konduktor gücü Fleminqin sol əl qaydasına uyğun olan istiqamətdə qəbul edir. Konduktor statordırsa və cərəyan statora axırsa, konduktorun hər iki tərəfindəki cərəyanların istiqaməti əks istiqamətə dəyişir. Beləliklə, fırlanma gücü tətbiq olunur və fırlanma hərəkəti meydana gəlir. Fırlanma gücü maqnit sahəsinin gücü və konduktora axan cərəyan ilə mütənasibdir.

(3) 3 fazalı induksiyalı motor: Hazırda enerji mənbəyi kimi istifadə olunan motorların 90%-dən çoxu 3-fazalı induksiyalı motorlardır. Hərəkət prinsipi ondan ibarətdir ki, 3 fazalı enerji ilə fırlanan maqnit sahəsi meydana gəlir və rotor fırlanan maqnit sahəsinin təsiri ilə fırlanır. Buna görə də, motor induksiyalı motor adlanır. İnduksiyalı motor fırlanan maqnit sahəsinin meydana gəlməsi, silindr şəkilli rotor üçün nəzərdə tutulmuş sahə maqnitindən ibarətdir. Rotorun görünüşündən asılı olaraq, qəfəsşəkilli və statorşəkilli rotor növlərinə ayrılır. Qəfəsşəkilli növü kiçik ölçüdə geniş istifadə olunur.

(4) 3 fazalı induksiyalı motorun xüsusiyyətləri.

1,Əməliyyat prinsipi: 3 fazalı enerjinin təsirilə fırlanan maqnit sahəsi meydana gəlir və rotor fırlanan maqnit sahəsinin təsiri ilə fırlanır. Buna görə də, motor induksiyalı motor adlanır. 3 fazalı induksiyalı motor diskin Araqonun fırlanmalar prinsipindən istifadə edir.

2, Quruluşu: İnduksiyalı motor fırlanan maqnit sahəsinin meydana gəlməsi və silindr şəkilli rotor üçün nəzərdə tutulmuş sahə maqnitindən ibarətdir. Rotorun görünüşündən asılı olaraq, qəfəsşəkilli və statorşəkilli rotor növlərinə ayrılır. Qəfəsşəkilli növü kiçik ölçüdə geniş istifadə olunur.

3. Stator (dolama): 3 fazalı induksiyalı motor 3 fazanın qəbul edilməsi ilə istifadə olunur. Daxili stator həmçinin üç ayrı statordan ibarətdir və maqnit qütblərini formalaşdırır.

4. Terminalın ayrılması: Ənənəvi üsul üç terminalı çölə ayırır. Hazırda 3 fazalı induksiyalı motor altı terminalı çölə ayırmaqla hazırlanır və satışa çıxarılır. Altı terminal çöldə terminalları birləşdirən Y-D qoşulmaları üçün istifadə olunur və ya 220V, 380V üçün selektiv şəkildə istifadə olunur.



Şəkil 2: Fazalı motor üçün birləşmə üsulu

(5) Tək fazalı induksiyalı motorlar: Tək fazalı induksiyalı motorun fırlanması hərəkət edən maqnit sahəsi ilə meydana gəlir, mürəkkəb işə salma və əməliyyat üsuluna görə geniş həcmdə enerji əldə etmək çətindir. Rotorun görünüşü və forması 3 fazalı induksiyalı motorla eynidir. Lakin motorun daxilində statorun iki növü konfiqurasiya olunub. Başqa sözlə, motor fırlanma gücünü meydana gətirən ilkin statordan və ilkin işə salma üçün işə salma statorundan ibarətdir. İşə salma gücünü meydana gətirmə üsulundan asılı olaraq, bir neçə növə bölünə bilər.

1. İlkin stator və işə salma statoru: İlkin stator: İlkin stator qalındır və statorların sayı azdır, buna görə də düz xətt üzrə reaktiv müqavimət komponenti yüksək olur.

2. İşə salma statoru: İşə salma statoru ilkin stator ilə müqayisədə daha nazikdir və statorların sayı çoxdur. Düz xətt müqavimət komponenti yüksəkdir.

3. Kondensatorlar: İlkin stator yüksək reaktiv müqavimət komponentinə və işə salma statoru yüksək müqavimət komponentinə malik olduğu üçün, motor iki stator arasındakı faza fərqi ilə idarə olunur. İşə salma statoruna kondensator daxil edildikdən sonra, faza fərqi artdığı üçün, işə salma xüsusiyyəti güclənmiş olur.

4. Tək fazalı hərəkət üsulu: İnduksiyalı motor çöldə dörd terminala malik olduğu üçün daxildə və ya çöldə kondensator quraşdırılmalıdır. İşə salma zamanı, iki stator paralel şəkildə elektrik mənbəyinə birləşdirilir və istifadə olunur. İşə düşdükdən sonra, işə salma statoruna ehtiyac olmadığına və yalnız enerji itkisinə səbəb olduğuna görə, işə salma statoru sentrifuqalı çevirici ilə bloklanır, yalnız ilkin statordan istifadə olunur.



Şəkil 3: Tək fazalı induksiyalı motor

(6) Tək fazalı induksiyalı motorun tam gərginlikli işə salma dövrəsi.

1. Tək fazalı induksiyalı motor yalnız statorun ilkin statoru (işçi stator) ilə işə salma burucu momentini əldə edə bilmir. Buna görə də, alternativ olaraq, tək fazalı induksiyalı motor maqnit sahəsi meydana gətirm6k məqsədilə parçalanmış fazanın işə düşməsi, kondensatorun işə düşməsi, itələyici işə salma və digər əməliyyatlarla işə salınır. Bu cür tək fazalı induksiyalı motorun işə salınma cihazı, adətən, cihazın daxilinə quraşdırılır və buna görə də işə salma üçün xüsusi manipulyasiya tələb olunur.

2. Düz xətt üzrə işə salma müvafiq gərginliyi işə salınan motorun girişinə birbaşa tətbiq etmək üsuludur və kiçik tutumlu motorlarda istifadə olunur.

3. Tək fazalı induksiyalı motorun 1-yerli əməliyyat dövrəsi ən sadə dövrədir və motorun işə düşməsini, dayanmasını göstərən lampalardan, elektromaqnit çeviricidən ibarətdir. Adətən, ardıcıl birləşdirilmiş nəzarət dövrəsini çəkərkən, ilkin dövrə və köməkçi dövrə (nəzarət dövrəsi) çəkilir, lakin bir çox hallarda yalnız nəzarət dövrəsi çəkilir.



Şəkil 4: İşə salma dövrəsinin sxemi

• R: Hərəkətə gətirmə statoru, S: İşə salma statoru, C: İşə salma kondensatoru

(7) Əməliyyatın təsviri:

1. Əvvəlcə nəzarət dövrəsinin ayırıcısının ABDA-nı (avtomatik blok dövrə ayırıcısı) daxil edin.

2. Bu zaman GL dayanma lampası MC-b kontaktı vasitəsilə yanır.

3. PBS1-a basıldıqda, MC maqnitləşir, MC-nin əsas MC-c kontaktı qoşulur və motor hərəkətə düşür. Eyni zamanda, MC-nin MC-a köməkçi kontaktı qoşulur, müstəqil dövrə formalaşır və RL əməliyyat lampası yanır.

4. Hərəkəti dayandırmaq üçün PB2B-b basılır, MC maqnitsizləşir, MC-a əsas kontaktı ayrılır və beləliklə, motor dayanır. MC-b kontaktı qoşulur və GL yanır.

5. Normal hərəkət vəziyyətində həddən artıq yüklənmə meydana gəlsə, THR işə düşür, yəni, THR-b kontaktı ayrılır, MC maqnitsizləşir. Buna görə də, motor dayanır, RL sönür və OL xəbərdarlıq lampası yanır.

(8) 3 fazalı induksiyalı motorun düz xətt üzrə işə salınması:

1. 3 fazalı induksiyalı motor əvvəlcə fırlanan maqnit sahəsini meydana gətirir. Buna görə də, rotor maqnit sahəsinin fırlanma istiqamətində fırlanır. Beləliklə, 3 fazalı induksiyalı motor xüsusi manipulyasiya olmadan, birbaşa işə salına bilər. Lakin yüksək tutumlu qəfəsşəkilli induksiyalı motora əvvəlcə nominal gərginlik tətbiq olunubsa, işə düşmə cərəyanı tam yüklü cərəyandan 4-6 dəfə yüksək olur. Buna görə də, gərginlik aşağı düşür və işə düşmə əməliyyatı rahat baş vermir. Bunun motora və digər hissələrə xoşagəlməz təsiri ola bilər. Bu problemi aradan qaldırmaq üçün, yüklənmə vəziyyətindən asılı olaraq, kiçik işə salma cərəyanının axdığı, işə salma burucu anının yüksək olduğu xüsusi qəfəsşəkilli induksiyalı motordan və ya düz xətt üzrə işə salma, reaktorun işə düşməsi, rezistorun işə düşməsi, işə düşmə kompensatoru, □Y işə düşmə üsulundan istifadə olunur.

2. 3 fazalı induksiya motoru düz xətt üzrə işə salınırsa, işə salma cərəyanı nominal cərəyandan 4-6 dəfə yüksək olur. Bu halda işə düşmə çox vaxt alır və ya işə düşmə müntəzəm yerinə yetirilməli olur. Motorun daxili statoru işə salma cərəyanının təsiri ilə həddən artıq qıza bilər. Buna görə də, bu üsul, əsasən, 3.7 kv və ya daha aşağı (11 kv və ya daha aşağı tutumlu xüsusi qəfəsşəkilli induksiya

motorlarında) tutuma malik kiçik motorlarda istifadə olunur.



Şəkil 5: 3 fazalı induksiyalı motor

(9) Əməliyyatın təsviri:

1. Elektrik enerjisi tətbiq olunduqda, GL elektrik lampası yanır.

2. BS1 basıldıqda, MC elektromaqnit kontaktoru maqnitləşir və MC-a əsas kontaktı qoşulur. Motor fırlanmağa başlayır, köməkçi MC-a kontaktı qoşulur və RL əməliyyat lampası yanır. Müstəqil dövrə formalaşır, köməkçi MC-b kontaktı ayrılır və GL lampası sönür.

3. Normal əməliyyat zamanı BS2 basıldıqda, MC statoru maqnitsizləşir, motor dayanır və bütün hissələr başlanğıc vəziyyətə qayıdır.

4. Əgər normal əməliyyat zamanı həddən artıq yük meydana gəlirsə, THR-b kontaktı ayrılır. Buna görə də, MC-yə elektrik ötürülmür və motor dayanır.

(10) 3 fazalı induksiyalı motorun 2-hissəli hərəkət dövrəsi: 2-hissəli işə salma nəzarət dövrəsi nəzarət olunan hissə dayandıqda və ya ardıcıl birləşdirilmiş nəzarət dövrəsinin konfiqurasiya olunduğu sahədən kənarda işə salındıqda istifadə olunur. Hər hansı düyməli işə salma çeviricisi elektrik qəbul etdikdə, işə düşmək üçün uzaqdan düyməli işə salma ayırıcısı, daxili düyməli işə salma ayırıcısına paralel qoşulur. Bundan əlavə, elektrik girişindən biri qəbul edildikdə və daxili düyməli dayanma ayırıcısına ardıcıl birləşdikdə, düyməli dayanma ayırıcısı motoru dayandırmalıdır.



Şəkil 6: 3-fazalı induksiyalı motorun 2-hissəli işə salma əməliyyatının dövrəsi

(11) Əməliyyatın təsviri:

1. PBS1 və PBS2 paralel istifadə olunduqda, motor iki yerdə işə salınır.
2. PBS3 və PBS4 ardıcıl istifadə olunduqda, motor iki yerdə dayanır.

2. Prosedur

(1) İşə hazırlıq:

1. Verilmiş çertyoju yoxlayın.
2. Verilən materialların çertyoja uyğun verilib-verilmədiyini yoxlayın.
3. Dövrə testeri ilə materialların hər hissəsinin (a-kontakt, b-kontakt, stator və s.) qısa dövrəsini və s. yoxlayın.

(2) Hissələrin quraşdırılması:

1. Hissələri çertyojdakı yerinə uyğun düzün.
2. Əriyən qoruyucularını, ABDA-nı və s. quraşdırarkən, elektrik hissəsi ilə yüklü hissəsi arasında məsafə saxlayın.
3. Hissənin quraşdırılacağı yeri işarələyin.
4. İşarələnmiş yerlərə hissələri bərkidin, hissələrin üfüqi, şaquli vəziyyətlər və qaydalarla uyğun bərkidildiyini yoxlayın.

(3) Nəzarət panelində aparatların quraşdırılması:

1. Daxili lövhəni və qapı lövhəsini nəzarət qutusundan ayırın.
2. Daxili lövhənin və qapı lövhəsinin aparatlarını düzmə sxemində göstərilən şəkildə düzün.
3. Nəzarət lövhəsinə aparatların bərkidilməsi üçün deşik açmaq və deşiyin yonulacaq yerlərini qeyd edin.

(4) Naqillərin çəkilməsi:

1. Hissələrin düzülmə yerlərinə uyğun olaraq naqillərin çəkiləcəyi sahələri qeyd edin.
2. Naqillərin çəkiləcəyi yerləri çertyojda qeyd edərkən, nəzarət dövrəsinin hər birləşmə xəttinə təsadüfi şəkildə xüsusi nömrə təyin edin.
3. Terminalı düyməli ayırıcıya, elektromaqnit kontaktora və s. qoşarkən, birləşmə tamamilə elektrik və mexaniki olmalıdır.

(5) Dövrə ayırıcısı ilə əməliyyatın yoxlanması:

1. Dövrə ayırıcısı ilə tamamlanmış dövrənin çertyoja uyğun olub-olmadığını yoxlayın.
2. Xətt nömrələrinin düzgün olub-olmadığını yoxlayın.
3. Xətlərin qoşulma vəziyyətini təcrübədən keçirin.

(6) Elektrik gərginliyi ilə əməliyyatın yoxlanması:

1. Elektrik gərginliyini yoxlayın və elektrik mənbəyinə qoşun.
2. Düyməni yandırıb-söndürməklə dövrənin fəaliyyətini yoxlayın.
3. Göstərici lampanın yanma vəziyyətini yoxlayın.

(7) Alətləri təmizləyin və səliqəyə salın.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. Motorun nəzarət dövrəsi ilə təcrübə.

(1) Məqsəd: Motorun dövrəsinin təkan dövrəsinin funksiyasını başa düşün və ondan necə istifadə etməyi öyrənin.

(2) Ardıcıl dövrə:



(3) Birləşmə üsulu: Dövrələri ardıcıl dövrəyə istinadla birləşdirin.

(4) Təcrübə nəticəsi.

1. Bir daha ELB-ni yoxlayın və EBL-ni yandırın. Nə baş verdi?
2. ST çeviricisinə basın və sonra buraxın. Nə baş verdi?
3. STP çeviricisinə basın və buraxın. Nə baş verdi?
4. Təkan çevirisinə basın və buraxın. Nə baş verdi?
5. Motor işə salınmış vəziyyətdə ikən ST çeviricisinə və 5 saniyə ərzində Təkan çeviricisinə basın. Avtomobildə nə baş verdi?
6. Motoru işə salmaq üçün ST çevirisinə bir daha basın və İCR-ın TEST/RESET (YOXLA/TƏKRAR NİZAMLA) düyməsinə basaraq, EHYR-nı hərəkətə gətirin. Nə baş verir?
7. İndi isə BZ-STRP çeviricisinə basın. Nə baş verir?
8. Yuxarıdakı vəziyyətdə EHYR-nı əvvəlki vəziyyətinə qaytarmaq üçün TEST/RESET (YOXLA/TƏKRAR NİZAMLA) düyməsinə basın. Nə baş verir?

(2) 1 fazalı induksiyalı motorun tam gərginlikli işə salma dövrəsinin sadə əməliyyatını konfiqurasiya edin və naqillərin çəkilməsini təsvir edin.



2. 3 fazalı induksiyalı motorun tam gərginlikli işə salma dövrəsinin sadə əməliyyatını konfiqurasiya edin və naqillərin çəkilməsini təsvir edin.



Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Sənaye sahəsində motorun nəzarət dövrəsini necə tətbiq etməyi izah etdi? 2. Cihazları quraşdırdı? 3. Naqilləri çəkdi? 4. Dövrəni yoxladı? 5. Motoru birləşdirdi? 6. Hərəkəti yoxladı? 7. Təmir/texniki təchizatı yoxladı?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

4. Düz İstiqamətli/Əks İstiqamətli Dövrədə Hərəkət

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Motorun düz/əks istiqamətli hərəkətinin təmin olunmasını izah edə biləcək;
2. Düz/Əks Dövrənin xüsusiyyətlərini və əməliyyat prinsiplərini izah edə biləcək.

Təcrübə materialları:
1. Elektrik naqili;
2. Cihazların bazası.

Avadanlıqlar və alətlər:
1. Ardıcıl birləşmə treyneri;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Motorun irəli/geri hərəkətinin prinsipləri:

(1) İnduksiyalı motorda düz istiqamətli və əks istiqamətli dövrə:

Təkrarlanan hərəkətə əsaslanan lift, qatar və ya əngəc kimi qurğular induksiyalı motor üçün əsasən düz istiqamətli və əks istiqamətli işə düşmə nəzarətindən istifadə edir.

1. 3 fazalı induksiyalı motorda düz istiqamətli və əks istiqamətli aktivasiya. 3 fazalı induksiyalı motorun sağ istiqamətdən əks istiqamətə hərəkətini təmin etmək üçün, əvvəlcə motoru dayandırın, motora təchiz olunmuş 3 xətdən ikisinə çevirin və elektrik verməyə davam edin. Bundan sonra motor əks istiqamətdə fırlanacaq. Şəkildə motora təchiz edilmiş gərginliyi çevirmək üçün, iki elektron kontaktordan istifadə edən dövrə təsvir olunub. Şəkildə MCF sağ istiqamətdə hərəkət üçün olan elektron kontaktordur və MCR çevrilmiş işə düşməyə görədir. MCF elektron kontaktoru aktiv olduqda, düz istiqamətdə fırlanma üçün R fazası U terminalı ilə, S fazası V terminalı ilə və T fazası isə W terminalı ilə birləşir. Əksinə, MCR elektron kontaktoru aktiv olduqda, əks istiqamətdə fırlanma üçün isə R fazası W terminalı ilə, S fazası V terminalı ilə və T fazası isə U terminalı ilə birləşir.

2. Əgər nəzarət dövrəsində MCF və MCR eyni zamanda aktivləşirsə, əsas dövrə ayrılmış olur. Buna görə də, iki çeviricini həmişə bir-birinə kilidləyin ki, onlar heç zaman eyni vaxtda aktivləşməsin. Motorun həddən artıq yüklənməsi nöqteyi-nəzərindən düz istiqamət və əks istiqamət şərtləri eynidir. Motorun qarşısında quraşdırılmış bir EHCR motorun həddən artıq yükləndiyini müəyyən etmək üçün kifayətdir.



Şəkil 1: Motorun həddən artıq yüklənməsi

3. Sxemin (a) şəklində, düz istiqamətli əməliyyatı əks istiqamətli əməliyyata çevirmək üçün, motor əvvəlcə çevrilmiş əməliyyat çeviricisini sıxmazdan əvvəl STP çeviricisini sıxmaqla dayandırılmalıdır. Şəkildəkinin əksinə olaraq, ST çeviricisi (1a 1b) STP çeviricisini sıxmadan qurğunun əks istiqamətdə hərəkətini təmin etmək üçün istifadə oluna bilər.

(2) Bir fazalı induksiyalı motorda düz istiqamətli və əks istiqamətli hərəkət:

1. Tək fazalı induksiyalı motorun parçalanmış faza və kondensator işə düşməsi halında əsas statora toxunmadan, aktivləşdirilmiş statora təsir edən qütbləri dəyişməklə, motorun əksinə fırlanmasını təmin edə bilərik.



Şəkil 2: Motor əksinə fırlanır

2. Düz istiqamətli/əks istiqamətli motor dövrəsinin elektrik naqillərinin sxemi

(1) Dövrə sxemi. Motorun düz istiqamətli/əks istiqamətli dövrəsi:



Şəkil 3: Dövrə sxemi

(2) Məlumat:

1. 3 fazalı induksiyalı motorun düz istiqamətli/əks istiqamətli hərəkəti 3 R S T naqili arasında ikisinin yerini dəyişməklə əldə edilir.

2. Bloklama dövrəsi 2 dövrədən birinin işləməsini təmin edən, ortaq istifadə olunan tamamlayıcı cihazıdır.

3. Hədd çeviricisi hərəkət vaxtı əvvəlcədən müəyyən olunmuş mövqedə fəaliyyət göstərir. O, növbəti mövqeyi mexaniki olaraq müəyyən etmək üçün istifadə edilir.

3. Prosedur:

(1) İşə hazırlıq:

1. Verilmiş çertyoju yoxlayın.
2. Çertyoja əsasən təqdim olunan materialları yoxlayın.
3. Materialda hər nöqtənin (a kontaktı, b kontaktı, stator, və s.) naqilini yoxlayın.

(2) Hissələri bərkidin:

1. Hissələri çertyojda təsvir olunduğu kimi yerləşdirin.
2. Əriyən Qoruyucu, ABDA, KS müəyyən edilmiş mənbə ilə və yük altında bərkidilməlidir.
3. Hissələrin bərkidiləcəyi yerləri işarələyin.
4. Hissəni işarələnmiş yerə yerləşdirin və üfüqi/şaquli yerləşməsini yoxlayın.

(3) Naqillərin çəkilməsi:

1. Hissələrin görünüşünə uyğun olaraq təcrübi naqil sxemini çəkin.
2. Çertyojda nəzarət dövrəsinin hər bir naqilinə əvvəlcədən təyin olunmuş nömrələri təyin edin.
3. Düymə ayırıcısı, maqnit kontaktor ilə birləşmə elektrik və mexaniki cəhətdən mükəmməl olmalıdır.

(4) Dövrədə naqilin çəkilməsi:

1. Əsas dövrənin və nəzarət dövrəsinin naqillərinin rəngini və ölçüsünü fərqləndirin. (Əsas dövrə 2.0 mm ölçülü tək naqildən, nəzarət dövrəsi 1.6 mm ölçülü tək naqildən istifadə edir)
2. Torpaqlama yaşıl naqildir, naqilləri mənbədən yükə istiqamətdə çəkin.

(5) Yoxlama:

1. Dövrə testerindən istifadə etməklə, dövrənin çertyoja uyğun olub-olmadığını yoxlayın.
2. Naqil nömrələrinin düzgün olub-olmadığını yoxlayın.

(6) Təlimçinin qiymətləndirməsi:

1. Gərginliyi və elektrik mənbəyinə qoşulmanı yoxlayın.
2. Düyməni basın və dövrənin fəaliyyətini yoxlayın.
3. Göstərici işığın vəziyyətini yoxlayın.
4. Naqilləri yoxlayın.

(7) Alətləri təmizləyin və səliqəyə salın.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. İnduksiyalı motorda düz istiqamətli və əks istiqamətli dövrə ilə təcrübə

(1) Məqsəd: İnduksiya motorunda düz istiqamətli və əks istiqamətli dövrənin funksiyasını başa düşmək və ondan istifadəni öyrənmək.

(2) Ardıcıl dövrə:



(3) Qoşulma üsulu: Ardıcıl dövrəyə istinad edərək dövrələri birləşdirin.

(4) Praktikanın nəticəsi:

1. Dövrəni bir daha yoxlayın və ELB düyməsini sıxın. Nəticə necə oldu?
2. F-ST düyməsinə basın. Motor hansı istiqamətdə fırlanır?
3. STP çeviricisinə basmaqla motoru dayandırın.
4. R-ST çeviricisinə basın. Motor əks istiqamətdə fırlanır?

2. 3 fazalı induksiyalı motorunun düz istiqamətli/əks istiqamətli əməliyyat dövrəsinin sadə fəaliyyət mexanizmi. Naqillərin çəkilməsini konfiqurasiya edin və təsvir edin.

(1) Dövrə sxemi:



Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Motorun düz/əks istiqamətli hərəkətinin təmin olunmasını izah etdi? 2. Cihazları bərkitdi? 3. Naqilləri çəkdi? 4. Dövrəni yoxladı? 5. Motoru qoşdu? 6. Hərəkət istiqamətini təcrübədən keçirdi? 7. Təmir/texniki təchizat işlərini yerinə yetirdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

5. Motorun nəzarət dövrəsinin birləşdirilməsi

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Ardıcıl sistemi izah edə biləcək;
2. Liftə nəzarət sistemi hazırlaya biləcək.

Təcrübə materialları:
1. Elektrik naqili;
2. Cihazlar.

Avadanlıqlar və alətlər:
1. Ardıcıl birləşmə treyneri;
2. Yük .

Mövzu ilə əlaqəli biliklər

1. Liftə nəzarət sistemi

(1) Liftin əməliyyat dövrəsi: Böyük restoranlarda və iş yerlərində tez-tez rast gəlinən qaldırıcı liftdir. Yük altlığını qaldırmağa və ya aşağı salmağa xidmət edən mexaniki qurğudur. Həddi ayırıcının düz və əks istiqamətli dövrəsində və motorlarda tətbiq olunur.



Şəkil 1: Liftin əməliyyat dövrəsi

(2) Tələblər: Düyməli ayırıcı (PB-on) sıxıldıqda, elektrik motoru düz istiqamətdə fırlanır və lift ikinci mərtəbəyə qalxır. İkinci mərtəbəyə çatdıqda, elektrik motoru həddi ayırıcı tərəfindən dayandırılır və lift müəyyən vaxt orada qalır. Müəyyən olunmuş vaxtdan sonra motor əks istiqamətdə fırlanır və birinci mərtəbəyə enir. Birinci mərtəbəyə çatdıqda, həddi ayırıcı motoru dayandırır və lift dayanır.

(3) Ardıcıl sxem və Vaxt cədvəli:



Şəkil 2: Ardıcıl sxem



Şəkil 3: Vaxt Cədvəli

(4) Əməliyyatın təsviri. 1-ci mərtəbə → 2-ci mərtəbə (qalxır)



Şəkil 4: Ardıcıl Sxem

1. Elektrik təchiz edin (ABDA-nı qaldırın).
2. Başlamaq üçün işə salma (PB-on) düyməli ayırıcısını sıxın.
3. Cərəyan (MC-F) fırlanmada xüsusi istifadə üçün maqnit kontaktoruna axır və MC-F çeviricisinin fəaliyyət göstərməsi üçün stator hərəkətə keçir.
4. Cərəyan düz (qalxan) göstərici lampadan axır və yaşıl işıq (GL) yanır. (Aşağıdakı proses eyni vaxtda baş verir).

5. Əsas dövrənin MC-F nöqtəsi qapanır → Cərəyan motora axır, motor düz istiqamətdə fırlanır və lift birinci mərtəbədən ikinci mərtəbəyə qalxır.
6. Özü-özünü bloklayan MC-F çeviricisinin a kontaktı qapanır və özü-özünü bloklayır.
7. Bir-birini kilidləyən MC-F çeviricisinin b kontaktı açılır və bir-birini bloklayır.
(8 (PB-on) düyməli işə salma ayırıcısı buraxıldıqda belə MC-F fəaliyyətinə davam edir.

(5) İki mərhələli dayanma: Lift yuxarı qalxdıqda və ikinci mərtəbənin yuxarı hissəsində quraşdırılmış həddi ayırıcıya toxunduqda, elektrik motoru dayanır, lift ikinci mərtəbədə dayanır.



Dayanma

Şəkil 5: Ardıcıl sxem

1. Liftə birləşdirilmiş sıxac ikinci mərtəbənin LS2 həddi ayırıcısına toxunduqda, LS2-nin b kontaktı açılır və a kontaktı qapanır.
2. LS2-nin b kontaktı açıldıqda, cərəyan MC-F-ə axmır, stator qırılır və MC-F geri qayıdır.
3. Cərəyan qalxan göstərici dövrəsində axmadığı üçün yaşıl işıq (GL) sönür (Aşağıdakı proses eyni vaxtda baş verir).
4. Əsas dövrənin MC-F ilkin nöqtəsi açılır. → Motora cərəyan axmır, beləliklə motor dayanır və lift ikinci mərtəbədə dayanır.
5. Özü-özünü bloklayan MC-F dövrəsinin a kontaktı açılır və özü-özünü bloklama buraxılır.
6. Bir-birini bloklayan MC-F dövrəsinin b kontaktı bağlanır və bloklama işə salınır.
7. LS2-nin a kontaktı qapandıqda, cərəyan taymerə axır və taymer işə düşür.

(6) 2-ci mərtəbə → 1-ci mərtəbə (enir) Taymerlə müəyyən olunan vaxt keçdikdə,motor əks istiqamətdə hərəkətə keçir və lift birinci mərtəbəyə düşür. Bu vaxt, həddi ayırıcı LS2 ayrılır.



Şəkil 6: Ardıcıl sxem

1. Taymerlə (T) müəyyən olunan vaxt keçdikdən sonra, əməliyyat dayanır.
2. Taymerin (T) birdəfəlik "a" kontaktı bağlandıqda, cərəyan əks maqnit kontaktoruna (MC-R) axır və stator MC-R çeviricisini işə salmaq üçün hərəkətə keçir.
3. Əks işıq (RL) cərəyanın əks (eniş) indikator dövrəsinə axması ilə yanır (Aşağıdakı proses eyni vaxtda baş verir).
4. Əsas dövrənin MC-F nöqtəsi qapanır. → Cərəyan motora axır, motor əks istiqamətdə fırlanır və lift birinci mərtəbəyə düşür.
5. Özü-özünü bloklayan MC-R dövrəsinin a kontaktı bağlanır və özü-özünü bloklayır.
6. Bir-birini bloklayan MC-R dövrəsinin b kontaktı açılır və bir-birini kilidləmə buraxılır.
7. Lift birinci mərtəbəyə düşdükdə, LS2 həddi ayırıcısının kontaktları geri qayıdır.
8. LS2-nin "a" kontaktı geri qayıtdıqda (açıldıqda), taymer statorundan heç bir cərəyan keçmir və taymer sönür.
9. Taymer (T) sönülü olduqda, taymer bağlı olduqda kontakt (a) yenidən başladılır.

(7) Birinci mərtəbədə dayanma: Lift endikdə və birinci mərtəbənin aşağı hissəsində quraşdırılmış LS1 həddi ayırıcısına toxunduqda, elektrik motor dayanır, lift birinci mərtəbədə durur.



Şəkil 7: Ardıcıl sxem

1. Liftə birləşdirilmiş sıxac birinci mərtəbənin LS1 həddi ayırıcısına toxunduqda, LS1-in “b” kontaktı açılır.
2. LS1-in “b” kontaktı açıldıqda, cərəyan MC-R-a axmır, stator qırılır və MC-R geri qayıdır.
3. Qırmızı işıq (RL) cərəyanın əks (eniş) indikator dövrəsinə axmaması səbəbilə sönür (Aşağıdakı proses eyni vaxtda baş verir).
4. Əsas dövrənin MC-R nöqtəsi açılır. → Cərəyan motora axmır, beləliklə, motor dayanır və lift birinci mərtəbədə durur.
5. Özü-özünü bloklayan MC-R dövrəsinin “a” kontaktı açılır və özü-özünü bloklama işə düşür.
6. Bir-birini bloklayan MC-R dövrəsinin “b” kontaktı qapanır və bir-birini bloklama işə düşür.
7. Dövrədən cərəyan keçmir, beləliklə, bütün dövrələr ilkin vəziyyətinə qayıdır.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. Liftin hərəkət dövrəsinin konfiqurasiyası.

(1) Lift (bölmə ötürücü qurğu).



(2) İşə hazırlıq.

(3) İşləmə şərtlərini təhlil edin (Verilən işin məzmununa əsasən şərtləri və onların ardıcıllığını müəyyən edin).

1. Lift obyektləri birinci mərtəbədən ikinci mərtəbəyə və ya ikinci mərtəbədən birinci mərtəbəyə ötürən bölmə ötürücü qurğudur.

2. 2-ci mərtəbədə ayırıcını sıxın, lift yuxarı qalxacaq və 2-ci mərtəbədə dayanacaq. Aşağıya enmək üçün 1-ci mərtəbə ayırıcısını sıxın və 1-ci mərtəbədə dayanın.

3. Qeyd: bölmə ötürücü qurğunun təhlükəsizlik səbəbilə insan tərəfindən daşınması mümkün olmadığı üçün, işçi lazımi mərtəbəyə qalxır. Bu qurğu zəncirə nəzarət qurğusudur.

(4) Giriş/çıxışı (G/Ç) yerləşdirin.



Giriş			Çıxış		
Ünvan	Dəy-işənin adı	Quruluşu	Ünvan	Dəy-işənin adı	Quruluşu
%IX0.0.0	PB1	1-ci mərtəbə çevir-icisi	%QX0.1.0	MC1	Motor düz istiqamət-də fırlanır
%IX0.0.1	PB2	2-ci mərtəbə çevir-icisi	%QX0.1.0	MC2	Motor əks istiqamət-də fırlanır
%IX0.0.2	LS1	1-ci mərtəbə həd sensoru	%QX0.1.2		
%IX0.0.3	LS2	1-ci mərtəbə dayan-ma sensoru	%QX0.1.3		
%IX0.0.4	LS3	2-ci mərtəbə dayan-ma sensoru	%QX0.1.4		
%IX0.0.5	LS4	2-ci mərtəbə həd sensoru	%QX0.1.5		
%IX0.0.6	TH	Həddən artıq yüklən-mə relesi	%QX0.1.6		
%IX0.0.7			%QX0.1.7		

(5) Ardıcıl nəzarət simvolundan istifadə etməklə, giriş naqil sxemini tərtib edin və naqilləri çəkin.



(6) Ardıcıl nəzarət simvolundan istifadə etməklə çıxış naqil sxemini tərtib edin və naqilləri çəkin.



(7) Ardıcıl nəzarət simvolundan istifadə etməklə, enerji sxemini tərtib edin və naqilləri çəkin.



(8) 'Giriş/Çıxış' və 'Avto' dəyişənlərinə düzəliş edin.

1. 'Giriş/Çıxış' və 'Avto' dəyişənlərinə düzəliş edin:

	Dəy-işənin adı	Verilənin növü	Yaddaş yerləşməsi	**İlkin qiymət**	Dəy-işənin tipi	Dəy-işənin tipi	İçindəkilər
1	LS1	BOOL	%IX0.0.2		VAR	*	1-ci mərtəbə həd sensoru
2	LS1	BOOL	%IX0.0.3		VAR	*	1-ci mərtəbə dayanma sensoru
3	LS1	BOOL	%IX0.0.4		VAR	*	2-ci mərtəbə dayanma sensoru
4	LS1	BOOL	%IX0.0.5		VAR	*	2-ci mərtəbə həd sensoru
5	MC1	BOOL	%QX0.1.0		VAR	*	Motorun irəli fırlan-ması
6	MC2	BOOL	%QX0.1.1		VAR	*	Motorun əksinə fırlan-ması
7	PB1	BOOL	%IX0.0.0		VAR	*	1-ci mərtəbə çeviricisi
8	PB2	BOOL	%IX0.0.1		VAR	*	2-ci mərtəbə çeviricisi
9	TH	BOOL	%IX0.0.6		VAR	*	Həddən artıq yüklən-mə relesi

2. Proqramı yazın və ona düzəliş edin.



(9) Düzəliş edilmiş proqram üçün icra faylı yaradın, onu PLC-də icra edin və proqrama nəzarət edin (Əgər proqramın kompilyasiyası və əlaqələndirilməsi zamanı xəta meydana gəlsə, onu aradan qaldırmaq, təkrar kompilyasiya etmək, əlaqələndirmək üçün 'Nəticə Pəncərəsində' (Result Window) 'Xəta/Xəbərdarlıq' (Error/Warning) mesajlarına istinad edin).

(10) Materialları təmizləyin və səliqə ilə düzün.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Ardıcıl sistemi izah etdi? 2. Təmir işlərini icra etdi? 3. Cihazları bərkitdi? 4. Naqilləri çəkdi? 5. Dövrəni diqqətlə yoxladı? 6. Motoru qoşdu? 7. Hərəkəti sınaqdan keçirdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

6. Lövhənin dəzgah nəzarət sisteminin qurulması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Ardıcıl birləşmiş sistemi izah edə biləcək;
2. Dəzgahın idarə sistemini biləcək.

Təcrübə materialları:
1. Elektrik naqili;
2. Cihazlar.

Avadanlıqlar və alətlər:
1. Ardıcıl birləşmə treyneri;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Dəzgah nəzarət sistemi

(1) Y-D işə düşmə üsulları arasında avtomatik taymerlə avtomatik Y-D işə salma üsulu geniş istifadə olunur. Motor Y qoşulma ilə işə salınır və t saniyədən sonra, avtomatik olaraq D-qoşulma ilə idarə olunur. Əməliyyatın blok sxemi aşağıdakı kimidir:



Şəkil 1: Blok sxem

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. Y-D işə salma və Fırlanma istiqamətini dəyişən dövrələrinə naqillərin çəkilməsi (ehtiyac olduqda, dəzgahdan istifadə edin)ə

(1) Fəaliyyətin məqsədləri: Şagird bu modulu tamamladıqdan sonra:

1. Y-D işə salma mexanizminə naqil çəkilməsi üsulunu izah edə biləcək və fırlanma istiqamətini dəyişə biləcək;
2. 4 maqnit çevirici və taymerlə Y-D işə salma sisteminə naqil çəkə biləcək və dövrənin fırlanma istiqamətini dəyişə biləcək;
3. İrəli və əks istiqamətli hərəkəti başa düşəcək;

(2) Materiallar;

1. Maqnit kontaktor (220V 5a2b15A);
2. PB çeviricisi (220V 1a1b);
3. Lampa (250V);
4. Terminal blok (250V20T);
5. Taymer və baza (220V,8pin10sec);
6. Naqillər, (1.25 mm^2, 1.5 mm^2);
7. Dövrə ayırıcısı (300V 20A);
8. THR (220V 15A);

(3) Avadanlıq və alətlər;

1. Kəsici kəlbətin;
2. Maqqaş;
3. İtiağız kəlbətin;
4. Dövrə testeri;
5. Ötürücü mexanizm (+,-);
6. Üç faza;
7. İnduksiyalı motor.

(4) Diaqramla tanış olun:

1. Əsas və köməkçi dövrələrin kontaktının fəaliyyəti ilə tanış olun.
2. İrəli və geri istiqamətli əməliyyatın əsas dövrəsi, köməkçi dövrənin yerli dövrəsi və Y-D dövrəsi ilə əlaqəli yerli köməkçi dövrə ilə tanış olun.
3. Ani və bloklama dövrələrinin kontaktları arasındakı sıx əlaqəni başa düşün.

(5) Əməliyyat:

1. PB1 söndürülübsə, MC1 fəaliyyətdədir, motor Y qoşulma ilə işə düşüb və GL yanır (irəli

istiqamətdə fırlanma). (Şəkil) Əsas dövrə:



2. PB2 söndürülübsə, MC2 fəaliyyətdədir və motor MC4 çevricisinin təsirilə Y qoşulma ilə işə salınır (əks istiqamətdə fırlanma). (Şəkil) Köməkçi dövrə:



3. Əgər MC1 və ya MC2 işləyirsə, MC3 tamyerin b-kontaktının təsirilə fəaliyyətdə olur, motor Y qoşulma ilə işə salınır və taymerin statoru da yüklənmiş olur. (Şəkil) Düzülüş sxemi:



4. Taymerdə müəyyən olunmuş vaxtdan sonra MC3 taymerin kontaktının təsiri ilə sönür, motor MC4 çeviricisinin təsirilə D qoşulma ilə işə salınır, RL lampası yanır və GL lampası sönür. (Şəkil)
Yoxlama:



2. Dəzgahın elektrik dövrəsi

(1) Dövrə sxemi:







(2) Məlumat:

1. Elektrik təchizatı: Üç fazalı sistem (220V).
2. Fəaliyyət üzrə məlumat.
3. P.C.S aşağı və yüksək vəziyyət → S1 yanılıdır → AR işləyir → LS1, LS2 üçün sağ/sol.
4. P.C.S I→ Motor D-birləşməsi və 8 qütblə işləyir.
5. P.C.SII→ Motor ikiqat Y-qoşulma və 4 qütblə işləyir.
6. S2 ayırıcısı yanılıdır/sönülüdür → Motor işə salınır/dayanır.
7. d.F.S (Ayaq çeviricisi) → Motor dayanır.
8. Ardıcıl birləşmə sxemi yuxarıda aşağıya və ya soldan sağa çəkilməlidir.
9. Siz MC1, MC2, PL, AR çeviricilərindən və əsas dövrə xəttindən çıxan naqillərin rəngini fərqləndirməlisiniz.
10. Taxta disk və ya nəzarət lövhəsindən istifadə edin.

(3) Tapşırıqlar:

1. Vaxt cədvəlini çəkin.
2. Naqillərin çəkilmə sxemini çəkin.
3. Naqillər açıq, düz və hava borusu ilə birlikdə çəkilməlidir və yüklü halda torpaqlanmalıdır.
4. Əsas və nəzarət dövrələrinin rəngini və görünüşünü fərqləndirin.
5. Detalın ölçüsünə uyğun sahədən istifadə edin.

(7) Prosedur:

1. Təqdim olunmuş sxematik dövrə sxemini oxuyun və başa düşün.
• Materialları materiallar bölməsində qeyd olunan ardıcıllıqla düzün.
• Təcrübə dövrəsinin sxemində göstərilən dövrəni qurun.
• Elektrik kabelini çeviricinin olduğu qəbulediciyə birləşdirin.
• PB1 düyməsinə basın. Nə baş verir?
• F.S. düyməsinə basın. MC1 və MC2 işləməyə davam edir?
• Th düyməsini dartın. MC1/MC2/AR işləməyə davam edir?
2. Sxematik dövrə sxemində göstərilən müvafiq alətləri və materialları hazırlayın.
• MC1, MC2, Thr, AR və düymə çeviricisinin kontakt funksiyasını testerlə yoxlayın.
• Müvafiq alətləri hazırlayın.
3. Alətlərə qoşulma:
• Alətləri çəkərkən ölçüsünə uyğun yerləşdirin.
• Alətlərin üfüqi və şaquli yerləşməsini yoxlayın.
4. Dövrəyə naqillərin çəkilməsi:
• Əsas dövrə ilə nəzarət dövrəsinin rəngini və ölçüsünü fərqləndirin (əsas dövrə 2.0 mm ölçülü

tək naqildən, nəzarət dövrəsi 1.6 mm ölçülü tək naqildən istifadə edir).

• Torpaqlama yaşıl naqildir, naqil mənbədən yükə istiqamətdə çəkilir.

5. Elektrik təchizatının əməli yoxlanması:

• Nəzarət dövrəsini və əsas dövrəni yoxlayın.

• Terminalla boltun bərkidilmə vəziyyətini yoxlayın.

• Motorun düzgün nisbətdə cərəyan qiymətindən istifadə edərək, həddən artıq cərəyan relesinin qiymətini nizamlayın

• P.C.S.-dən istifadə edərək, motor üçün çevrilmiş sürəti başa düşün.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Ardıcıl birləşmiş sistemi izah etdi? 2. Təmir/texniki təchizatı icra etdi? 3. Cihazları bərkitdi? 4. Naqilləri çəkdi? 5. Dövrəni yoxladı? 6. Motoru qoşdu? 7. Hərəkəti sınaqdan keçirdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

7. Avto Y-D işə salma sisteminin qurulması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Ardıcıl sistemi izah edə biləcək;
2. Avto Y-D sistemini qura biləcək.

Təcrübə materialları:
1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. Ardıcıl treyner;
2. Motor.

Mövzu ilə əlaqəli biliklər

1. Y-D nəzəri bilikləri

(1) 3 fazalı induksiyalı motorun Y-D işə düşmə üsulu. Zavodlarda geniş istifadə olunan3-fazalı induksiyalı motorların tam gərginlikli işə düşmə üsulu, nominal cərəyandan 4-6 dəfə daha yüksək işə salma cərəyanı meydana gətirir. Buna görə də, sistemdəki gərginliyin aşağı düşməsi ilə digər cihazlara böyük təsir göstərir. 10-15 kV tutumlu motor Y işə salma ilə hərəkətə gətirilir və 3-fazalı ikidayaqlı çevirici ilə bir neçə saniyədən sonra Y üsulu D üsuluna keçir. Beləliklə, xəttin gərginliyi tam şəkildə tətbiq olunur və normal fəaliyyət təmin olunur. İşə salma yükünü azaltmaq üçün, 3-fazalı induksiyalı motor motorun statorunda, Y qoşulma üsulundan istifadə edərək işə salmanı yerinə yetirir. İşə düşdükdən sonra Y qoşulma D qoşulmaya çevrilir. Bu üsul Y-D işə salma üsulu adlanır. Bu işə salma üsulunun xüsusiyyəti Y-dir, xətt gərginliyi tam gərginliyi 1/3-ni təşkil edir və işə salma yükü 1/3-ə düşür. Buna görə də, işə salma nominal gərginliyin təqribən 58%-də yerinə yetirilir və təhlükəsiz işə salma həyata keçir.



Şəkil 1: 3 fazalı induksiyalı motorun Y-D işə salma üsulu

(2) Y-Δ işə salma (2-kontaktlı növü və 3-kontaktlı növü): 2-kontaktlı Y-D işə salma üsulu 2 elektromaqnit çeviricidən istifadə edir və gərginlik dayanmış motora da tətbiq olunur. İzolyasiyanın zəifləməsi ilə əlaqədar problem olduğu üçün bu üsul mexaniki dəzgahlarda, nasoslarda, üfürücü cihazlarda istifadə olunur. Buna görə də, yüksüz və ya aşağı yük altında işə salmanı yerinə yetirə bilər. 3 kontaktlı Y-D işə salma üsulu elektromaqnit çeviricilərdən istifadə edir və ən geniş tətbiq olunan üsuldur. Gərginlik dayanmış motora tətbiq olunmur və buna görə də, təcili hallarda və ya çox uzun fasilə müddəti olan yüklər üçün istifadə olunur. 3-fazalı induksiyalı motorun Y-D işə salma üsulu.



Şəkil 2: 3 fazalı induksiyalı motorun Y-D işə salma üsulu

1. PBS1 basıldıqda, MC1-MC2 maqnitləşir və beləliklə, motor Y işə salmanı yerinə yetirir. MC1-a qoşulur və L1 göstərici lampası yanır.

2. PBS1 basıldıqda, MC2 ayrılır və MC3 maqnitsizləşir. Beləliklə, motor Y üsulu ilə işə salınır, MC1-a qoşulur və sonra L1 göstərici lampası yanır.

3. PBS3 basıldıqda elektrik təchizatı kəsilir, motor dayanır və bütün kontaktlar ilkin vəziyyətə qayıdır.

4. Əməliyyat zamanı həddən artıq yük tətbiq olunsa, THR-b kontaktı ayrılır, elektrik təchizatı kəsilir və motor dayanır.

(3) Taymerdən istifadə etməklə Y-Δ işə salma. Bu üsul taymerdən istifadə edərək, Y işə salmanı və avtomatik olaraq t saniyədən sonra, D əməliyyatını yerinə yetirir və Y-D işə salma üsulları arasında ən geniş istifadə olunan üsuldur. Y-D işə salma üsulları.



Şəkil 3: 3 fazalı induksiyalı motor üçün taymerə malik Y-D işə salma dövrəsi

1. Elektrik təchiz olunursa, GL elektrik göstərici lampası yanır.
2. PBS1 basıldıqda, MC və MC-Y maqnitləşir və MC əsas kontakt qapanır. Sonra motor Y işə salmanı yerinə yetirir və köməkçi MC-Y kontaktı qoşulur. BL göstərici lampası yanır və eyni zamanda GL lampası sönür. Əli buraxdıqda belə, Y üsulu ilə işə salma davamlı olaraq yerinə yetirilir. Eyni zamanda taymerin statoru maqnitləşir.
3. Əgər taymerdə t qədər vaxt keçsə, T-b kontaktı açılır və MC-Y maqnitsizləşir. Beləliklə, Y işə salma dayanır, Y-a qoşulur və MC-D maqnitləşir. Motor D əməliyyatına keçir. Bu zaman BL sönür və RL və GL lampaları yanır.
4. MC-Y və MC-D bloklandığı üçün əməliyyat təhlükəsiz şəkildə yerinə yetirilir.
5. Əgər PBS2 dayanma ayırıcısı basılsa, motor dayanır RL sönür və GL yanır.

2. Prosedur

(1) İşə hazırlıq:

1. Verilmiş çertyoju yoxlayın.
2. Verilən materialların çertyoja uyğun olub-olmadığını yoxlayın.
3. Dövrə testeri ilə materialların hər hissəsinin (a-kontakt, b-kontakt, stator və s.) qısa dövrəsini və s. yoxlayın.

(2) Hissələrin quraşdırılması:

1. Hissələri çertyojdakı yerinə uyğun düzün.
2. Əriyən qoruyucularını, ABDA-nı və s. quraşdırarkən, elektrik hissəsi ilə yüklü hissəsi arasın-

da məsafə saxlayın.

3. Hissənin quraşdırılacağı yeri işarələyin.

4. İşarələnmiş yerlərə hissələri bərkidin, hissələrin üfüqi və şaquli vəziyyətlər, qaydalarla uyğun bərkidildiyini yoxlayın.

(3) Naqillərin çəkilməsi:

1. Hissələrin düzülmə yerlərinə uyğun olaraq naqillərin çəkiləcəyi sahələri qeyd edin.

2. Naqillərin çəkiləcəyi yerləri çertyojda qeyd edərkən, nəzarət dövrəsinin hər birləşmə xəttinə təsadüfi şəkildə xüsusi nömrə təyin edin.

3. Terminalı düymə çeviricisinə, elektromaqnit kontaktora və s. qoşarkən birləşmə tamamilə elektrik və mexaniki olmalıdır.

(4) Dövrə testeri ilə əməliyyatın yoxlanması:

1. Tamamlanmış dövrənin çertyoja uyğun gəlib-gəlmədiyini dövrə testeri ilə yoxlayın.
2. Xətt nömrələrinin düzgün olub-olmadığını yoxlayın.
3. Xətlərin qoşulma vəziyyətini yoxlayın.

(5) Elektrik gərginliyi ilə əməliyyatın yoxlanması:

1. Elektrik gərginliyini yoxlayın və elektrik mənbəyinə qoşulun.
2. Düyməni manipulyasiya etməklə dövrənin fəaliyyətini yoxlayın.
3. Göstərici lampanın yanma vəziyyətini yoxlayın.

(6) Alətləri təmizləyin və səliqəyə salın.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təlimatçının göstərişlərinə uyğun olaraq hərəkət edin.
2. Avadanlığa icazəsiz toxunmayın.
3. Bir şey düzgün getməsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri

1. 2 kontaktlı Y-D işə salma dövrələrinin sadə əməliyyatının konfiqurasiyası və naqillərin çəkilməsi.







2. 3 kontaktlı Y-D işə salma dövrələrinin sadə əməliyyatının konfiqurasiyası və naqillərin çəkilməsi.



Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Ardıcıl sistemi izah etdi? 2. Təmir/texniki təchizatı yerinə yetirdi? 3. Cihazları quraşdırdı? 4. Naqilləri çəkdi? 5. Dövrəni yoxladı? 6. Motoru qoşdu? 7. Hərəkəti yoxladı? 8. Təmir etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

8. Suyun səviyyəsinə nəzarət sisteminin qurulması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*

1. Elektrik dövrəni necə qurmağı izah edə biləcək;
2. Suya nəzarət sistemini qura biləcək.

Təcrübə materialları:

1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:

1. Ardıcıl treyner;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Suyun səviyyəsinə nəzarət sistemi

(1) Dövrənin sxemi:



Şəkil 1: Su səviyyəsinin çevirici dövrəsi

(2) Məlumat:

1. Elektrik mənbəyi: Üç fazalı sistem (220V).
2. Əməliyyat üzrə faktlar.
3. Başlama - MC/X işə düşür, motorun fəaliyyəti - L3/L4 İşıqlanma – nasoslanan su.
4. E1 elektrik qütbünə çatdıqda, FLR işə düşür, MC sönür – motor dayanır – L2 işığı , L4 sönür – nasoslama dayanır.
5. Aşağıda E2-də FLR sönür, motor fəaliyyətdədir – L2 sönür, L4 işığı – suyun nasoslanması təkrarlanır.
6. Dayanma – Bütün hissələr dayanır.
7. Thr yanılı - Bütün hissələr dayanır.
8. Ardıcıl sxem yuxarıdan aşağıya və ya soldan sağa çəkilməlidir.
9. Siz MC, Ry, FLR, L1, L2, L3, L4 və Əsas dövrə xəttinin naqillərinin rəngini fərqləndirə bilməlisiniz.
10. Taxta diskdən istifadə edin.
11. Ölçü vahidi "mm"-dir.
12. Üzməyən və maqnit çeviricinin qoşulma sxemi (Şəkil).



Şəkil 2: Üzməyən və maqnit çevirici

(3) Tələblər:

1. Vaxt cədvəlini tərtib edin.
2. Naqillərin çəkilmə sxemini çəkin.
3. Naqillər açıq və yan-yana çəkilməlidir, yüklənən zaman torpaqlama olmalıdır.
4. Əsas dövrə ilə nəzarət dövrəsinin rəngini və ölçüsünü fərqləndirin.
5. Detalın ölçüsünə uyğun sahədən istifadə edin.

2. Prosedur:

Köhnə metod: Açar dövrənin sonunda yerləşdirildikdə, bir kabel qutuya daxil olur. Bu quraşdırmada izolyasiyalı naqilin hər ikisi isti olur. Ağ rəngli naqil onu isti naqil kimi müəyyənləşdirmək üçün qara lent və ya boya ilə birkalanmalıdır. Torpaqlama naqili açarın torpaqlama vintinə birləşdirilir.

Şəkil 3: Bir kabelin qutuya daxil olması

• Kod dəyişikliyi: Yeni açar naqillərində ağ rəngli naqil cərəyanı dəyişdirilmiş cihaza verməməlidir və ayrıca neytral naqil açar qutusunda mövcud olmalıdır.



Şəkil 4: Yeni açar naqilləri

(3) Elektron dövrələrdə açarlar. Əksər elektron dövrələrə yandırma/söndürmə (on/off) açarı daxildir. Yandırma/söndürmə açarına əlavə olaraq, bir çox dövrəyə dövrənin işinə nəzarət edən və ya dövrənin müxtəlif parametrlərini aktivləşdirən açarlar daxildir. Açarların təsnifləşdirilməsinin bir üsulu onların yaratdığı birləşmələrdir. Əgər sizdə açarların sadəcə dövrələri yandırıb-

söndürdüyünə dair təəssürat yaranıbsa, o zaman yenidən düşünün. Bir açarın hansı növ birləşmələr yaratdığını müəyyənləşdirən iki mühüm amil aşağıdakılardır:

• Qütblər: Açar qütbü açarın nəzarət etdiyi ayrıca dövrələrin sayını ifadə edir. Bir qütblü açar sadəcə bir dövrəyə nəzarət edir. İki qütblü açar iki ayrıca dövrəyə nəzarət edir. İki qütblü açar mexaniki şəkildə eyni ling, dəstək və ya düymə ilə işlədilən iki ayrıca bir qütblü açar kimidir.

• Gediş: Gedişlərin sayı hər bir açar qütbünün öz girişini bir çox müxtəlif çıxış birləşməsinə necə birləşdirdiyini göstərir. İki ən geniş yayılmış növə bir və iki gedişli açar daxildir:

(4) Bir gedişli açar iki sıxacı birləşdirən və ya ayıran sadə yandırma/söndürmə açarıdır. Açar bağlandıqda, iki sıxac birləşdirilir və onların arasında cərəyan axır. Açar açıldıqda, sıxaclar birləşdirilmir və buna görə də cərəyan axmır.



Şəkil 5: Bir gedişli açar

(5) İki gedişli açar giriş sıxacını iki çıxış sıxacından birinə birləşdirir. Beləliklə, iki qütblü açar üç sıxaca malikdir. Sıxaclardan biri ümumi sıxac adlanır. Digər iki sıxac çox vaxt A və B sıxacları adlandırılır. Açar bir mövqedə olduqda, ümumi sıxac A sıxacına birləşir, buna görə də ümumi sıxacdan A sıxacına cərəyan axır, lakin B sıxacına heç bir cərəyan axmır. Açar özünün digər mövqeyinə hərəkət etdirildikdə, sıxac birləşmələri yerlərini dəyişir: cərəyan ümumi sıxacdan B sıxacına axır, lakin A sıxacından heç bir cərəyan axmır.



Şəkil 6: iki gedişli açar

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Ardıcıl/paralel dövrə (lampa dövrəsi) üzrə Təcrübə 1

(1) Plan .



(2) Tələblər

1. kabel;
2. PE dövrə;
3. CD dövrə.

(3) Naqil dövrəsi



(4) Birləşmə sxeminin cizgisi



(5) İstismar tələbləri

1. Güc : 1 faza, 2 naqil tipli, 220V.
2. S3-1, S3-2 eyni vaxtda yandırıldığı halda lampa R1, R2 paralel dövrə (bir-birinə) olur.
3. S3-1, S3-2 eyni vaxtda söndürüldüyü halda lampa ardıcıl dövrə olur.
4. PB => BZ / R3.

2. İki yerdə lampa dövrəsi üzrə Təcrübə 2

(1) Plan



(2) Tələblər

1. kabel;
2. PE dövrə;
3. CD dövrə.

(3) Naqil dövrəsi



(4) Birləşmə sxeminin cizgisi



(5) İstismar tələbləri

1. Güc növü: 1ф 2w , 220V
2. MCB/qoşulub – Açar S1/qoşulub, söndürülüb – R1/qoşulub, söndürülüb
3. S3-1, S3-2 /R2 yandırma/söndürmə (bir-birinə iki yer)

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etdi? 2. Dövrə çəkdi? 3. Dövrəni qoşdu? 4. Dövrəni sınaqdan keçirdi? 5. Xəta tapdı? 6. Təkrar təsdiq etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

4. 2 keçidli dövrənin qoşulması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etməyi biləcək;
2. Üç keçidli dövrəni qoşmağı bacaracaq.

Təcrübə materialları:
1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. İş paneli;
2. Alətlər qutusu;

Mövzu ilə əlaqəli biliklər

1. 3 keçidli açar

(1) 3 keçidli açarın naqillərlə birləşdirilməsi: Üç keçidli açarın naqillərlə birləşdirilməsi iki keçidli açarın birləşdirilməsinə nisbətən bir qədər daha çətindir. Öncə, biz açarlara dair bir az sadə terminləri nəzərdən keçirməliyik. Ev elektrik açarlarının fərqli növləri üçün istifadə olunan terminləri müzakirə etdiyim "Açarı terminləri səhifəsi"nə daxil olun. Bu, həmçinin açarın hər bir növünün funksiyalarının başa düşülməsinə kömək etməlidir. Üç keçidli açar dövrəsini birləşdirdikdə, sadəcə olaraq, 2 fərqli yerdən yükə (işıq, lampa, çıxış, tavan ventilyatoru və s.) enerji axınına (yandırma/söndürmə) nəzarət edilməlidir; bir neçə nümunəyə aşağıdakılar daxildir: Bu nümunələrdə hər bir üç keçidli açar eyni yükə ötürülən enerji mənbəyini idarə edir. Üç keçidli açar dövrəsini birləşdirdikdə, biz mənbədən gələn romeks (məs: üzən qoruyucular qutusu) kimi tanınan üç naqilli kabeldən istifadə edəcəyik. Bundan sonra dörd naqilli kabel iki üç keçidli açarın arasından keçir və sonra üç naqilli kabel açarlardan yükə keçir. Üç naqilli kabel qara, ağ və örtüksüz mis naqildən, dörd naqilli kabel isəəlavə edilmiş və həmçinin isti olmayan qırmızı naqildən ibarətdir. Aşağıya baxın.

(2) 3 naqilli kabel:
- Qara naqil = güc və ya isti naqil,
- Ağ naqil = neytral,
- Örtüksüz mis = torpaq

(3) 4 naqilli kabel
- Qırmızı naqil = güc və ya isti naqil
- Qara naqil = güc və ya isti naqil
- Ağ naqil = neytral.

Üç keçidli açar dövrəsini birləşdirdikdə, biz sadəcə 2 fərqli məkandan yükü qoşmaq və söndürmək üçün qara naqilə (isti naqil) nəzarət etmək istəyirik. Aşağıdakı diaqramda bu dövrənin birləşdirilmə qaydası daha yaxşı izah edilir.



Qeyd edilməlidir ki, birinci qutuya gələn 3 naqilli kabel mövcuddur, bundan sonra 4 naqilli kabel sol qutudan sağ qutuya keçir, sonra 3 naqilli kabel sağ qutudan yükə keçir. İndi isə naqillərlə birləşdirmə üçün gəlin açara göründüyü kimi baxdığınızı güman edək.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Üç yerdə lampa dövrəsi üzrə Təcrübə

(1) Plan



(2) Tələblər:

1. Kabel;
2. PE dövrə;
3. CD dövrə.

(3) Naqil dövrəsi



(4) Birləşmə sxeminin cizgisi



(5) İstismar tələbləri

1. Güc: 1ϕ 2w tipli, 220V
2. İstismar: MCB/qoşulub, S3-1, S3-2, S4-1 →R1, R2 istifadə etməklə, paralel istismar

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etdi? 2. Dövrə çəkdi? 3. Dövrəni qoşdu? 4. Dövrəni sınaqdan keçirdi? 5. Xəta tapdı? 6. Təkrar təsdiq etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

5. Lampa dövrəsinin qoşulması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etməyi biləcək;
2. Lampa dövrəsini qoşmağı bacarcaq.

Təcrübə materialları:
1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. İş paneli;
2. Alətlər qutusu;

Mövzu ilə əlaqəli biliklər

1. Lampa dövrəsi (ardıcıl/paralel və s.)

(1) Ev naqillərinin sxemləri



Şəkil 1: Ev naqillərinin sxemləri

(2) Evin elektrik sxemi və naqil sxemlərinə dair təlimatlar



Şəkil 2: Elektrik sxemi və naqil sxemləri

(3) İşıq açarının naqil sxeminin birləşdirilməsi



Şəkil 3: İşıq açarının naqil sxemi

(4) Sadə 3 keçidli açarın naqil sxemi. Üç keçidli dövrə əksər yaşayış qurğuları daxilində aşkar olunan ən geniş yayılmış sistemdir. 3 keçidli dövrələr iki açarın bir işığı (və ya işıqları) işlətməsini istədiyiniz istənilən vaxt istifadə edilir. Bu dövrənin ən yaxşı nümunələri uzun dəhlizin sonunda və ya pilləkən qəfəsinin yuxarısında və ya dibində olur.



Şəkil 4: 3 keçidli dövrə

• 3 keçidli dövrənin naqil sxemi. Qeyd edilməlidir ki, bu halda açar nö.1 məkanında qutunun doldurulma hesablamaları nəticəsində normaldan böyük cihaz qutusu tələb olunur (əksər adi ölçülü qutulara yalnız beş naqil yerləşəcək; bu vəziyyətdə siz yeddi naqilə malik olacaqsınız).



Şəkil 5: Normaldan böyük cihaz qutusu

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Dörd yerdə lampa dövrəsinə nəzarət üzrə təcrübə

(1) Plan



(2) Tələblər:

1. Kabel;
2. PE dövrə;
2.CD dövrə.

(3) Naqil dövrəsi



(4) Birləşmə sxeminin cizgisi



(5) İstismar tələbləri

1. Güc; 1ϕ 2w tipli, 220V

2. MCB/qoşulu → S3-1, S3-2, S4-1, S4-2 birləşdirilmiş istismar (yandırma/söndürmə) → R1, R2, R3, R4 Paralel yandırma/söndürmə (bir-birinə dörd yer)

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etdi? 2. Dövrə çəkdi? 3. Dövrəni qoşdu? 4. Dövrəni sınaqdan keçirdi? 5. Xəta tapdı? 6. Təkrar təsdiq etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

6. Avtomatlaşdırma dövrəsinin hazırlanması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etməyi biləcək;
2. Avtomatlaşdırma dövrəsini hazırlamağı bacaracaq.

Təcrübə materialları:
1. Təqdim olunan texniki kitablar;
2. Texniki kitablar;
3. Kabel 2×2C;
4. Polad kanal (16 mm);
5. Vinil kanal (16 mm);
6. PVC birləşdirici (16 mm);
7. Rele (3 kontaktlı yuva);
8. Rozetka (300V 6A);
9. Çıxış (250V 15A);
10. DS (300V 6A);
11. Düyməli açar;
12. Bir açar.

Avadanlıqlar və alətlər:
1. Ümumi alətlər;
2. Polad kanal alətləri.

Mövzu ilə əlaqəli biliklər

1. Sənaye avtomatlaşdırma sistemi

(1) Taymer kontaktı müəyyən quraşdırma vaxtı keçdikdən sonra bağlanır və ya ayrılır. Taymer qoşulma yubanmalı və ayrılma yubanmalı taymerə təsnifləşdirilir.



Şəkil 1: Taymer kontaktı

(2) Taymer ani kontaktlar və taymer kontaktlarından ibarətdir. Nominal gərginlikdən asılı olaraq, 100V və ya 200V ikili 100/200V növlər mövcuddur. Daxili birləşmə sxemi Şəkil 2-də göstərilir.



Şəkil 2: Daxili birləşmə sxemi

(3) Rele kontaktı dolağa güc tətbiq etməklə yaradılan elektromaqnit güc ilə yandırılır və söndürülür. Naqilləşdirmə rele yuvasının üzərində həyata keçirilir və rele sonradan yuvaya daxil edilir. Daxili kontaktların sayından asılı olaraq, 8 kontaktlı, 11 kontaktlı rele mövcuddur və daxili birləşmə sxemi Şəkil 3-də göstərilir.



Şəkil 3: Rele kontaktı

(4) Nominal gərginlik dolağa tətbiq edilməlidir. Əgər həddən artıq gərginlik tətbiq edilərsə, dolaq temperaturun qalxması nəticəsində parçalana bilər.

(5) Titrəmə relesi istismar və sıfırlama ilə davamlı, yubanma və taymer kontaktına ma-

likdir və daxili birləşmə sxemi Şəkil 4-də göstərilir.



Şəkil 4: Titrəmə relesi

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.
4. Düzgün ölçülü əyici alətdən istifadə edin.
5. Relenin nominal gərginliyini yoxlayın.
6. Rele dolağını və yükü ardıcıl birləşdirməyin.
7. Bıçaqdan ehtiyatla istifadə edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Yubanma və taymerdən istifadə etməklə, elektrik siqnalının dövrəsini quraşdırın.

(1) Alətləri və materialları hazırlayın və quraşdırma mövqeyini işarələyin. Rele və taymer yuvasını bərkitdikdə, kontaktın nömrəsini yoxladığınızdan əmin olun.

(2) Kanalı quraşdırın və naqilləşdirməni yerinə yetirin.

(3) Avadanlığı naqillərlə birləşdirin və onları yoxlayın.

1. İlkin naqilləşdirmədən sonra dövrəni yoxlayın və naqilləşdirməni tamamlayın.

2. Rele kontaktının üzərində naqilləri birləşdirərkən, yuvanın qırılması və ya pis vəziyyətli yuva halında yuvanın asan dəyişdirilməsi üçün bir qədər naqil intervalı saxlayın.

(4) Yekun təftişdən sonra istismarı sınaqdan keçirin.

(5) Təcrübə çertyoju



(5) İstismar tələbləri:

1. Enerji mənbəyi : bir fazalı 2 2 naqil tipli (220V);
2. Quraşdırmanın növləri;
3. Kabellərin quraşdırılması;

4. PE kanalın quraşdırılması;
5. Polad kanalın quraşdırılması.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etdi? 2. Avtomatik sistemin diapazonunu müəyyənləşdirdi? 3. Cihazları seçdi? 4. Dövrəni çəkdi? 5. Dövrəni qoşdu? 6. Dövrəni sınaqdan keçirdi? 7. Xəta tapdı?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

7. Avtomatik proses idarəetmə sisteminin hazırlanması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etməyi biləcək;
2. Avtomatlaşdırma dövrəsini hazırlamağı bacaracaq.

Təcrübə materialları:
1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. İş paneli;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Sahədə avtomatik proses idarəetmə sistemi

(1) Proses idarəetmə sistemi: Proses idarəetmə sistemi dayanıqlıq, dəqiqlik təmin edən və istehsalat proseslərində ziyanlı keçid statuslarını aradan qaldıran bir qrup elektron cihazlardan təşkil olunur. İstismar sistemləri enerji təchizatı qurğularından tutmuş mexanizmlərə kimi müxtəlif strukturlara və tətbiqə malik ola bilər. Texnologiya sürətlə inkişaf etdikcə, bir çox mürəkkəb istismar tapşırığı proqramlaşdırılan məntiqi kontrollerləri (PLC) və mərkəzi kompüteri birləşdirməklə həll olunub. Cihazlara (məs: istismar panelləri, mühərriklər, vericilər, açarlar, klapanlar və s.) birləşmədən başqa, nəzarət-ölçü cihazları arasında rabitə imkanları çox böyükdür və istismar və prosesin koordinasiyasının yüksək səviyyəsinə imkan verir. Bundan əlavə, proses idarəetmə sisteminin reallaşdırılmasında daha böyük elastiklik mövcuddur. Proses idarəetmə sisteminin hər bir komplektləşdirici hissəsi ölçüsündən asılı olmayaraq, mühüm rol oynayır. Məsələn, verici olmadan, PLC proses zamanı nə baş verdiyini bilməyəcək. Avtomatlaşdırılmış sistemdə PLC kontrolleri adətən proses idarəetmə sisteminin mərkəzi hissəsi olur. Proqram yaddaşında saxlanılan proqramın icrası ilə PLC davamlı olaraq, giriş cihazlarından göndərilən siqnallar vasitəsilə sistemin vəziyyətinə nəzarət edir. Proqramda tətbiq olunan məntiqə əsasən, PLC çıxış alətləri ilə hansı fəaliyyətlərin icrasının lazım olduğunu müəyyənləşdirir. Daha mürəkkəb prosesləri idarə etmək üçün daha çox PLC kontrollerlərini mərkəzi kompüterə qoşmaq mümkündür.



Şəkil 1: Proqramlaşdırılan məntiqi kontrollerlərin (PLC) qoşulması



Şəkil 2: Daha çox PLC kontrollerlərin birləşdirilməsi

(2) Standart idarəetmə paneli: Sənaye inqilabının başlanğıcında, xüsusən, altmış və yetmişinci illərdə relelər avtomatlaşdırılmış mexanizmləri istismar etmək üçün istifadə olunurdu və bu relelər idarəetmə panelinin daxilində naqillər ilə birləşdirilirdi. Bəzi hallarda, idarəetmə paneli bütöv divarı əhatə edirdi. Sistemdə xəta aşkarlamaq üçün xüsusən, daha mürəkkəb proses idarəetmə sistemlərində daha çox vaxta ehtiyac var idi. Bundan əlavə, rele kontaktlarının istismar müddəti məhdud idi, buna görə də bəzi relelər dəyişdirilməli idi. Dəyişdirilmə tələb olunduğu təqdirdə, mexanizm və istehsalat da dayandırılmalı idi. Həmçinin, zəruri dəyişikliklər üçün kifayət qədər yer yox idi. İdarəetmə paneli yalnız bir xüsusi proses üçün istifadə olunurdu və yeni sistemin tələblərinə uyğunlaşmaq asan deyildi. Texniki xidmətə gəlincə, elektriklər xətaların aşkarlanması sahəsində çox bacarıqlı olmalı idi. Qısacası, standart idarəetmə panellərinin çox qeyri-elastik olduğu sübut edildi.

• Klassik idarəetmə panelinin çox tez-tez qeyd olunan mənfi cəhətlərinə aşağıdakılar daxildir: Naqillərin birləşdirilməsi üçün həddən çox işin tələb olunması, dəyişikliklər və ya dəyişdirmələr və xətaların aşkarlanması ilə bağlı çətinliklər, bacarıqlı işçi qüvvənin tələb olunması, problem baş verdikdə, saxlama vaxtının qeyri-müəyyən, adətən, uzun olması.

• İdarəetmə panelinin üstünlükləri PLC kontrollerin bir neçəəsas nöqtədə təqdim olunmasına əsaslanır: Standart proses idarəetmə sistemi ilə müqayisədə, birləşmələr üçün tələb olunan naqillərin sayı 80% azaldılır; Sərfiyyat əhəmiyyətli dərəcədə azaldılır, çünki PLC relelər dəstinə nisbətən daha az sərf edir; PLC kontrollerin diaqnostik funksiyaları xətaların sürətlə və asan aşkarlanmasına imkan verir. İstismar ardıcıllığında dəyişiklik və ya PLC kontrollerin fərqli

istismar prosesinə tətbiqi pult vasitəsilə və ya PC proqram təminatından istifadə etməklə, proqramın dəyişdirilməsi yolu ilə həyata keçirilə bilər (bəzi giriş və ya çıxış cihazlarının əlavə olunması tələb olunmayana qədər, naqilləşdirmədə dəyişiklikləri tələb etmir). Daha az ehtiyat hissələri tələb edir; standart sistemə nisbətən daha ucuzdur (xüsusən, böyük sayda quraşdırma/istismar alətlərinin tələb olunduğu və istismar funksiyalarının mürəkkəb olduğu hallarda). PLC-nin etibarlılığı elektromaqnit rele və ya taymerin etibarlılığından böyükdür.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Elevatorun idarəetmə dövrəsi

(1) Plan





(2) Tələblər

1. Kabel;
2. PE dövrə;
3. CD dövrə.

(3) Naqil dövrəsi



(4) Birləşmə sxeminin cizgisi

1. Güc relesinin (PR) daxili naqilləşdirmə sxemi



2. EOL (EOCR) Daxili naqilləşdirmə sxemi



3. Taymerin daxili naqilləşdirmə sxemi



4. Relenin (14 kontakt) daxili birləşmə sxemi



5. İdarəetmə qutusunun daxili cihaz planı



(5) İstismar tələbləri

1. PB1 qoşulur, PL1 qoşulur, LS1 qoşulur, M1 L1-i işlədir.
2. T1 saniyə sonra M1 dayanır, L1 sönür, PL2 qoşulduqda, M2 sönür, L2 işıqlanır.
3. T2 saniyədən sonra M2 dayanır, L2, PL2 sönür.
4. PL2 T1 saniyədə sönür və təkrarən T2 saniyədə qoşulur.
5. PB2 və ya EOCR1 və ya EOCR2 istismar zamanı işlədikdə, həm dayanma, həm də çıxma baş verir.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etdi? 2. Avtomatik sistemin diapazonunu müəyyənləşdirdi? 3. Cihazları seçdi? 4. Dövrəni çəkdi? 5. Dövrəni qoşdu? 6. Dövrəni sınaqdan keçirdi? 7. Xəta tapdı? 8. Təkrar təsdiq etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

8. Avtomatlaşdırma dövrəsinin hazırlanması

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etməyi biləcək;
2. Yanğından mühafizə sistemini təşkil etməyi bacaracaq.

Təcrübə materialları:
1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. İş paneli;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Sahədə yanğından mühafizə nəzarət sistemi

(1) Yanğın siqnalizasiyası sisteminin komplektləşdirici hissələri

1.Yanğın qəbul-nəzarət qurğuları: Yanğın siqnalizasiyası sisteminin əsas komplektləşdirici hissəsi avadanlıq və dövrələrə nəzarət edir, işəsalma qurğularından giriş siqnallarını qəbul edir, xəbərdarlıq qurğularını aktivləşdirir və siqnalları sahədən kənara ötürür. Əvvəllər yanğın siqnalizasiyasını idarəetmə paneli (FACP) adlandırılırdı. Əvvəllər yanğın siqnalizasiyasını idarəetmə paneli (FACP) adlandırılan yanğın qəbul-nəzarət qurğusuna (FACU) yanğın siqnalizasiyası sisteminin naqillərinə və komplektləşdirici hissələrinə nəzarət edən elektronika daxildir. FACE əsasən siqnalizasiya sistemi üçün beyin rolunu oynayır. O, siqnalizasiya-işə salma cihazlarından siqnalları qəbul edir, siqnalları emal edir və səsli və vizual qurğuları işə salan çıxış siqnallarını yaradır. FACE həmçinin sahədənkənar monitorinq stansiyasına (quraşdırıldıqda) siqnalları ötürür. Güc və yanğın siqnalizasiyası dövrələri birbaşa bu panelə birləşdirilir. Bundan əlavə, uzaqdan idarə olunan köməkçi yanğına nəzarət qurğuları və xəbərdarlıq qurğularının panelləri yanğın siqnalizasiya sisteminin bir hissəsi hesab olunur, birləşdirilir və idarə olunur.

2. Bu sxemdə yanğın siqnalizasiyasını idarəetmə qurğusunun (FACU) müxtəlif komplektləşdirici hissələri, siqnalizasiya sisteminin mərkəzi düyünü göstərilir.



Şəkil 1: Siqnalizasiya sistemi

3. Əsas qidalanma mənbəyi: Əsas elektrik qidalanma mənbəyi adətən binanın qidalanma mənbəyindən (yerli kommunal xidmət təminatçısı tərəfindən təmin edilir) götürülür. Nadir hallarda, elektrik xidməti mövcud olmadıqda və ya etibarsız olduqda, mühərrikli generator əsas qidalanma mənbəyini təmin edə bilər. Əgər bu cür generatordan istifadə edilərsə, təlimli operator 24 saat iş rejimində çalışmalı və ya sistem çoxsaylı mühərrikli generatorlardan ibarət olmalıdır. Bu generatorlardan biri həmişə avtomatik işəsalma üçün quraşdırılmalıdır. FACU əsas qidalanma mənbəyinə nəzarət etməli və qidalanma mənbəyində fasilə yarandıqda siqnal verməlidir.

4. Köməkçi qidalanma mənbəyi: Bütün yanğın siqnalizasiya sistemləri köməkçi qidalanma mənbəyinə malik olmalıdır. Bu tələb elə layihələndirilir ki, hətta əsas qidalanma mənbəyi sıradan çıxdıqda belə, sistem işlək vəziyyətdə olacaq. Köməkçi qidalanma mənbəyi siqnalizasiya vəziyyətini tam işlətmək üçün normal (həyəcan siqnalı yoxdur), ehtiyat vəziyyətlər potensialını təmin etmək iqtidarında olmalıdır. Köməkçi enerji istismarının qabiliyyətləri üzrə vaxt müddəti tələbləri dəyişir və Şəkildə aşkar edilə bilər. Köməkçi enerji mənbələri doldurucuları olan akkumulyatorlar, saxlanma akkumulyatoru olan mühərrikli generatorlar, yaxud biri avtomatik işə salma üçün quraşdırılan mühərrikli generatorlardan ibarət ola bilər.

5. Cihazlar: Yanğın aşkarlama sistemi yanğın, tüstü, alov və ya istilik halında aktivləşən mexaniki və avtomatik siqnalizasiya-işə salma qurğularından ibarətdir. Cihazlar bundan sonra iki metodun (bərk naqil sistemi və ya xüsusi tezlikdə radio dalğa ilə paneldə radio qəbuledicisiyə ötürülən siqnal) birindən istifadə etməklə, FACU qurğusuna siqnal göndərir. Həm avtomatik, həm də mexaniki siqnalizasiya-işə salma qurğuları növbəti bölmələrdə daha ətraflı nəzərdən keçirilir və aşağıdakı qurğuları ehtiva edir (lakin bunlarla məhdudlaşmır): Zənglər, zummerlər, sirenalar, ruporlar, səsli xəbərvericilər, digər xəbərdarlıq qurğuları, isitmə, havalandırma, havanın kondisiyalaşdırılması sisteminin (HVAC) söndürülməsi, tüstü qapaqları və/ya yanğın qapılarının bağlanması. Pilləkən qəfəslərinin hermetikləşdirilməsi və/ya təxliyə məqsədləri üçün tüstüyə nəzarət sistemlərinin istismarı, çıxış yolu boyunca qapıların açılması, təyin olunmuş mərtəbəyə liftin geri çağırılması və normal əməliyyatların qarşısının alınması, isti və tüstü havalandırma dəliklərinin istismarı, xüsusi yanğınsöndürmə sistemlərinin (məs: ehtiyat tədbiri və drençerli sprinkler sistemləri və ya xüsusi maddə ilə müxtəlif yanğınsöndürmə sistemləri) işə salınması.

6. Lift nəzarətlərini aktivləşdirən detektor: Bu ssenaridə təkrar aşkarlama sisteminin ak-

tivləşməsi liftin nəzarət vasitələrinin təkrar müəyyənləşdirilməsinə səbəb olub ki, lift yanğınsöndürənlər tərəfindən asanlıqla istifadə edilə bilsin.



Şəkil 2: Detektor siqnalizasiya sistemi

7. Qorunan obyektlərin sistemləri (yerli): Qorunan obyektlərin sistemi yalnız bilavasitə obyektlər barədə binanın sakinlərini xəbərdar etmək üçün nəzərdə tutulub. Bu sistemlərə icazə verildikdə, avtomatik sahədənkənar hesabatvermə üçün heç bir ləvazimat mövcud olmur.



Şəkil 3: Lokal siqnalizasiya sistemi

8. Əriyən sabit temperaturlu istilik detektoru: Əriyən qoruyucu yayı kontakt nöqtələrindən ayırmaq üçün məlum ərimə temperaturuna malik lehimləmədən istifadə edən¬ sabit temperaturlu detektordur.



Şəkil 4: Sabit temperaturlu detektor

9. Pnevmatik artan sürətli xətti istilik detektoru: Pnevmatik artan sürətli xətti istilik detektoru binanın böyük sahələrinə nəzarət edə bilər. Xətti istilik detektorları geniş əhatə dairəsində quraşdırılan pnevmatik metal boruların sistemindən ibarətdir. Pnevmatik artan sürətli sistemlərdə istifadə olunan xətti istilik detektorları siqnalizasiya sistemini işə salmaq üçün temperatur dəyişikliyindən və borularda hava təzyiqinin artmasından asılıdır. Nöqtəli yanğın detektoru spesifik məkana nəzarət edir və siqnalizasiya panelinə siqnal göndərir.



Şəkil 5: Pnevmatik artan sürətli xətti istilik detektoru

10. Elektron nöqtəli istilik detektoru: Elektron nöqtəli istilik detektoru istiliyə məruz qaldıqda elektrik müqavimətində mühüm dəyişiklik yaradan bir və ya daha çox termistorlardan ibarətdir. Termistorların isidildiyi sürət yaranan cərəyanın miqdarını müəyyənləşdirir. Temperaturda daha böyük dəyişikliklər daha böyük həcmdə cərəyan axını və siqnalizasiya sisteminin işə düşməsi ilə nəticələnir. Daxili termistorların temperaturunun artdığı sürət həyəcan siqnalını işə salmaq üçün yaranan cərəyanın miqdarını müəyyənləşdirir.



Şəkil 6: Nöqtəli istilik detektoru

11. Tüstü detektorları: Tüstü detektorları erkən aşkarlama, xəbərdarlıq və cavab tədbirləri üçün nəzərdə tutulub. Bəzi detektorlar həmçinin dempferlər, qapılar və elektron dayanma kimi mexaniki və ya elektrik sistemlərini işə salmaq üçün istifadə olunur. Tüstü detektorları iki əsas detektordan ibarətdir: Erkən aşkarlamanı təmin edən və təxliyə siqnallarını işə salmaq üçün siqnalizasiya panelinə xəbər ötürən detektor. Yuxarıda müzakirə olunan tədbirlərdən birini başlatmaq üçün bəzi siqnal növlərini təmin edən detektor.

12. Tüstü siqnalizasiyası və tüstü detektorları: Tüstü siqnalizasiyası və tüstü detektorları terminləri çox vaxt bir-birini əvəz edir. Bu, ümumi praktika olsa da, texniki cəhətdən qeyri-düzgündür. Tüstü siqnalları bir qayda olaraq yaşayış yerlərində quraşdırılan qurğulardır. Bu qurğular tüstü detektorunu yerli xəbərdarlıq qurğusu ilə birləşdirir. İşə salındıqda, tüstü siqnalları sakinləri tüstünün mövcudluğundan xəbərdar etmək üçün səsli siqnal buraxır. Tüstü detektorlarının tüstü siqnallarından fərqi ondan ibarətdir ki, bu detektorlar yerli xəbərdarlıq qurğusuna birləşmir. İşə salındıqda, tüstü detektorları FACU və ya buna oxşar qurğuya siqnal göndərir. Bundan sonra FACU sakinləri xəbərdar etmək üçün siqnal verir.



Şəkil 7: Tüstü siqnalizasiyası

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Yanğın aşkarlayıcı dövrə

(1) Yanğın aşkarlayıcı dövrə:

1. Yanğın aşkarlayıcı dövrənin başa düşülməsi.
2. Yanğın aşkarlayıcı dövrənin işlədilməsi.

(2) Təhlükəsizlik tədbirlərinə əməl edilməlidir.

1. Xahiş olunur, mexanizmlər və alətlər ilə elektrik kanalda işləyərkən ehtiyatlı olun.
2. Naqilləşdirmə qurğusunu yoxladıqda və ya elektrik dövrəni dəyişdirdikdə, mütləq elektrik mənbəyini kəsmək lazımdır.
3. Dövrənin elektrik enerjisi sınaqdan keçirilməzdən əvvəl qısa qapanma yoxlayıb təsdiq edilməlidir (bu zaman testerdən istifadə edilməməlidir).

(3) Temperatur tipli yanğın detektoru, tüstü tipli yanğın detektoru:



(5) İstinad olunan biliklər:

1. Yanğın aşkarlayıcı dövrə binanın üzərində quraşdırılır və yanğın hallarında yanğın siqnalizasiyasını avtomatik və ya mexaniki şəkildə işə salır. Bu dövrə üç fazalı asinxron mühərriki işə salmaqla, yaylı soyuducu və ya nasosla avtomatik şəkildə yanğının söndürülməsinə imkan verir.
2. Yuxarıdakı şəkildən göründüyü kimi, yanğın detektoru iki kateqoriyaya bölünür: bunlardan biri temperatur, digəri isə tüstü tipli yanğın detektorudur. Temperatur tipli yanğın detektoru nöqtəli artan sürətli detektora və nöqtəli sabit temperaturlu detektora birləşdirilir. Tüstü tipli yanğın detektoru ionlaşma-tüstü detektoruna və elektriklə işləyən vahid tüstü detektoruna birləşdirilir.

(6) Təcrübə işinin hazırlanması;

1.Cizgilərdən istifadə olunmasını təmin edin.
2. Tələb olunan materialları və zəruri alətləri hazırlayın.
3. Təchiz olunacaq materialları müəyyənləşdirin.

(7) Qurğunu idarəetmə panelinə quraşdırın;

1. Plan və hər bir qurğunun idarəetmə panelinə bərkidilməsi.
2. Əsas və idarəetmə dövrəsinin idarəetmə panelinin üzərində naqillərlə birləşdirilməsi.

(8) Hər bir qurğunun yerini işarələyin və onları xarici idarəetmə panelinə bərkidin;

1.Hər bir qurğunun yerini cizgiyə uyğun işarələyin.

2. Qurğuları işarələnən yerə bərkidərkən, cizgiyə uyğunluğu təmin etmək üçün üfüqi və şaquli vəziyyəti yoxlayıb təsdiq edin.

(9) Dövrəni quraşdırın;

1. Cizgiyə uyğun olaraq, dövrənin yerini seçin.
2. PE və CD dövrələri quraşdırın.

(10) Naqilləşdirmə və birləşdirmə;

1. İdarəetmə dövrəsinə uyğun olaraq, elektrik mənbəyi, mühərriklər, detektorlar və siqnalların naqilləşdirilməsi və birləşdirilməsi.
2. Bütün sıxacların və qurğuların naqilləşdirilməsi və torpaq birləşməsinin yerinə yetirilməsi.

(11) Yoxlama və istismar sınağının həyata keçirilməsi;

1. Dövrə testeri ilə hər bir və bütün dövrələri yoxlayın.
2. Mühərriklər, isidici və vericinin işini sınaqdan keçirin.

(12) Elektrik qurğusunun planı və sxemi;



(13) Dövrənin iş sxemi:



(14) Tələblər:

1. MCB QOŞULUDUR → selektor açar (SS) mexaniki rejimdədir (H) → PB1-ə keçirin, X1, PR, FR relesini işə salın→ mühərrik işə düşür və lampa L1 və bundan sonra lampa YL yanır, zummer BZ alternativ olaraq işlədiləcək; lampa GL sönür (eyni ardıcıllıq PB2-yə keçdikdə də baş verəcək).

1. MCB QOŞULUDUR → selektor açar (SS) avtomatik rejimdədir (A) → FD1-ə keçirin, X2, PR, FR relesini işə salın→ mühərrik işə düşür və lampa L2 və sonra lampa YL yanır; zummer BZ alternativ olaraq işləyəcək; lampa RL sönür (eyni ardıcıllıq FD2-yə keçdikdə də baş verəcək).

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etdi? 2. Avtomatik sistemin diapazonunu müəyyənləşdirdi? 3. Cihazları seçdi? 4. Dövrəni çəkdi? 5. Dövrəni qoşdu? 6. Dövrəni sınaqdan keçirdi? 7. Xəta tapdı? 8. Təmir etdi/texniki xidmət göstərdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

9. Lampa idarəetmə sisteminin təşkili

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etməyi biləcək;
2. Yanğından mühafizə sistemini təşkil etməyi bacaracaq.

Təcrübə materialları:
1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. İş paneli;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Lampa idarəetmə sisteminin təşkili

(1) İşıq konsepti Optika mühəndisinə görə işıq ultrabənövşəyi və infraqırmızı radiasiya arasına daxil edilən elektromaqnit spektrin çox kiçik hissəsidir. Elektromaqnit spektrin görünən hissəsi şəkildə göstərildiyi kimi təxminən 380 nm-dən 780 nm-ə qədər uzanır. Elektromaqnit spektrin bu hissəsini digər hissələrdən fərqləndirən cəhət ondan ibarətdir ki, bu sahədə radiasiya insanın vizual sisteminin fotoreseptorları tərəfindən udulur və bununla görmə prosesini başladır. Şimali Amerikanın İşıqlandırıcı Qurğu İstehsalçıları Cəmiyyəti (IESNA) işığı "tor qişanı oyadan və görmə hissini yaradan şüa enerjisi" kimi müəyyənləşdirir. "Buna görə də işıq şüa enerjisi və ya görmə hissi baxımından ayrıca təsvir oluna bilməz və bunların ikisinin kombinasiyası ilə formalaşır.



Şəkil 1: Elektromaqnit spektr

1. "Görünən" spektr: Biz ümumilikdə, Şəkildə göstərildiyi kimi, beş sadə rəngi elektromaqnit spektrin görünən hissəsi ilə əlaqələndiririk. Bu rənglər ayrıca zolaqlar deyil və bir-birinə qarışır.

2. Ultrabənövşəyi şüa: Bəzən qeyri-düzgün şəkildə "UV işıq" adlandırılan ultrabənövşəyi şüa şəkildə göstərildiyi kimi, görünən şüaya (işıq) nisbətən daha qısa dalğa uzunluqlarına malikdir.

3. İnfraqırmızışüa: İnfraqırmızı şüa görünən işığa nisbətən bir qədər daha uzun dalğa uzunluqlarına malikdir.



Şəkil 2: Görünən işıq ilə nisbətdə dalğa uzunluqları

2. Lampaların növləri

(1) İşıqların və ya lampaların növləri.



Şəkil 3: İşıqların və ya lampaların növləri

(2) İntensivlik və dalğa uzunluğu.



Şəkil 4: İntensivlik və dalğa uzunluğu

(3) İlkin işıq mənbələri



Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Elektrik işıqlandırma və dövrə üzrə təcrübə

(1) Elektrik işıqlandırma və dövrə:

1. Kabeli, PVC kanalı, PE kanalı, CD kanalı və polad kanalı emal edin.
2. Elektrik işıqlandırma dövrəsini bir keçidli, üç keçidli və dörd keçidli açar ilə işlədin.
3. Elektrik siqnal dövrəsini taymer və rele ilə işlədin.

(2) Təhlükəsizlik tədbirlərinə əməl edilməlidir:

1. Xahiş olunur, mexanizmlər və alətlər ilə elektrik kanalda işləyərkən ehtiyatlı olun.
2. Naqilləşdirmə qurğusunu yoxladıqda və ya elektrik dövrəni dəyişdirdikdə, mütləq elektrik mənbəyini kəsmək lazımdır.
3. Dövrənin elektrik enerjisi sınaqdan keçirilməzdən əvvəl qısa qapanma yoxlayıb təsdiq edilməlidir (bu zaman testerdən istifadə edilməməlidir).

(3) Təcrübə işinin hazırlanması:

1. Cizgilərdən istifadə olunmasını təmin edin.
2. Tələb olunan materialları və zəruri alətləri hazırlayın.
3. Təchiz olunacaq materialları müəyyənləşdirin. Naqilləşdirmə.

(4) Hər bir detalın yerini işarələyin və detalı bərkidin:

1. Hər bir detalın yerini cizgiyə uyğun işarələyin.
2. Hər bir detalı işarələnən yerə bərkidərkən, cizgiyə uyğunluğu təmin etmək üçün üfüqi və şaquli vəziyyəti yoxlayıb təsdiq edin.

(5) Kabeli və kanalı quraşdırın:

1. Kabel və kanalın bütün yəhərləri adi yerdə bərkidilməlidir.
2. Bütün kanallar birləşdirici qutuya və ya açar qutusuna şaquli vəziyyətdə daxil edilməlidir.
3. Xahiş olunur, kanalı birləşdirici qutuya və ya açar qutusuna birləşdirərkən birləşdiricidən istifadə edin.

2. Elektrik naqilini kanala daxil edin

(1) Xahiş olunur, naqilin hər hansı burulmasını və ya tıxanmasını aradan qaldırmaq üçün kanalın daxilinə uyğun formada elektrik naqili yerləşdirin.

(2) Elektrik qurğusunun planı və sxemi



(3) Dövrənin iş sxemi



(4) Tələblər:

1. Elektrik mənbəyi: bir fazalı iki naqil 230(V)
2. İstismar:

• MCB-də ayırarkən konsentə elektrik enerjisi ötürüləcək.

• Bir keçidli açar S1 ilə elektrik lampasının (R) yandırılması /söndürülməsi.

3. İş kateqoriyası:

• Kabel işləri

• PVC kanal işləri

3. Bir yerdə elektrik lampasının yandırma/söndürmə dövrəsi

(1) Elektrik qurğusunun planı və sxemi



(2) Dövrənin iş sxemi



(3) Tələblər

1. Elektrik mənbəyi: bir fazalı iki naqil 230(V).

2. İstismar: MCB-də ayırdıqdan sonra bir keçidli açar S1, S2 ilə R1, R2 lampasını yandırın/söndürün.

3. İş kateqoriyası:

• Kabel işləri

• PVC kanal işləri

• Polad kanal işləri

4. İki yerdə elektrik lampasının yandırma/söndürmə dövrəsi (3 keçidli açar)

(1) Elektrik qurğusunun planı və sxemi



(2) Dövrənin iş sxemi



(3) Tələblər

1. Elektrik mənbəyi: bir fazalı iki naqil 230(V)

(4) İstismar

1. MCB-də ayırdıqdan sonra bir keçidli açar S1 ilə R1 lampasını yandırın/söndürün.

Ayrıca olaraq S3-1 və S3-2 üç keçidli açarından istifadə etməklə, iki yerdə R2 elektrik lampasını yandırın/söndürün.

2. İş kateqoriyası:

• kabel işləri
• PVC kanal işləri
• Polad kanal işləri.

4. Üç yerdə elektrik lampasının yandırma/söndürmə dövrəsi (4 keçidli açar)

(1) Elektrik qurğusunun planı və sxemi



(2) Dövrənin iş sxemi



(3) Tələblər

1. Elektrik mənbəyi: bir fazalı iki naqil 230(V)

(4) İstismar:

1. MCB-də ayırdıqdan sonra S3-1, S3-2 və S4 dörd keçidli açardan istifadə etməklə, üç yerdə R1, R2 elektrik lampasını eyni zamanda yandırın/söndürün.

(5) İş kateqoriyası:

1. Kabel işləri
2. PVC kanal işləri
3. Polad kanal işləri.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etdi? 2. Avtomatik sistemin diapazonunu müəyyənləşdirdi? 3. Cihazları seçdi? 4. Dövrəni çəkdi? 5. Dövrəni qoşdu? 6. Dövrəni sınaqdan keçirdi? 7. Xəta tapdı? 8. Təmir etdi/texniki xidmət göstərdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

10. İzafi yüklü siqnalizasiya sisteminin təşkili

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etməyi biləcək;
2. İzafi yüklü siqnalizasiya sistemini düzgün şəkildə təşkil etməyi bacaracaq.

Təcrübə materialları:
1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. İş paneli;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Lampa idarəetmə sisteminin təşkili

1. İzafi yüklü siqnalizasiya sistemi

(1) İmpuls yaradan dövrə konsepti: Bu, "siqnal yaradan aşkarlama dövrəsi" adlandırılır və qısa və uzun impuls yaratma dövrələrinə bölünə bilər.

(2) Qısa impuls yaratma dövrəsi: Şəkildə göstərildiyi kimi, xarici siqnal daxil olarsa, rele X və taymer T dərhal aktivləşir. Beləliklə, kontakt X1 bağlanır və lampa L yanır və verilmiş t saniyədən sonra kontakt T1 açıldığına görə sönür. Yəni, taymerin təyin olunmuş vaxtı ərzində impuls siqnalları yarana bilər.

1. Dövrə



2. Vaxt diaqramı



(3) Uzun impuls yaratma dövrəsi: Şəkildə göstərildiyi kimi, xarici siqnal A daxil olarsa, taymer T1 aktivləşir və taymer T2 də T1-1, yubanmış fəaliyyətin "b" kontaktı və ani qayıdış vasitəsilə aktivləşir. Buna görə də T2-1, ani qayıdışın "a" kontaktı və yubanmış qayıdış dərhal bağlanır. Bundan sonra T1-1, yubanmış fəaliyyətin "b" kontaktı və ani qayıdış t1 saniyədən, taymer T1-in verilmiş vaxtından sonra açılır, beləliklə, taymer T1 aktivləşmir, çünki o, hələ də yubanmış qayıdış kontak-

tıdır və t1 saniyədən sonra açılır. Yəni, lampa L T1 taymerin t1 və T2 taymerin t2 verilmiş vaxtının ümumi müddətində yanır. Lampanın yandığı vaxt "İmpuls yaratma eni" adlandırılır.

1. Dövrə



2. Vaxt diaqramı



(4) Siqnalın tamamlanmasını aşkarlayan dövrə: Bu dövrə xarici siqnal daxil olduqdan sonra siqnalın tamamlanmasını aşkarlayan dövrədir. Şəkildə L söndürülmüş vəziyyətdədir. Əgər xarici siqnal A daxil olarsa, rele X dərhal aktivləşir və kontakt X1 bağlanır ki, rele Y aktivləşsin və "a" kontaktı Y1 bağlandıqdan sonra özünü saxlayır. Rele X aktivləşən kimi rele X-in "b" kontaktı X2 dərhal açılır və rele Y-in "a" kontaktı Y2 dərhal bağlanır ki, lampa L söndürülmüş vəziyyətdə qalsın. Beləliklə, əgər xarici siqnal A çıxarılarsa, yalnız rele X aktivləşmir və buna görə də X2 kontaktı bağlandığı üçün lampa L yanır. Yəni, xarici siqnalın tamamlanması anında lampa yanır.

1. Dövrə



2. Vaxt diaqramı



2. Göstərici və siqnalizasiya dövrəsi

(1) Lampanın göstərici dövrə konsepti: Bu, dövrə göstərən lampa olub, ardıcıllıq idarəetmə dövrəsində ardıcıllığın hazırda hansı vəziyyətdə olduğunu göstərir.



Şəkildə əsas enerji mənbəyindən 2 xətt çəkməklə, lampanın yandırılması vasitəsilə enerjinin qoşulub-qoşulmadığının yoxlanması göstərilir və Şəkil (b)-də əsas mexanizmin işləməsi təqdim olunur. Şəkil (c) və (d)-də isə əsas mexanizmin yandırma/söndürmə vəziyyətləri göstərilir. WL: ağ göstərici lampa (enerji göstərən lampa), RL: qırmızı göstərici lampa (istismarı göstərən lampa), GL: yaşıl göstərici lampa (dayanmanı göstərən lampa), OL: narıncı göstərici lampa (həyəcan siqnalını göstərən lampa) və BL: mavi göstərici lampa (dayanmanı göstərən lampa) və s. mövcuddur. Bu rənglər göstərici lampanın örtüklərinin (pəncərələrinin) rəngləri ilə fərqləndirilir.

(2) Xəta göstərən dövrə: Şəkildə 30F olan xəta göstərən dövrə göstərilir və bu 30F avtomatik idarəetmə qurğusunun əsas nömrələrindən kənarda qurğuların istismar və ya xəta vəziyyətini ifadə edir. Törəmə simvol olan F "Üzgəc", "Xəta", "Qoruyucu" və "Tezlik" ifadə edir; belə ki, 30F xəta vəziyyətini ifadə edir və"Xəta indikatoru" adlandırılır.



Ardıcıllıq idarəetmə dövrəsini istismar edərkən bəzi səbəblərə görə qismən xətalar baş verdiyi halda, bu dövrə mühafizə relesi vasitəsilə xəta yerlərini aşkarlayır, həyəcan siqnalı verir və xətanın ilk səbəbinin elementini "F" kontaktı vasitəsilə ardıcıl surətdə lampaya birləşdirir. Şəkil (b) xəta indikatoruna malik xəta göstərən dövrə göstərilir və "c" kontakt siqnalları vasitəsilə həmçinin kənarda xətaların baş verdiyini, habelə xətaları göstərən dövrədir.

(3) Dövrəni yoxlayan göstərici lampa: Şəkildə dövrəni yoxlayan göstərici lampanın nümunəsi göstərilir.



Şəkildə 11 L-də 11 (sınaq açarı) avtomatik idarəetmə qurğusunun nömrəsini, L "lampa" və "aşağı"nı ifadə edir. Beləliklə, 11L lampanın sınaq açarını ifadə edir. Şəkildə lampanın sınaq açarını paralel şəkildə xəta göstərən lampaya birləşdirməklə, lampa xətlərinin qoşulub-qoşulmadığının yoxlanması göstərilir.

(4) Siqnalizasiya dövrəsi: İdarə olunan qurğuların istismarı zamanı əsas mexanizmdə və ya dövrədə hər hansı problem baş verərsə, həmin mexanizm və ya dövrə müəyyən müddətdən sonra sıradan çıxır. Xəta baş verdikdə, xəta göstərən lampa və ya xəta indikatoru işlədilməli və xətanın baş verməsi həyəcan siqnalı vasitəsilə operatora məlum olmalıdır. Bu dövrə" Siqnalizasiya dövrəsi" adlandırılır. Ümumilikdə, siqnalizasiya dövrəsində zummer siqnalı və zəng siqnalı mövcuddur. Zummer siqnalı nisbətən kiçik xətaya, zəng siqnalı isə böyük xətaya tətbiq olunur. Şəkildə siqnalizasiya dövrəsinin nümunəsi təqdim olunur.



Şəkildə göstərilən dövrədə normal olaraq bağlanan TS (aşırma dəyişdirici açar) ilə istismar zamanı xəta baş verərsə, xətanın baş verməsini bildirən siqnal F xəta indikatorunu 30 F (rele) aktivləşdirmək və 30F-in "a" kontaktlarını bağlamaq üçün işə düşür. Bundan sonra zummer işə düşür və lampa yanır. Beləliklə, operator zummerin səsini eşidir və xətanın baş verdiyi yerə yollanır. Burada TS zummerin dayanması üçün ayrılmalı və xəta müəyyənləşdirildikdən sonra yenidən bağlanmalıdır. Şəkildə göstərilən dövrədə xəta baş verərsə, xətanın baş verdiyini bildirən siqnal F işə düşür və yalnız zummer siqnalı səslənir. Bu dövrədə operator zummeri dayandırmaq üçün Lb düyməsini sıxır və əvəzinə, xəta göstərən lampanı yandırır. Burada Pb başqa sözlə, "Zummeri dayandıran düymə"dir.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Təcrübə 1. Aşkarlayıcı dövrə

(1) İlkin suallar

1. Nə üçün qoruyucu naqillərə birləşdirilməlidir?

2. İmpuls yaradan dövrənin və siqnalın tamamlanmasını aşkarlayan dövrənin istifadəsi haqqında düşünün.

•Qısa impuls yaratma dövrəsi

• Uzun impuls yaratma dövrəsi

• Siqnalın tamamlanmasını aşkarlayan dövrə

3. Dövrə naqillərində birləşmə sıxaclarda (banan tipli yuva) yerinə yetirilməlidir. Səbəb nədir?

(2) Təhlükəsizlik və ehtiyat tədbirinin təfərrüatları

1. Əgər enerji gərginliyi 3 fazalı 380V olarsa, idarəetmə dövrələrində gərginliyi azaltmaq üçün transdan istifadə etməklə, bir fazalı 220V-ə keçirilməlidir.

2. Bu təcrübələrdə düyməli açarlar xarici siqnal kontaktları üçün istifadə edilir.

3. Düyməli açarları yerinə qaytararkən açarlar düymə üzərində işarələnən ox istiqamətində fırladılmalıdır.

4. Taymerdə daxili naqilləşdirmə sxemi müşahidə edilməlidir və siz səhv naqilləşdirməyə yol verməməlisiniz.

5. Güc tətbiq edildikdə, dövrənin birləşdirilməsi yerinə yetirilməməlidir.

(3) Təcrübə proseduru: Qısa impuls yaratma dövrəsi

1. Qısa impuls yaratma dövrəsi ilə bağlı təcrübəni yerinə yetirmək üçün "Şəkil 6-4"-də göstərilən xətləri birləşdirin.



2. Saxlayıcı düyməli açarlardan istifadə olunur və bu açarlar bir dəfə sıxıldıqdan sonra əsas vəziyyətdən çıxır və düymələri ox istiqamətində fırlandıqdan sonra əsas vəziyyətə qayıdır.

3. Taymerin verilmiş vaxtını 5 saniyəyə qoyun və düyməli açarı sıxın. Lampa L dərhal yanır? Həmçinin lampa neçə saniyədən sonra sönür?

4. Düyməli açarın düyməsini ox istiqamətində fırlatmaqla, dövrəni əsas vəziyyətə qaytarın.

5. Taymerin verilmiş vaxtını 1 saniyəyə qoyun və düyməli açarı sıxın. Lampa L dərhal yanır? Həmçinin lampa neçə saniyədən sonra sönür?

(4) Təcrübə proseduru: Siqnalın tamamlanmasını aşkarlayan dövrə

1. Siqnalın tamamlanmasını aşkarlayan dövrə ilə bağlı təcrübəni yerinə yetirmək üçün "Şəkil"-də göstərilən xətləri birləşdirin.



2. Düyməli açarı sıxın. Rele R1 işləyir?

3. Rele R2 işləyir? Lampa L yanır?

4. Düyməli açarı əsas vəziyyətə qaytarın. Lampa L yanır?

5. Rele R1 işləyir?

6. Rele R2 işləyir?

(5) Yekunlaşdırıcı suallar

1. "Şəkil"-də göstərilən qısa impuls yaratma dövrəsinin vaxt qrafikini doldurun.



2. "Şəkil"-də göstərilən siqnalın tamamlanmasını aşkarlayan dövrənin vaxt qrafikini doldurun.



2. Təcrübə 2. Göstərici və siqnalizasiya dövrəsi

(1) İlkin suallar:

1. Avtomatik idarəetmə qurğusunun nömrələrini yoxlayın və qeydə alın.
2. Tərif;
3. Əsas nömrələr;
4. Törəmə nömrələr.

(2) Təhlükəsizlik və ehtiyat tədbirinin təfərrüatları

1. Əgər enerji gərginliyi 3 fazalı 380V olarsa, idarəetmə dövrələrində gərginliyi azaltmaq üçün transdan istifadə etməklə, bir fazalı 220V-ə keçirilməlidir.
2. Qoruyucu dövrədə qoşulmalıdır.
3. Güc tətbiq edildikdə, dövrənin korreksiyası və ya sökülməsi yerinə yetirilməməlidir.
4. Gücün tətbiqindən əvvəl yoxlamanın aparıldığından əmin olun.
5. Lazımsız ləvazimatlar iş lövhəsinin üzərində olmamalıdır.

(3) Təcrübə proseduru: Dövrə göstərən lampa

1. Dövrə göstərən lampa ilə bağlı təcrübəni yerinə yetirmək üçün "Şəkil 7-5"-də göstərilən xətləri birləşdirin. MS : Elektron açar üçün elektron kontaktordan istifadə edilməlidir.



2. Güc açarını qoşun.
3. MS yanır?
4. RL yanır?
5. GL yanır?

(4) Təcrübə proseduru: Siqnalizasiya dövrəsi

1. Siqnalizasiya dövrəsi ilə bağlı təcrübəni yerinə yetirmək üçün "Şəkil"-də göstərilən xətləri birləşdirin.
2. THR : yüklənmədən termodinamik mühafizə relesi
3. R : 30F üçün istifadə edilir.



4. Burada 'THR' elektron açarların yüklənmədən termodinamik mühafizə relesinin kontaktı (c kontakt) deməkdir. Əgər daxili bimetalda izafi yük axarsa, açılır. Yoxlama üçün ağ plastik ling çıxarılır. Bu, "sıfırlama mili" adlandırılır və yuxarıya dartılarsa, "Açılma vəziyyəti" alır və sıxıldıqda isə sıfırlanır.
5. Dövrənin təkrar yoxlayın və güc açarını qoşun.
6. Sıfırlama milini yuxarıya dartmaqla süni şəkildə xəta siqnalı tətbiq edin. Nəticə nədən ibarətdir?

(5) Yekunlaşdırıcı suallar

1. "Şəkil"-də göstərildiyi kimi, aşağıdakı lampalar yanarsa, bu, nəyi ifadə edir?

2. RL (qırmızı lampa) :
3. GL (yaşıl lampa) :
4. "Şəkil"-də göstərilən düyməli açarın vəzifəsi nədən ibarətdir?



Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etdi? 2. Avtomatik sistemin diapazonunu müəyyənləşdirdi? 3. Cihazları seçdi? 4. Dövrəni çəkdi? 5. Dövrəni qoşdu? 6. Dövrəni sınaqdan keçirdi? 7. Xəta tapdı? 8. İzafi yüklü siqnalizasiya sistemini düzgün şəkildə təşkil etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

11. Mühərrikin ardıcıl idarəetmə sisteminin təşkili

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etməyi biləcək;
2. Mühərrikin ardıcıl idarəetmə sistemini düzgün şəkildə təşkil etməyi bacaracaq.

Təcrübə materialları:
1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. İş paneli;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Mühərrikin ardıcıl idarəetmə sistemi

(1) Ardıcıllığın avtomatik idarə olunması: Avtomatlaşdırma dedikdə mexanizm və qurğular sisteminin istifadəçilər tərəfindən əl ilə deyil, elektrik enerjisi, temperatur, təzyiq və axından istifadə edilən cihaz vasitəsilə avtomatik şəkildə işlədilməsi nəzərdə tutulur. Buna görə də iş avtomatik şəkildə icra edilir. Beləliklə, işləri avtomatik şəkildə yerinə yetirmək üçün avtomatlaşdırma fiziki vəziyyətinə görə nəzərdə tutulan vəziyyətə uyğunlaşdırılmalıdır. Avtomatlaşdırmanın nizamlanması idarəetmədir və avtomatlaşdırmanın idarə edilməsi avtomatik idarəetmədir. Bundan əlavə, vəziyyətin nizamlanması idarəetmə siqnalı və ya idarəetmə əmri adlandırılır. Reklam üçün neon işarəsinin nümunəsi avtomatik idarəetmənin xarakteristikası üçün təqdim olunur. Neon işarəsi titrəmə vəziyyətini və titrəmə vaxtını qoruyub saxlayır. Titrəmə vəziyyəti elektrik dövrəsini dəyişdirməklə, dövrəni bağlamalı və ya açmalıdır. Bu, keyfiyyət siqnalı adlandırılır və titrəmə vaxtı keyfiyyəti ifadə edir. Bu, kəmiyyət siqnalı adlandırılır. Bundan başqa, idarəetmə əmri yuxarıda təsvir olunan siqnalı verməlidir. İdarəetmə əmri (məs: açarın açılması/bağlanması və ya klapanın açılması/bağlanması) keyfiyyət əmri və vaxtı, temperatur, təzyiq, mövqe, sürət, davamlı dəyişən gərginlik kimi kəmiyyət əmrinə bölünür. Başqa sözlə, keyfiyyət siqnalı keyfiyyət əmri ilə yerinə yetirilən idarəetmə üçün keyfiyyət nəzarəti, kəmiyyəti siqnalı isə kəmiyyət əmri ilə yerinə yetirilən idarəetmə üçün kəmiyyət nəzarəti verir.

(2) Ardıcıl idarəetmə: Sənaye emal əməliyyatında mexanizmlərin bir-birinin ardınca işə salındığı hallar mövcuddur. Emal əməliyyatında mexanizmlərə tətbiq olunan elektrik nəzarətinin bir nümunəsi aşağıdakı A və B şəkillərində göstərilən ardıcıl idarəetmədir. 3 mühərrik; M1, M2 və M3 ötürücülü mexaniki maşındır. Mühərrik M1 birinci işə salınır. İlkin verilmiş vaxtdan sonra mühərrik M2 avtomatik şəkildə işə salınır. Bundan sonra digər ilkin verilmiş vaxt ilə mühərrik M3 işə salınır.

(3) İdarəetmə əməliyyatı: İdarəetmə əməliyyatının birinci mərhələsi şəkildə göstərilən işə salıcı düyməli açarı sıxmaqla işə salınır. Kontaktor C, taymer TR1 və nəzarət lampası A-ya enerji

verilir. Kontakt C1 (13-14) C kontaktorunu, TR1 taymerini və A nəzarət lampasını saxlamaq üçün bağlanacaq. C2 kontaktları (1-2,3-4,5-6) da mühərrik M1-ə enerji vermək və işlətmək üçün bağlanacaq. Həmçinin, ani taymer kontaktı TR1 (1-3) əməliyyatın ikinci mərhələsini hazırlamaq üçün bağlanacaq.

• **3 mərhələli ardıcıl idarəetmənin idarəetmə dövrəsi:** TR1 taymerin ilkin verilmiş vaxtından sonra yubanma kontaktı TR1 (8-6) bağlanacaq. Bu, kontaktor C2, taymer TR2 və nəzarət lampası B-yə enerji verəcək. Kontakt C2 (-2,3-4,5-6) mühərrik M2-yə enerji vermək və onu işlətmək üçün bağlanacaq. Demək olar ki, ani taymer kontaktı TR2 (1-2) da əməliyyatın üçüncü mərhələsini hazırlamaq üçün bağlanacaq. TR2 taymerin ilkin verilmiş vaxtından sonra yubanma kontaktı TR2 (8-6) bağlanacaq. Bu, kontaktor C3 və nəzarət lampası C-yə enerji verəcək. Kontakt C3 (1-2,3-4,5-6) M1, M2 və M3 mühərriklərinə enerji vermək və onları işlətmək üçün bağlanacaq.



• **3 mərhələli ardıcıl idarəetmənin güc dövrəsi:** Bütün əməliyyatı dayandırmaq üçün dayandırıcı düyməni basın. Ardıcıl idarəetmə mühərrik starterinin digər dövrənin işini müəyyənləşdirmək üçün vəziyyətlərin bir dəstindən istifadə edən kompleks mühərrik idarəetmə dövrəsinin bir hissəsi kimi istifadəsinə imkan verir. Şəkil 1-də bu tipli dövrənin nümunəsi göstərilir. Bu şəkildə dövrələr montaj və çoxpilləli sxem formasında təqdim olunur. Çoxpilləli sxemin əhəmiyyəti ondan ibarətdir ki, bu sxem əməliyyatın ardıcıllığını göstərir və bu ardıcıllığı montaj sxemindən müəyyənləşdirmək çətin olacaq. Montaj sxemi hələ də əhəmiyyətlidir, çünki bu sxem sahənin naqil birləşmələrini və sazlama zamanı istifadə ediləcək bütün sıxacların yerlərini göstərir.



• Şəkildə göstərilən dövrənin işi İki ayrıca mühərrik starteri ilə idarə olunan iki konveyoru göstərir. Konveyor 1 konveyor 2-nin işə salınmasından əvvəl işləməlidir. Bu ona görə tələb olunur ki, konveyor 2 materialı konveyor 1-ə ötürür və konveyor 1 işləmədikdə və materialı kənara apardıqda, material konveyor 2-yə qayıdır. Çoxpilləli sxem işə salma düyməsinin ətrafında kipkəc kimi istifadə olunan köməkçi kontakta malik səciyyəvi işə salma/dayandırma dövrəsini göstərir. Birinci işə salma düyməsi sıxıldıqda, M1-ə enerji veriləcək və M1-də öz növbəsində birinci konveyoru işə salacaq. M1-in köməkçi kontaktları işə salma düyməsini bərkidəcək və ikinci işə salma/dayandırma dövrəsinə dövrə gücü ötürəcək. Mühərrik starterləri elə ardıcıllıqla quraşdırılır ki, 1-ci mühərrik starteri 2-ci mühərrik starterinin işə salınmasından əvvəl qoşulmalıdır. İkinci dövrə M1-ə enerji verildikdən sonra həmişə gücə malik olduğu üçün onun işə salma və dayandırma düymələri birinci konveyorun mühərrik starterinin işinə mane olmadan ikinci konveyoru yandırmaq və söndürmək üçün istənilən vaxt işə salına bilər. Yadda saxlayın: Bu dövrə konveyor 1-in konveyor 2-dən əvvəl işləməsini tələb edir, çünki konveyor 2 materialı konveyor 1-ə ötürür. Dövrə həmçinin konveyor 1 hər hansı səbəbdən dayandığı halda ardıcıllığı qorumalıdır. Konveyor 1 dayandıqda, M1 mühərrikinin starteri dayanır və M1-in köməkçi kontaktları açıq vəziyyətə qayıdır və bu da öz növbəsində ikinci konveyorun işə salma/dayandırma dövrəsinə ötürülən enerjini dayandırır. Qeyd edilməlidir ki, bu idarəetmə dövrəsi üçün güc birinci mühərrik starterinin L1 və L2-dən gəlir. Yəni, əgər birinci konveyorun mühərriki üçün qidalandırıcı gərginlik hər hansı səbəbdən itirilərsə (məs: yanan, yaxud açılan və ya ayrılan qoruyucu) idarəetmə dövrəsinə ötürülən güc də itir və hər iki mühərrik starteri dayanır və bu da öz növbəsində hər iki konveyoru dayandırır. Əgər birinci mühərrik həddən çox cərəyan işlədərsə və cərəyanın izafi yüklərini açarsa, bu, mühərrik starterinin dolaq dövrəsində açılmaya və bu da birinci mühərrik starterinin köməkçi kontaktlarının açılmasına və hər iki mühərrik starterini dayandırmasına səbəb olacaq. Birinci konveyorun üzərindəki kəmərin faktiki hərəkətinə dair əlavə məlumat almaq istəyirsinizsə, konveyorun üzərində hərəkət datçiki quraşdırıla bilər və onun kontaktları birinci işə salma düyməsi və M1 dolağı arasında ardıcıl şəkildə birləşdiriləcək. Bu, birinci mühərrik starterinin dolağının dayanmasına səbəb olacaq. Düymə və M1 dolağı Bu, birinci mühərrik starterinin dolağının dayanmasına səbəb olacaq.



2. İdarəetmə dövrələri

(1) Sadə idarəetmə dövrəsi və komplektləşdirici hissələri: Sadə idarəetmə dövrələri bəzən çox-pilləli sxemlər də adlandırılır və bu sxemlərdə dövrələr nərdivana oxşar şəkildə cızılır. Montaj sxem-ləri bir-birini kəsən naqillərə malik olmayacaq. Naqillər bir-birini kəsən kimi göstərilir və düyün və ya nöqtə ilə göstərilməyənə qədər birləşdirilmir. Mexaniki birləşmələr (iki qütblü açarların üzərində və mexaniki blokirovkaların arasında quraşdırılan birləşmələr) qırıq xətlər kimi göstərilir.



(2) İki naqilli idarəetmə: İki naqilli idarəetmə dövrəsi öz xüsusiyyətinə görə aşağı gərginlikli ayırıcı dövrədir. Gərginliyin azalması və ya itirilməsi mühərriki dayandırır, lakin güc nominal qiymətinə qayıtdıqdan sonra mühərrik təkrar işə düşəcək. Təkrar işə düşmənin bu növü həm işçilər, həm də mexanizmlər üçün təhlükə yarada bilər, çünki güc xəbərdarlıq olmadan əsas vəziyyətə geri qayıda bilər. Dövrənin bu növü Şəkildə göstərilir



(3) Üç naqilli dövrə: Üç naqilli dövrə ani kontaktın İŞƏ SALMA-DAYANDIRMA düymələrindən və saxlayıcı dövrə blokirovkasından və ya düymənin ayrılmasından sonra dövrəni işlək saxlamaq üçün düyməli İŞƏ SALMA açarında saxlayıcı kontaktdan istifadə edir. Sxemin bu növü aşağı gərginliyin qorunmasını təmin edir. Aşağı gərginlik vəziyyəti və ya daxil olan enerjinin itirilməsi starterin "düşməsi"nə səbəb olacaq. Şəkil 30-da üç naqili LVP idarəetmə dövrəsi göstərilir. Güc bərpa edildikdə, üç naqilli idarəetmə üçün qoşulmuş starter avtomatik şəkildə işləməyəcək, çünki işə salma açarının ətrafındakı saxlayıcı kontakt indi açıqdır. Enerjinin kəsilməsindən sonra mühərriki təkrar işə salmaq üçün sıxıcı düymə sıxılmalıdır. Bu üsulla düşünülmüş təhlükəsiz tədbiri həyata keçirilməlidir.



(4) Mexaniki-söndürmə-avtomatik nəzarət vasitələri: Mühərrik kontrollerinin funksiyasını mexaniki və ya avtomatik rejimdə seçmək nəzərdə tutulduqda, mexaniki-söndürmə-avtomatik açarından istifadə edilir. Standart rejimə və üç mövqeli selektor açarına malik səciyyəvi idarəetmə dövrəsini göstərir. Açar MEXANİKİ vəziyyətə qoyulduqda, M dolağına davamlı surətdə enerji verilir və mühərrik işləyir. AVTOMATİK rejimdə mühərrik M dolağı ilə kontakt bağlanan zaman işləyəcək. Vaxt relesi, üzən açar və ya idarəetmə qurğusunun hər hansı digər növü bu kontaktı idarə edə bilər. Üç mövqeli, iki qırıqlı selektor açarını göstərir. Bu, əvvəlki dövrə kimi eyni üsulla mexaniki və ya avtomatik idarəetmə üçün istifadə edilir.



• Üç mövqeli, iki qırıqlı selektor açarı



• Mühərrik ardıcıllığının idarə edilməsi: Bu metodlar starterlər elə qoşulur ki, digər starter işə düşməyənə qədər heç bir starter işə salına bilməz və bu proses ardıcıllığın idarə edilməsi adlanır. Bu, mexanizm ilə əlaqəli köməkçi avadanlıq (məs: boşaltma nasosu üçün doldurma nasosu) əsas mexanizmin zədələnməsinin qarşısını almaq üçün işləməli olduğu zaman tələb olunur. Ardıcıllığın idarə edilməsi üçün birləşdirilən standart starteri göstərir.



M2 dolağının idarəetmə dövrəsi M1 dolağının saxlayıcı kontaktları vasitəsilə birləşdirilir. Nəticə ondan ibarətdir ki, M1 dolağı işə düşməyənə qədər ikinci starterin işə düşməsinin qarşısı alınır. Bir çox mühərrik Şəkildə göstərildiyi kimi bir İŞƏ SALMA-DAYANDIRMA düyməsi vasitəsilə avtomatik şəkildə işə salına bilər.



(5) Mühərrikin idarəetmə dövrələri: Əvvəlki bölmədə göstərilən mühərrik idarəetmə dövrəsində quraşdırılan blokirovka kontaktları yaxşı işləyir, lakin mühərrik yalnız hər bir sıxıcı düymənin sıxıldığı müddətdə işləyəcək. Hətta operator öz əlini idarəetmə açarından götürdükdən sonra belə mühərrikin işləməsini qoruyub saxlamaq istədikdə, iki fərqli yolla dövrəni dəyişdirə bilərik: biz düyməli açarları aşırma dəyişdirici açarlar ilə dəyişdirə, yaxud idarəetmə dövrəsini açarlardan birinin bir qısamüddətli sıxılması ilə "bağlamaq" üçün bir qədər daha çox rele məntiqi sxemini əlavə edə bilərik. Gəlin ikinci yanaşmanın necə tətbiq edildiyinə nəzər salaq, çünki ikinci yanaşma sənayedə geniş istifadə olunur.



"İrəli" düyməsi sıxıldıqda, M1 işə düşəcək, normal açıq köməkçi kontaktı həmin açar ilə paralel surətdə bağlayacaq. Düymə buraxıldıqda, bağlanmış M1 köməkçi kontakt M1-in dolağına ötürülən cərəyanı qoruyub saxlayacaq, beləliklə, "İrəli" dövrəsini "qoşulu" vəziyyətdə bağlayacaq. Eyni hadisə "Geri" düyməsi sıxıldıqda da baş verəcək. Bu paralel köməkçi kontaktlar bəzən bərkidici kontaktlar adlandırılır, "bərkitmə" sözü əsasən bağlama sözü ilə eyni mənanı ifadə edir. Buna baxmayaraq, bu, yeni problem yaradır: mühərrik necə dayandırılmalıdır! Dövrə dərhal çıxdığına görə mühərrik müvafiq düymə sıxıldıqdan sonra irəli və ya geri işləyəcək və enerji olduğu müddətdə işləməyə davam edəcək. Dövrəni dayandırmaq üçün (irəli və ya geri) biz mühərrik kontaktorlarına ötürülən enerjini dayandırmaq üçün operatora lazım olan bəzi vasitələri tələb edirik. Biz bu yeni açarı "Dayandır: İndi" adlandıracağıq;



Əgər irəli və ya geri dövrələri bağlanarsa, onlar "Dayandırma" düyməsini sıxmaqla ani şəkildə "açıla" bilər və bu, irəli və ya geri dövrəsini açacaq, işə düşmüş kontaktoru dayandıracaq və bərkidici kontaktı normal (açıq) vəziyyətə qaytaracaq. Normal qapalı kontaktlara malik "Dayandırma" düyməsi buraxıldıqdan sonra enerjini irəli və ya geri dövrələrinə ötürəcək. Hələki hər şey qaydasındadır. Gəlin əlavəni imtina etməzdən əvvəl mühərrikin idarəetmə sxeminin digər praktik aspektlərini nəzərdən keçirək. Hipotetik mühərrik böyük təcil ilə mexaniki yükə çevirərsə, (məs: böyük hava ventilyatoru) mühərrik dayandırma düyməsinin basılmasından sonra nəzərəçarpacaq müddətdə işləməyə davam edə bilər. Operator ventilyatorun dayanmasını gözləmədən mühərrikin istiqamətini geri qaytarmaq istədiyi təqdirdə, problem yarada bilər. Əgər ventilyator hələ də irəli işləyərsə və "Geri" düyməsi sıxılarsa, mühərrik geriyə fırlanmağa cəhd etdiyi üçün böyük ventilyatorun inersiyasına çətinliklə tab gətirəcək və bu, həddən artıq cərəyan işlədəcək və potensial olaraq mühərrikin, ötürücü mexanizmlərin və ventilyatorun istismar müddətini azaldacaq. Erkən işə düşmənin qarşısını almaq üçün bu mühərrikin idarəetmə sistemində hər hansı vaxt yubatma funksiyasını quraşdırmalıyıq. Gəlin vaxt yubatma relesinin bir cüt (biri hər bir mühərrikin kontaktor dolağı ilə paralel) dolağını əlavə etməklə başlayaq. Normal vəziyyətə qayıdışı yubadan kontaktlardan istifadə etdikdə, bu relelər mühərrikin sonuncu dəfə hansı istiqamətdə fırlanması barədə "yaddaş" təqdim edəcək. Hər bir vaxt yubatma kontaktı ventilyator dayanarkən bir neçə saniyə ərzində əks fırlanma dövrəsinin işə salıcı-dəyişdirici ayağını açmalıdır.



Əgər mühərrik irəli istiqamətdə işləyərsə, həm M1, həm də TD1 işə düşəcək. Belə halda TD1-in 8-ci və 5-ci naqillər arasında normal qapalı, vaxtı nizamlanan-qapalı kontaktı TD1 işə düşən kimi dərhal açılacaq. Dayandırma düyməsi basıldıqda, TD1 kontaktı normal qapalı vəziyyətinə qayıtmazdan əvvəl göstərilmiş müddətdə gözləyir, beləliklə, müvafiq müddətdə geri sıxıcı düyməli dövrəni açıq saxlayaraq M2-nin işə düşməsinə mane olur. TD1 işinə fasilə verərsə, kontakt bağlanacaq və dövrə geri sıxıcı düymə basıldığı təqdirdə, M2-nin işə düşməsinə imkan verəcək. Oxşar qaydada TD2 M2 (və TD2) dayandırıldıqdan sonra göstərilmiş vaxt yubanmasına qədər "İrəli" düyməsinin M1-i işə salmasının qarşısını alacaq. Diqqətli müşahidəçi TD1 və TD2-nin vaxt-blokirovka funksiyalarının M1 və M2 blokirovka kontaktlarını lazımsız etdiyini müşahidə edəcək. Biz blokirovkalar üçün M1 və M2 köməkçi kontaktlarından imtina edə və məhz TD1 və TD2 kontaktlarından istifadə edə bilərik, çünki bu kontaktlar onların müvafiq rele dolaqları işə düşdükdə dərhal açılır və beləliklə, digəri işə düşdükdə bir kontaktoru "bloklayır". Hər zaman yubatma relesi iki məqsədə xidmət edəcək: mühərrik işləyərkən digər kontaktorun işə düşməsinin qarşısını alır və mühərrikin dayanmasından sonra göstərilmiş vaxta qədər eyni kontaktorun işə düşməsinin qarşısını alır. Son dövrə əvvəlki nümunəyə nisbətən daha sadə olma üstünlüyünə malikdir:



Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Təcrübə Mühərrikin ardıcıllığının idarə edilməsi

(1) Məqsədlər:

1. Ardıcıllıq idarəetməsinin müəyyənləşdirilməsi;
2. Ardıcıllıq idarəetməsinin əldə olunması metodlarının müzakirəsi;
3. Qabaqcadan müəyyənləşdirilmiş ardıcıllıqda işə salınacaq üç mühərrik üçün idarəetmə dövrəsinin qoşulması.

(2) Təhlükəsizlik barədə xəbərdarlıqlar:

1. Dövrələri qoşmazdan əvvəl elektrik təchizatını düzgün şəkildə təcrid edin.
2. Avadanlığı stendin üzərinə qoyun ki, yerə düşməsin.

(3) Tələb olunan materiallar:

1.Üç fazalı enerji təchizatı/İdarəetmə transformatoru;
2. Ən azı üç yük kontaktı/iki normal açıq köməkçi kontaktdan ibarət 3 mühərrik starteri;
3. qısaqapanma rotoruna malik 3 asinxron mühərrik və ya simulyasiyalı üç mühərrik yükü;
4. iki hərəkətli dörd sıxıcı düymə (N.O./N.C. hər bir düymə üzərində);
5. Mustimetr, əl alətləri və birləşdirici naqil.

(4) Əsas məlumatlar

1. Ardıcıllığın idarə edilməsi dövrəni qabaqcadan müəyyənləşdirilmiş qaydada işləməyə məcbur edir. Bu təcrübədə üç mühərrik 1-dən 3-ə qədər ardıcıllıqda işə salınmalıdır. Dövrə üzrə tələblər aşağıdakı kimidir:

2. Mühərriklər 1-dən 3-ə qədər ardıcıllıqda işə düşməlidir. Məsələn, 1-ci mühərrik 2-ci mühərrikdən əvvəl, 2-ci mühərrik isə 3-cü mühərrikdən əvvəl işə salınmalıdır. 2-ci mühərrik 1-ci mühərrikdən, 3-cü mühərrik isə 2-ci mühərrikdən əvvəl işə düşə bilməz.

3. Hər bir mühərrik ayrıca sıxıcı düymə ilə işə salınır.

4. Bir dayandırıcı düymə bütün mühərrikləri dayandıracaq.

5. Hər hansı mühərrikin üzərində həddindən artıq yüklənmə üç mühərrikin üçünü də dayandıracaq.

6. Bir qayda olaraq, göstərilmiş tələblərə cavab verəcək dövrəni layihələndirmək üçün birdən artıq üsul mövcuddur, çünki təyinat yerinə çatmaq üçün ümumilikdə birdən artıq yoldan istifadə edilə bilər. Tələblərə cavab verəcək layihələrdən biri Şəkildə göstərilir. Dövrənin məntiqi sxemi əsas maraq dairəsində olduğuna görə yük kontaktları və mühərriklər göstərilmir. Bu dövrədə 1-ci sıxıcı düymə enerjinin 2-ci sıxıcı düyməyə ötürülməsindən əvvəl basılmalıdır. 1-ci mühərrik starteri işə düşdükdə, normal açıq köməkçi kontakt 1M bağlanır, dolaq 1M və 2-ci sıxıcı düyməyə enerji ötürür. Bundan sonra 2-ci mühərrik starteri 2-ci sıxıcı düyməyə basmaqla işə salına bilər. 2-ci mühərrik starteri işə düşdükdən sonra köməkçi kontakt 2M bağlanır və dolaq 2M və 3-cü sıxıcı düyməyə enerji ötürür. Əgər dayandırma düyməsi sıxılarsa və ya hər hansı yüklənmə kontaktı açılarsa, bütün starterlərə enerji verilişi dayanacaq.



7. Ardıcıllığın idarə edilməsi üçün ikinci dövrə





Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. Sahədə layihələndirmə/quraşdırma qaydasını izah etdi? 2. Avtomatik sistemin diapazonunu müəyyənləşdirdi? 3. Cihazları seçdi? 4. Dövrəni çəkdi? 5. Dövrəni qoşdu? 6. Dövrəni sınaqdan keçirdi? 7. Mühərrikin ardıcıl idarəetmə sistemini düzgün şəkildə təşkil etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

12. Sintez idarəetmə sisteminin təşkili (1)

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Bu idarəetmə dövrəsinin tərtibi qaydasını izah etməyi biləcək;
2. Sintez idarəetmə sistemini düzgün şəkildə təşkil etməyi bacaracaq .

Təcrübə materialları:
1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. İş paneli;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Sistemin müəyyənləşdirilməsi

(1) Möhkəm vəziyyətli taymer: Möhkəm vəziyyətli taymerlər bir çox formada və ölçüdə olur. Sənayedə istifadə olunan ən geniş yayılmış taymerlər: QOŞULMA yubanmalı və SÖNDÜRMƏ yubanmalı möhkəm vəziyyətli taymerlər.

(2) Qoşulma yubanmalı taymerin birləşdirilməsi: Qoşulma yubanmalı möhkəm vəziyyətli taymerin relesi iki detallı qurğudur və bu qurğunun bir hissəsi bünövrə, digər hissəsi isə vaxt relesidir. Qoşulma yubanmalı taymerin bünövrəsi idarəetmə releləri ilə növbələnən şəkildə istifadə edilir. Bünövrə düzgün yerləşməni təmin etmək üçün səkkiz kontakt dəliyinə malikdir (şəklə baxın) və açar dəliyinə malikdir.



Şəkil 1: QOŞULMA yubanmalı taymerin birləşdirilməsi

(3) Qoşulma yubanmalı taymerin şəkil 1-də göstərilən kontakt planının funksiyası aşağıdakı kimidir:
- 7-ci və 2-ci kontaktlar dolaq sıxaclarıdır
- 8-ci və 1-ci kontaktlar kontaktların iki dəsti üçün ümumi sıxaclardır
- Kontakt 2 normal açıq kontaktdır və kontakt 1 üçün ümumidir
- Kontakt 4 normal qapalı kontaktdır və kontakt 1 üçün ümumidir
- Kontakt 6 normal açıq kontaktdır və kontakt 8 üçün ümumidir
- Kontakt 5 normal qapalı kontaktdır və kontakt 8 üçün ümumidir

(4) Söndürmə yubanmalı taymerin birləşdirilməsi: Söndürmə yubanmalı taymer qoşulma yubanmalı taymerin relesinə çox oxşardır, lakin Şəkil 2-də göstərilən səkkiz kontakt əvəzinə 11 kontakta malikdir. Söndürmə yubanmalı taymerin bünövrəsi idarəetmə sisteminin idarəetmə naqillərini birləşdirmək üçün 11 sıxaca malikdir. Bünövrə həmçinin qurğunun lazımi qaydada oturmasını təmin etmək üçün 11 xarici kontakt dəliyinə və bir xarici açar dəliyinə malikdir. Söndürmə yubanmalı qurğu verilmiş vaxtı nizamlamaq və təyin etmək üçün bir şkalaya və bünövrəyə lazımi birləşmə üçün 11 daxili kontakta və bir daxili açar yuvasına malikdir.



Şəkil 2: Söndürmə yubanmalı taymerin birləşdirilməsi

(5) Şəkil 2 (b)-də göstərilən söndürmə yubanmalı relenin kontakt planının funksiyası aşağıdakı kimidir:

• 2-ci və 10-cu kontaktlar dolaq sıxaclarıdır
• 1-ci və 11-ci kontaktlar kontaktların iki dəsti üçün ümumi sıxaclardır
• Kontakt 3 normal açıq kontaktdır və kontakt 1 üçün ümumidir
•Kontakt 4 normal qapalı kontaktdır və kontakt 1 üçün ümumidir
•Kontakt 9 normal açıq kontaktdır və kontakt 11 üçün ümumidir
•Kontakt 8 normal açıq kontaktdır və kontakt 11 üçün ümumidir
• 5-ci və 6-cı kontaktlar söndürmə yubanmalı taymeri işə salmaq üçün istifadə edilən daxili dövrədir
• Kontakt 7 istifadə edilmir

(6) Vaxt yubanma relesi bəzi və ya bütün sənaye idarəetmə sistemləri vaxt hesablama əməliyyatlarını tələb edir. Vaxt hesablama qurğuları verilmiş vaxtda nəzarət qurğularını işə salmaq və ya söndürmək üçün istifadə edilir. Vaxt yubatma releləri və möhkəm vəziyyətli taymerlər oxşardır və nəzərdə tutulan yubanma və vaxt hesablama funksiyalarını təmin etmək üçün istifadə edilir. Taymerlər şkalalar, ekranlar və ya vaxtı və kontakt vəziyyətini qurğunun üzərində normal açıq və ya normal qapalı vəziyyətə gətirmək üçün bəzi növ operator interfeysi ilə təchiz edilir. Taymerlərin bir çox növünün mövcud olmasına və taymerlərin icra etdiyi müxtəlif funksiyalara baxmayaraq, onlar iki əsas növdə olur: QOŞULMA yubanmalı taymer və SÖNDÜRMƏ yubanmalı taymer.

(7) Qoşulma yubanmalı taymerin iş prinsipi: Qoşulma yubanmalı taymer taymerin işə düşmə-

si ilə idarə olunan kontaktların vəziyyətini dəyişdirir. Qoşulma yubanmalı rele taymeri qabaqcadan müəyyənləşdirilmiş vaxta qoyula və ya proqramlaşdırıla bilər və bu, verilmiş vaxt adlanır. Verilmiş vaxt millisaniyə/saat və hətta günlər ola bilər, lakin adətən sənaye idarəetmə sistemində bu vaxt saniyə və dəqiqəyə qoyulur. Taymerin dolağı işə düşdükdən sonra taymer sıfırdan verilmiş vaxta saymağa başlayır və bu hesab toplanmış vaxt kimi tanınır. Verilmiş vaxt və toplanmış vaxt bərabər olduqda, taymerin kontaktları öz vəziyyətini dəyişir; dolaq işə düşmədikdə normal olaraq açıq olan kontaktlar bağlanır və normal olaraq qapalı olan kontaktlar isə açılır. Taymerin kontaktları dolağın işə düşdüyü vaxt qədər dəyişmiş vəziyyətdə qalacaq. Enerji taymerin dolağından çıxarıldıqda, toplanmış vaxt sıfıra qayıdır və kontaktlar əsas vəziyyətinə qayıdır. Vaxt diaqramları adətən taymerlərin funksiyasını işini təsvir etmək üçün istifadə edilir, buna görə də taymerlərin funksiyasını başa düşmək üçün kiçik öyrənmə əyrisi mövcud olacaq.

1. Qoşulma yubanmalı kontakt simvolu: Qoşulma yubanmalı taymerlər asanlıqla çoxpilləli sxemlərdə müəyyənləşdirilə bilər. Qoşulma yubanmalı taymer dolaqları bütün yüklərin təsvir olunmuş çoxpilləli sxemləri kimi təqdim olunur, lakin TD abreviaturasının olduğu etiket mövcuddur və bu abreviatura vaxt yubanmasını ifadə edir və kontaktlar şəkildə göstərildiyi kimi, dibdən çıxan iki ayağa malik bir qütblü açar kimi cızılır. Kontakt normal olaraq qapalı və ya açıq kontakt olacaq. Normal açıq kontakt normal açıq vaxt ölçülü qapalı (NOTC), normal qapalı kontakt isə normal qapalı vaxt ölçülü açıq kontakt (NCTO) terminləri ilə ifadə olunur. Qoşulma yubanmalı kontaktlar ani kontaktlar dəstinə malik deyil (bu o deməkdir ki, kontaktlar taymerin dolağı işə düşdükdə dərhal vəziyyətini dəyişəcək). Bu əməliyyatın olmaması o deməkdir ki, taymer ani kontaktlara malik nəzarət qurğusu olan idarəetmə relesindən istifadə etmədən ani idarəetmə qurğuları ilə aktivləşdirilə bilməz. Ani idarəetmə qurğusu aktivləşdikdə, idarəetmə relesi dövrəni bərkitmək və zəruri müddət üçün işə düşən qoşulma yubanmalı taymerin dolağını saxlamaq üçün istifadə edilə bilər. NOTC Qoşulma yubanmalı kontakt

Şəkil 3: Qoşulma yubanmalı kontakt simvolu

2. Qoşulma yubanmalı taymerin vaxt diaqramı: Vaxt diaqramı kontaktın fəaliyyəti və ya taymerin çıxışı ilə əlaqədar taymerin vəziyyətini vaxt cihazına göstərən qrafikdir. Diaqram iki qrafikə malikdir: qrafiklərdən biri vaxt cihazına ötürülən giriş siqnalını təqdim etmək üçün istifadə olunur; qrafik xətlər isə vaxt qurğularının çıxışlarını və ya kontaktlarını təqdim etmək üçün istifadə olunur. Vaxt diaqramındakı qrafik xətlər yanlış-həqiqi, yandırma-söndürmə və ya yüksək-aşağı dərəcələrini göstərmək üçün cızılır. Xətlər vaxt tsiklinin diskret dəyərlərini təqdim etmək üçün sağ bucaqlarda cızılır. Normal açıq vaxt ölçülü qapalı (NOTC) normal açıq vaxt ölçülü qapalı yubanma kontaktını təsvir etmək üçün istifadə olunan vaxt diaqramıdır. Taymerin dolağı enerji aldıqda, verilmiş vaxt saymağa başlayır. Toplanmış vaxt verilmiş vaxta bərabər olduqdan sonra taymerin kontaktı normal qapalıdan açığa dəyişəcək və taymerin dolağı enerjini itirənə qədər açıq qalacaq. Bu zaman taymer sıfıra sıfırlanıb və tsikl yenidən başlaya bilər.



Şəkil 4: Qoşulma yubanmalı taymerin vaxt diaqramı

3. Normal qapalı vaxt ölçülü açıq (NCTO). Vaxt diaqramı normal qapalı vaxt ölçülü açıq kontaktı göstərmək üçün istifadə olunur. Bu diaqramda taymerin kontaktına birləşdirilmiş yük qoşuludur və taymerin dolağı işə düşdükdən və verilmiş vaxt toplanmış vaxta bərabər olduqdan sonra qoşulu qalacaq. Bu məqamda kontakt açılaraq yükün sönməsinə və taymerin dolağı dayanana qədər sönülü qalmasına səbəb olacaq. Dayandıqdan sonra taymerin dolağı sıfıra qayıdacaq və tsikl etməyə yenidən hazır olacaq.



Şəkil 5: Normal qapalı vaxt ölçülü açıq (NCTO).

(8) Söndürmə yubanmalı taymerin iş prinsipi: Qoşulma yubanmalı taymerlər kimi söndürmə yubanmalı taymerlər də asanlıqla müəyyənləşdirilə bilər. Söndürmə yubanmalı taymerin dolağı vaxt yubanmasını göstərmək üçün TD abreviaturası istisna olmaqla, digər yüklərin çoxpilləli sxemlərdə müəyyənləşdirildiyi kimi eyni üsulla birkalanır. Söndürmə yubanmanın kontaktları açardan aşağıya tuşlanan oxa malik bir qütblü açara oxşayır. Normal açıq söndürmə yubanmalı kontakt normal açıq vaxt ölçülü açıq adlandırılır, normal qapalı kontakt isə normal qapalı vaxt ölçülü qapalı kontaktlar adlandırılır. Əks əməliyyatın səbəbi söndürmə yubanmalı kontaktların ani olmasıdır. Söndürmə yubanmalı taymerin dolağı işə düşdükdən sonra kontaktlar dərhal öz vəziyyətini dəyişir. Söndürmə yubanmalı dolaq idarəetmə dövrəsində işə düşür, hesablama işə salınmayacaq. Söndürmə yubanmalı hesablama enerji dolaqdan çıxarılmayana qədər işə düşmür. Dolaq dayandıqdan sonra vaxt bitəcək və toplanmış vaxt verilmiş vaxta bərabər olduqda, söndürmə yubanmanın kontaktları normal vəziyyətinə qayıdacaq.

1. Söndürmə yubanmalı taymerin vaxt diaqramı: Söndürmə yubanmalı vaxt diaqramı qoşulam yubanmalı vaxt diaqramı kimi eyni qaydada şərh edilə bilər. Mühüm amil ondan ibarətdir ki, söndürmə yubanmalı vaxt diaqramını şərh edərkən söndürmə yubanmalı taymerin ani kontaktlara malik olması xatırlanmalıdır. Normal qapalı vaxt ölçülü qapalı söndürmə yubanmalı kontakt (NCTC).



Şəkil 6: SÖNDÜRMƏ yubanmalı taymerin vaxt diaqramı

2. Normal qapalı vaxt ölçülü qapalı söndürmə yubanmalı kontaktın (NCTC) vaxt diaqramı söndürmə yubanmalı taymerin normal qapalı kontaktını göstərmək üçün istifadə edilir. Normal qapalı kontakta birləşdirilmiş yük taymerin dolağının işə düşməsindən əvvəl qoşulacaq. Taymerin dolağı işə düşdükdən sonra kontakt dərhal açılaraq yükün sönməsinə və dolaq dayanana və verilmiş vaxt bitənə qədər sönülü qalacaq.



Şəkil 7: Normal qapalı vaxt ölçülü qapalı söndürmə yubanmalı kontakt (NCTC)

Normal açıq vaxt ölçülü açıq SÖNDÜRMƏ yubanmalı kontaktın (NOTO) vaxt diaqramı normal açıq vaxt ölçülü söndürmə yubanmalı kontaktı göstərmək üçün istifadə edilir. Qrafikdə taymerin dolağı işə düşür və yükün birləşdiyi kontakt açılır. Taymerin dolağı işə düşdükdə, kontakt dərhal bağlanaraq kontakta birləşmiş yükü qoşacaq. Yük verilmiş vaxt bitmiş vaxta bərabər olmayana qədər taymerin dolağı dayandıqdan sonra qoşulu qalacaq və sonra yük sönəcək.

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Təcrübə İsitmə dövrəsi

(1) Sxem



(2) Boru sxemi



(3) Güc kontaktorunun daxili dövrəsi



(4) Titrəmə relesi, 8 kontaktlı rele və 8 kontaktlı taymerin daxili dövrəsi



(5) Plan



(6) Şərti işarələr

Şərti işarələr			
simvol	**təyinat**	**Simvol**	**təyinat**
TB1	Güc (sıxac bloku 4P)	**X1, X2**	Rele-2a2b (8P).
MC1, MC2	Maqnit kontaktor (12P).	**PB1**	Düyməli açar (qırmızı).
EOCR	Maksimal cərəyan relesi (12P)	**YL,GL,RL,WL**	Lampa (220V)
Taymer	QOŞULMA yubanmalı taymer (8P)	**MCCB**	Avtomatik açar
PB2	Düyməli açar (qırmızı).	**TB2, TB3**	Mühərrik (sıxac 4P).
QORUYU-CU	2P qoruyucu tutqacı.	**TB4**	Verici (sıxac 4P)
TB5, TB6	Sıxac bloku (10P + 10P)	**PB0**	Düyməli açar (yaşıl)

(7) Təcrübə işinin hazırlanması.

1. Cizgilərdən istifadə olunmasını təmin edin.
2. Tələb olunan materialları və zəruri alətləri hazırlayın.
3. Təchiz olunacaq materialları müəyyənləşdirin.

(8) Qurğunu idarəetmə panelinə quraşdırın.

1. Plan və hər bir qurğunun idarəetmə panelinə bərkidilməsi.
2. Əsas və idarəetmə dövrəsinin idarəetmə panelinin üzərində naqillərlə birləşdirilməsi.

(9) Hər bir qurğunun yerini işarələyin və onları xarici idarəetmə panelinə bərkidin

1. Hər bir qurğunun yerini cizgiyə uyğun işarələyin.
2. Qurğuları işarələnən yerə bərkidərkən, cizgiyə uyğunluğu təmin etmək üçün üfüqi və şaquli vəziyyəti yoxlayıb təsdiq edin.

(10) Dövrəni quraşdırın

1. Cizgiyə uyğun olaraq, dövrənin yerini seçin.
2. PE və CD dövrələrini quraşdırın.

(11) Naqilləşdirmə və birləşdirmə.

1. İdarəetmə dövrəsinə uyğun olaraq, elektrik mənbəyi, mühərriklər, detektorlar və siqnalların naqilləşdirilməsi və birləşdirilməsi.
2. Bütün sıxacların və qurğuların naqilləşdirilməsi və torpaq birləşməsinin yerinə yetirilməsi.

(12) Yoxlama və istismar sınağını yerinə yetirin.

1. Dövrə testeri ilə hər bir və bütün dövrələri yoxlayın.
2. Mühərriklər, isidici və vericinin işini sınaqdan keçirin.

(13) Alətləri və materialları səliqəyə salın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. İdarəetmə dövrəsinin tərtibi qaydasını izah etdi? 2. Bütün komplektləşdirici hissələri layihələndirdi? 3. İnternet saytında detalı axtardı? 4. Qurğuları quraşdırdı? 5. Naqilləşdirməni yerinə yetirdi? 6. Dövrəni təftiş etdi? 7. Mühərriki birləşdirdi? 8. Təcrübi idarəetmə yerinə yetirdi? 9. Təmir etdi/texniki xidmət göstərdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*

13. Sintez idarəetmə sisteminin təşkili (2)

İşin məqsədi: *Bu modulu bitirdikdən sonra tələbə:*
1. Bu idarəetmə dövrəsinin tərtibi qaydasını izah etməyi biləcək;
2. Sintez idarəetmə sistemini düzgün şəkildə təşkil etməyi bacaracaq .

Təcrübə materialları:
1. Cihazlar;
2. Elektrik naqili.

Avadanlıqlar və alətlər:
1. İş paneli;
2. Alətlər qutusu.

Mövzu ilə əlaqəli biliklər

1. Sistemin müəyyənləşdirilməsi

(1) Mühərrik kontaktorları və mühərrik starterləri böyük cərəyan yüklərini idarə etmək üçün istifadə olunan nəzarət qurğularıdır. İsidicilər, dayanacaq işıqları və elektrik mühərrikləri kimi böyük cərəyan yükləri işəsalma zamanı cərəyanın böyük həcmini tələb edir. Operatorun və ümumi məişət işıq açarları kimi yüngül rejimli idarəetmə qurğularının bu yüksək cərəyanların təsirinə məruz qalmasına yol verməmək üçün kontaktorlar və mühərrik starterlərindən istifadə olunur. Şəkildə göstərilən kontaktorlar və mühərrik starterləri birbaşa nəzarət ediləcək yüklərə (məs: yüksək enerjili lampa və ya üç fazalı sənaye mühərriki) qoşulur. İdarəetmə qurğusu və ya idarəetmə sistemi kontaktoru və ya mühərrik starterini idarə etmək üçün istifadə edilir. Mühərrik kontaktoru Elektron izafi yüklərə malik mühərrik starteri



Şəkil 1: Mühərrik kontaktorları və mühərrik starterləri

• **Kontaktor və mühərrik starterinin iş prinsipi:** Kontaktorlar və mühərrik starterləri yumşaq dəmir özəyin ətrafına sarınan naqil dolağından ibarətdir. Gərginlik idarəetmə qurğusunun dolağına tətbiq edildikdə, elektromaqnit sahə yaradılır. Bu elektromaqnit sahə yüklərin qoşulma və sönmə əməliyyatına səbəb olmaq üçün idarəetmə qurğusu tərəfindən istifadə edilir. Dolağı işə salmaq üçün istifadə edilən cərəyan yükü işlətmək üçün tələb olunan cərəyandan bir qədər azdır. Bu göstərir ki,

yük kontaktorda və ya mühərrik starterində işə salma üçün 30 amp cərəyan işlədə bilər, lakin yalnız təxminən 2 A və ya 200 mA olan cərəyanla idarə olunacaq. Aşağı cərəyanla işləmək yüksək cərəyanla işləməyə nisbətən daha təhlükəsizdir, çünki yüksək cərəyan operatoru və ya avadanlığı zədələyə bilər.

• **Kontaktor və mühərrik starterinin nominalı və ölçüsü:** Kontaktorlar və mühərrik starterləri müxtəlif sahələrə və əməliyyatlara tətbiq edilmək üçün bir çox ölçüyə və nominallara malik olur. Tətbiq sahələri dəlmə dəzgahını işə salan starterdən tutmuş elektrik odluğu işlətmək üçün istifadə olunan kontaktora qədər dəyişə bilər. Bilmək lazımdır ki, hər hansı ölçülü kontaktor və ya mühərrik yükləri işlətmək üçün kifayət etməyəcək; kontaktorlar və mühərrik starterləri ilə işləyərkən texniki xidmət üzrə texniklər və quraşdırıcılar nəzarət qurğularının quraşdırılması üzrə təlimatlara riayət etməlidir. Mühüm əhəmiyyət kəsb edən təlimatlardan biri tətbiq olunan yükün cərəyan gücüdür. Bu, NEMA (Milli Elektrik İstehsal Assosiasiyası) və ya IEC (Beynəlxalq Elektrotexniki Koalisiya) standartlarına cavab verən düzgün ölçülü cihazın seçilməsini müəyyənləşdirəcək. Həmçinin qurğunun quraşdırılacağı mühiti bilmək də mühüm əhəmiyyət kəsb edir. Bu, idarəetmə qurğunun işində hər hansı pozulmaya yol verməmək üçün düzgün korpusun seçilməsini təmin edəcək. Bu nəzarət qurğuları eyni icra etsə də, eyni vəzifəni icra edə bilməz.

• **Mühərrik kontaktoru:** Aşağıdakı bölməyə kontaktorlar haqqında ətraflı müzakirə daxildir. Kontaktorlar iki növə bölünür: mexaniki və maqnit kontaktorlar. Mexaniki kontaktorlar və mühərrik starterləri orta və aşağı cərəyanlı yük əməliyyatları üçün layihələndirilir və bu zaman operator təhlükəsizliyi üçün qoşulacaq və söndürüləcək yükün bilavasitə yaxınlığında olmalıdır. Maqnit kontaktorları və mühərrik starterləri təhlükəsiz iş üçün həddən çox yük cərəyan daşıya bilən yüklərin avtomatlaşdırılması və uzaqdan idarə olunmasında istifadə edilir.

• **Mexaniki kontaktorun iş prinsipi:** Mexaniki kontaktorlar yüklənmə mühafizəsini tələb etməyən yükləri (məs: isitmə elementləri) işlətmək üçün istifadə edilən nəzarət qurğulardır, yaxud bu kontaktorlar daxili səviyyədə layihələndirilmiş yüklənmə mühafizəsinə malik yükləri (məs: bir fazalı dəyişən cərəyanlı mühərriklər) işlədir. Mexaniki kontaktorlar onlara birləşdirilmiş yükləri işlətmək üçün qoşucu və söndürücü aşırma dəyişdirici açar ilə təchiz edilir və bu o deməkdir ki, yükləri işə salmaq üçün düyməyə basmaq lazımdır. Mexaniki kontaktorlar orta rejimli yüklərə daha yaxşı uyğunlaşdırılıb, çünki qurğuların daxilində quraşdırılan kontaktlar uzun müddətdə böyük həcmdə cərəyanı daşımaq qabiliyyətinə malikdir, adi açar isə daha aşağı cərəyan əməliyyatlarına hesablanıb və uzun müddətdə böyük həcmdə cərəyanı idarə edə bilmir.

Şəkil 2: Mexaniki kontaktor

Təcrübə təhlükəsizliyi və ehtiyat tədbirləri

1. Təcrübəni təlimatçının göstərişinə uyğun həyata keçirin.
2. İcazə olmadan sınaq maşınına toxunmayın.
3. Bir şey yanlış gedərsə, dərhal təlimatçını xəbərdar edin.

Təcrübə mərhələləri: Naqil birləşməsi.

1. Təcrübə Standart montaj sxeminə malik dövrənin istismarı

(1) Sxem



(2) Boru sxemi



(3) Üzən rele və relenin daxili dövrəsi (11 kontakt)



• Güc kontaktorunun daxili dövrəsi





(5) Plan



(6) Şərti işarələr

Şərti işarələr			
Simvol	**Təyinat**	**Simvol**	**Təyinat**
TB1	Güc (sıxac bloku 4P)	**X1, X2**	Rele-2a2b (8P).
MC1, MC2	Maqnit kontaktor (12P).	**PB1**	Düyməli açar (qırmızı).
EOCR	Maksimal cərəyan relesi (12P)	**YL,GL,RL,WL**	Lampa (220V)
Taymer	QOŞULAM yubanmalı taymer (8P)	**MCCB**	Avtomatik açar
PB2	Düyməli açar (qırmızı).	**TB2, TB3**	Mühərrik (sıxac 4P).
QORUYU-CU	2P qoruyucu tutqacı.	**TB4**	Verici (sıxac 4P)
TB5, TB6	Sıxac bloku (10P + 10P)	**PB0**	Düyməli açar (yaşıl)

(7) Təcrübə işinin hazırlanması

1. Cizgilərdən istifadə olunmasını təmin edin.
2. Tələb olunan materialları və zəruri alətləri hazırlayın.
3. Təchiz olunacaq materialları müəyyənləşdirin.

(8) Qurğunu idarəetmə panelinə quraşdırın

1. Plan və hər bir qurğunun idarəetmə panelinə bərkidilməsi.
2. Əsas və idarəetmə dövrəsinin idarəetmə panelinin üzərində naqillərlə birləşdirilməsi.

(9) Hər bir qurğunun yerini işarələyin və onları xarici idarəetmə panelinə bərkidin

1. Hər bir qurğunun yerini cizgiyə uyğun işarələyin.

2. Qurğuları işarələnən yerə bərkidərkən, cizgiyə uyğunluğu təmin etmək üçün üfüqi və şaquli vəziyyəti yoxlayıb təsdiq edin.

(10) Dövrəni quraşdırın

1. Cizgiyə uyğun olaraq, dövrənin yerini seçin.

2. PE və CD dövrələrini quraşdırın. (11) Naqilləşdirmə və birləşdirmə.

3. İdarəetmə dövrəsinə uyğun olaraq, elektrik mənbəyi, mühərriklər, detektorlar və siqnalların naqilləşdirilməsi və birləşdirilməsi.

4. Bütün sıxacların və qurğuların naqilləşdirilməsi və torpaq birləşməsinin yerinə yetirilməsi.

(11) Yoxlama və istismar sınağını yerinə yetirdi?

1. Dövrə testeri ilə hər bir və bütün dövrələri yoxlayın.

2. Mühərriklər, isidici və vericinin işini sınaqdan keçirin.

(12) Alətləri və materialları səliqəyə salın.

Qiymətləndirmə testi

Qiymətləndirmə standart meyarları	Bəli	Xeyr	T/E
Tələbə bu modulun tapşırıqlarını yerinə yetirərkən: 1. İdarəetmə dövrəsinin tərtibi qaydasını izah etdi? 2. Bütün komplektləşdirici hissələri layihələndirdi? 3. İnternet saytında detalı axtardı? 4. Qurğuları quraşdırdı? 5. Naqilləşdirməni yerinə yetirdi? 6. Dövrəni təftiş etdi? 7. Mühərriki birləşdirdi? 8. Təcrübi idarəetmə yerinə yetirdi? 9. Təmir etdi/texniki xidmət göstərdi? 10. Sintez idarəetmə sistemini düzgün şəkildə təşkil etdi?			

*T/E (tətbiq edilmədi) – *Tələbə təcrübi məşq şəraiti ilə əlaqədar olaraq məşqi yerinə yetirə bilmədi*